AFİNA ƏFLATUN qızı MƏMMƏDLİ

ƏHMƏD CAVAD
VƏ TÜRKİYƏ

BAKI – 2010

Azərbaycan Milli Elmlər Akademiyası Nizami adına Ədəbiyyat İnstitutunun Elmi Şurasının 3 may 2010-cu il tarixli 3 saylı qərarı ilə çapa tövsiyə edilmişdir.

Elmi redaktor: **Bəkir Nəbiyev**
akademik

Rəyçilər: **Kamran Əliyev**
filologiya elmləri doktoru, professor

Arif Əmrahoğlu
filologiya üzrə fəlsəfə doktoru

Afina Məmmədli. Əhməd Cavad və Türkiyə. Bakı: Elm və Təhsil, 2010

«Əhməd Cavad və Türkiyə» mövzusu müəllif tərəfindən ilk dəfə olaraq sistemli şəkildə geniş tədqiqata cəlb olunmuşdur. Monoqrafiya Azərbaycan və Türkiyə ədəbiyyatşünaslığı müstəvisində işlənmiş, hər iki ölkənin arxiv materialları, elmi qaynaqları əsasında yazılmış, bir sıra qaranlıq məsələlərə aydınlıq gətirilmişdir.

Kitab geniş oxucu auditoriyası üçün nəzərdə tutulmuşdur.

Atam Əflatun Saraçlının
əziz xatirəsinə

ÖN SÖZ

Görkəmli Azərbaycan şairi Əhməd Cavad Axundzadə (1892-1937) ədəbi-ictimai fikrimizdə romantizm ədəbi məktəbinin istedadlı nümayəndəsi, nasir, publisist və «milli istiqlal şairi» kimi məşhurdur. Onun zəngin ədəbi yaradıcılığı milli tarixi və ədəbi-mədəni irsimizi araşdırmaq baxımından ədəbiyyatşünaslıq elmimizə dəyərli faktlar verir. Azərbaycanın yenidən istiqlala qovuşduğu hazırkı dövrdə Ə.Cavad və onun silahdaşlarının mübariz həyat yollarını, yaradıcılıqlarının ideya-sənətkarlıq xüsusiyyətlərini elmi şəkildə öyrənmək xüsusi əhəmiyyət kəsb edir.

XX əsrin əvvəllərində Azərbaycan romantik poeziyasının bir nümayəndəsi kimi Ə.Cavadın Türkiyə ilə ədəbi əlaqələrin inkişafında, türkçülük və istiqlal ideyalarının formalaşmasında və təbliğində, iki ölkə arasında ictimai-siyasi, ədəbi-mədəni əlaqələrin qüvvətlənməsində, Türkiyə istiqlal şairləri ilə münasibətlərin genişlənməsində xidmətləri böyükdür. Bu cəhət xüsusilə vurğulanmalıdır ki, heç bir Azərbaycan şairi Ə.Cavad qədər Türkiyə ilə bu dərəcədə bağlı olmamışdır. Hətta Cümhuriyyət dönəmində Azərbaycanın çətin zamanlarında yardıma çağırılan Qafqaz İslam Ordusu ilə birgə döyüşlərdə iştirak edən, Türkiyə şairlərini Azərbaycanda qarşılayan, görüşlər keçirən, ən çox çıxışlar edən sənətkar da Ə.Cavad olmuşdur. Sovet imperiyası dövründə onun yaradıcılığının bolşevik ideoloji prinsiplərilə vulqar-sosioloji yanaşma üzündən yetmiş ildən çox gərəyincə dəyərləndirilməməsinin, çap edilməməsinin, həmişə tənqid olunmasının,

istiqlal və türkçü, Türkiyə, türklüyə sevgi ruhlu şeirlərinin xalqdan gizli saxlanılmasının başlıca səbəbi də bununla bağlıdır. H.Cavid kimi türkçü, Türkiyə ilə bağlı şairlərlə birlikdə Ə.Cavad da pantürkist, satqın, «xalq düşməni» adlandırılmış, 1937-ci il repressiya qurbanı olmuşdur.

Yalnız Sovet hakimiyyəti dağıldıgdan sonra, Azərbaycanda milli konsepsiyanın yaranması ilə bağlı repressiyaya məruz qalmış sənətkarlarımızın yaradıcılığının obyektiv dəyərləndirilməsi üçün şərait yaranmışdır. Son illər bu istiqamətdə tədqiqatlar çoxalmış və Əhməd Cavad haqqında da bəzi araşdırmalar meydana gəlmişdir. Ancaq onun Türkiyə ilə bağları, əlaqələri, bu mövzuda əsərləri, türkçülük görüşləri üzərində ayrıca bir tədqiqat aparılmayıb. Problemin geniş, dərindən, obyektiv və elmi şəkildə araşdırılması Ə.Cavad poeziyasının məxsusi keyfiyyətlərinin, eləcə də, ümumiyyətlə, romantik şairlərin yaradıcılıq xüsusiyyətlərinin, romantik poeziyanın özünəməxsusluğunun və mahiyyətinin daha da aydınlaşmasına işıq sala bilər, çünki «istiqlal fikrinin təsisində Vaqifdən tutmuş Cavidə qədər, Zakirdən başlamış Cavada qədər, Mirzə Fətəlidən Üzeyirə kimi, «Əkinçi»dən «Azərbaycan» və «Yeni Qafqasiya»yadək hər bir şairin, hər bir ədibin, hər bir qəzetənin, hər bir aktyor və müəllimin olduqca böyük və dəyərli rolları olmuşdur» (90, 134).

Başqa romantiklər kimi, Ə.Cavad da tək Azərbaycanın yox, həm də bütün türk dünyasının, xalqlarının taleyini, gələcəyini düşünür, birliyini arzu edirdi. Onların yaşam və tərəqqisini bir-birindən ayrılıqda təsəvvür etmirdi. Bu yolda Türkiyənin roluna ayrıca önəm verirdi. Ümumtürk mədəniyyətinin parçalanmamasını, birliyinin daha da güclənməsini arzu edirdi. Onun mədəni türkçülük

görüşləri türk birliyi və türk dövlətçiliyi məsələsində siyasi türkçülüklə qovuşurdu.

Monoqrafiyada bu məsələlər, eləcə də Balkan və Birinci Cahan savaşı illərində Ə.Cavadın Türkiyədə cəbhə bölgələrində olması, Bakı mətbuatına məqalələr və xəbərlər yazması, bu mövzulara, eləcə də Türkiyə, onun tarixinə, taleyinə, şəhərlərinə şeirlər həsr etməsi və başqa məsələlər geniş və mümkün olduğu qədər obyektiv şəkildə araşdırılaraq, qiymətləndirilir.

Bu gün belə Ə.Cavadın Turkiyədəki populyarlığı, onun Türkiyədəki mövqeyi, TBMM-də (Türkiyə Böyük Millət Məclisi) onun haqqında edilən məruzə Ə.Cavad yaradıcılığının Azərbaycan və Türkiyə arasındakı münasibətlərə müsbət yöndən təsirindən və faydasından bəhs etməyə əsas verir.

Şairin böyüklüyü ondadır ki, o öz yaradıcılığı ilə hazırkı mədəni-ideoloji proseslərə müasir, mübariz bir sənətkar kimi təsir etmə gücünə malikdir. Məhz bu keyfiyyətinə görə müasir mərhələdə Ə.Cavad yaradıcılığına tədqiqatçıların marağı xeyli artıb.

Əhməd Cavad və Türkiyə problemiylə bağlı Azərbaycanda akademik Bəkir Nəbiyev («Əhməd Cavad»), prof. Əflatun Saraçlı («Azərbaycan yazıçıları Cümhuriyyət dönəmində»), prof. Alxan Bayramoğlu («ADR dövründə ədəbiyyat»), f.e.d. Əli Saləddin («Əhməd Cavad»), f.e.d. Aybəniz Əliyeva (Kəngərli) («Azərbaycan romantiklərinin yaradıcılığında türkçülük»), f.e.d. Nazif Ələkbərli («Üç budaq»), f.e.d. C.Qasımov («Əsrin qiyamət çağı», «Repressiyadan deportasiyaya doğru»), f.e.n., dos. Təyyar Salamoğlu («Faciəli talelər»), f.e.n. Göyərçin Mustafayeva («Ə.Cavad yaradıcılığında milli istiqlal problemi»), Rəhman Həsənov («Ə.Cavadın yaradıcılıq yolu») və baş-

qalarının tədqiqat əsərlərində, Türkiyədə Sərvət Gürcan («Çırpınırdı Qara dəniz») və İrfan Murad Yıldırımın («Salam Türkün bayrağına») kitablarında toxunulmuşdur. Lakin Əhməd Cavadın Türkiyə ilə əlaqələri, Azərbaycan-Türkiyə ədəbi əlaqələrindəki yeri, onun yaradıcılığında türkçülük və Türkiyə mövzusu, həyat və yaradıcılığının Türkiyədə tədqiqi, təbliği və nəşri, bütövlükdə Əhməd Cavad və Türkiyə problemi indiyədək ayrıca bir tədqiqat mövzusuna çevrilməmişdir. Bu monoqrafiya həmin mövzuda yazılmış ilk sistemli elmi tədqiqat əsəridir.

Monoqrafiyada əsas məqsəd istiqlal şairi Ə.Cavadın Türkiyə ilə əlaqələrini, Türkiyədəki fəaliyyətini, bu mövzuda yazdığı çeşidli janrlardakı əsərlərini və onun türkçülük görüşlərini aydınlaşdırmaq, eyni zamanda Ə.Cavadın Türkiyədə tədqiqi və təbliği məsələlərini araşdırmaq, onun ədəbi əlaqələr tariximizdəki mövqeyini müəyyənləşdirməkdir.

Mövzunun ilk dəfə olaraq sistemli şəkildə tədqiqata cəlb olunması bir sıra maraqlı elmi yeniliklərin üzə çıxmasını şərtləndirmişdir. Nə 70 illik şura dönəmində, nə də Azərbaycanın müstəqilliyi illərində Ə.Cavad və Türkiyə problemi ayrıca tədqiqat obyekti olmamışdır. Problemin Azərbaycan və Türkiyə ədəbiyyatşünaslığı müstəvisində işlənməsi, şairin yaradıcılığının hər iki ölkədə mütəxəssislər tərəfindən nəşri və tədqiqi məsələlərinin paralel, elmi, müqayisəli şəkildə araşdırılması da bir sıra qaranlıq məsələlərə işıq tutmağa yardım etmişdir. Əsər hər iki ölkənin arxiv materialları, elmi qaynaqları əsasında yazılmışdır. Burada Azərbaycan mühacirət ədəbiyyatının Ə.Cavad və onun Türkiyə, türkçülük haqqındakı fikirlərinə münasibəti də ilk dəfə öz əksini tapır.

Monoqrafiyada Ə.Cavadın Balkan, Birinci Cahan

savaşı illərində Türkiyə cəbhələrində əsgərlər arasında olması, xeyriyyəçilik və müxbirlik fəaliyyəti, məqalələri zəngin qaynaqlar əsasında öyrənilir və bu mövzudakı şeirləri incələnir, «Çırpınırdın, Qara dəniz» şeirinin ilk dəfə olaraq yazılma tarixçəsi açıqlanır.

Ə.Cavadla M.Akif Ərsoy, R.Tofiq, M.Ə.Yurdaqul kimi istiqlalçı və türkçü şairlərin yaradıcılıq ilişgiləri ilk dəfə sistemli şəkildə müqayisə olunur. Hər bir şairin ayrı-ayrılıqda Ə.Cavad yaradıcılığına hansı yöndən təsirli olması məsələlərinə aydınlıq gətirilir. Əsərin bir yeniliyi də Ə.Cavadın türkçülük və turançılıq görüşlərinin ayrıca açıqlanması, bu ruhlu şeirlərinin təhlilindədir. Burada Ə.Cavadın turançılıq görüşləri türkçülük və azərbaycançılıq görüşləri ilə vəhdətdə izah edilir.

Ə.Cavadın türkçülüyü, Türkiyəyə məhəbbəti ilə istiqlal arzuları və onu tərənnüm etməsi bir-biri ilə sıx bağlıdır. Yəni istiqlal uğrunda əməli mübarizələri ilə onun tərənnümü bir-birini tamamlayır. Odur ki, yeri gəldikcə şairin Azərbaycan-Türkiyə münasibətləri işığında istiqlalçı görüşlərindən də söhbət gedir ki, bu da onun yaradıcılığının öyrənilməsinə yeni və obyektiv bir münasibət formalaşdırır. Monoqrafiyada istiqlalçı şairin Azərbaycan-Türkiyə münasibətlərinə yüksək amalla və canından keçərək xidmət etməsi milli məfkurə kontekstində aydınlaşdırılmışdır.

Burada şairin məhz Türkiyəyə münasibətinə və türkçülük görüşlərinə görə keçən əsrin 20-30-cu illərində sıxışdırılması, damğalanması və repressiya qurbanı olması da sənədlər əsasında aydınlaşdırılır.

Tədqiqatda yeni bir cəhət də Azərbaycan mühacirlərinin, eləcə də prof. Yavuz Akpınar, Sərvət Gürcan, Müslüm Oğuz, İrfan Murad Yıldırım və başqa Türkiyə

mütəxəssislərinin Ə.Cavad haqqındakı tədqiqatlarına geniş şəkildə müraciət olunmuş və münasibət bildirilmişdir. Qeyd etməliyik ki, İ.M.Yıldırımın «Selam Türkün Bayrağına» kitabı bu tədqiqatda hərtərəfli elmi təhlilə çəkilmişdir. Burada M.Oğuzun «Nisan ağlar mayısa» romanındakı Ə.Cavad obrazı da təhlil olunur.

Əsərdə indiyədək Ə.Cavadın əsəri kimi təqdim edilmiş, o vaxt Azərbaycan məktəblərində də tədris olunan «Sərf və nəhv» («Morfologiya və sintaksis») dərsliyinin əslində Türkiyədə Əhməd Cavad Əmrə (1876-1961) adında görkəmli dilçi alimə aid olduğu faktı aşkarlanmışdır.

Monoqrafiyada ictimaiyyətə təqdim olunan bir yenilik də Ə.Cavadın məşhur türk ədibi Ə.Hamidin «Duxtəri-Hindu» pyesinin çevirməsi olan «Hind qızı» əsərinin arxiv sənədləri əsasında ilk dəfə elmi təhlilə çəkilməsidir. Burada Ə.Hamidin əsərinin Azərbaycandakı başqa yazıçılar tərəfindən çap edilməmiş tərcümə variantları da aşkarlanmışdır. Ə.Cavadın «Duxtəri-Hindu» pyesinin bir növ sərbəst çevirməsi olan «Hind qızı» əsəri ilk dəfə başqa tərcümə variantları, əsərin orijinalı, şairin əlyazma nüsxəsi və əsərin səhnələşdirilmiş şəkli ilə tutuşdurularaq hərtərəfli tədqiq edilmişdir.

Əsərdə Ə.Cavad şeirlərinə Türkiyədə yazılmış nəzirələr də tədqiq olunur.

İlk dəfə bu tədqiqat işində Ə.Cavadın 1928-ci ildə, İstanbulda çıxan «İstiqlal uğrunda» adlı məcmuədəki bütün şeirlərindən bəhs edilmişdir. Burada müəyyən edilmişdir ki, Ə.Abidə aid olan «Ağla, gözəl gəlin» şeiri yanlışlıqla Ə.Cavadın adına getmişdir.

Ə.Cavadın Türkiyədəki məşhurluğunu internetdəki elmi xəbər və məlumatlardan da aşkar şəkildə görmək

mümkündür. Monoqrafiyanın bir yeniliyi də Ə.Cavada dair bütün internet qaynaqlarının elmi süzgəcdən keçirilməsindədir. Buradan M.K.Atatürkün imzalı kitabları arasında Əhməd Cavadın «Qoşma» kitabının da olduğu müəyyən edilmişdir.

Ə.Cavad adına və əsərlərinə yalnız bəraət aldıqdan sonra ehtiyatla müraciət olunmağa başlanmış, onun yaradıcılığının əsas mahiyyəti xalqdan gizli saxlanılmağa çalışılmışdır. «Əhməd Cavad və Türkiyə» mövzusu da belə problemlərdəndir.

Ə.Cavad xalqımız üçün yalnız ədəbi yox, eyni zamanda tarixi şəxsiyyətdir. İstiqlal şairinin yaradıcılığının araşdırılmasında ardıcıllıq yalnız müstəqillikdən sonra gerçəkləşmişdir. Lakin şairin ədəbi-tarixi fəaliyyəti bu araşdırmaların davamı zərurətini tələb edir. Şairin fikir və sənət tariximizdə yerinin müəyyənləşdirilməsi üçün bir sıra problemlərə aydınlıq gətirilməsi lazımdır.

I FƏSİL

ƏHMƏD CAVAD YARADICILIĞINDA TÜRKİYƏ MÖVZUSU

1.1. Ə.Cavadı Türkiyəyə və türkçülüyə gətirən yol

XIX əsrin sonlarından etibarən Azərbaycan ictimai fikrində Türkiyə, daha doğrusu, Osmanlı ilə bağlı mövzular tez-tez səslənməyə başlayır. Bu, o dövrdə xalqların milli mənlik şüurunun getdikcə formalaşması və onların hər birinin öz müqəddəratını, gələcək taleyini və inkişaf yolunu təyin etmək cəhdlərindən irəli gəlirdi. Həmin vaxtlar müsəlman şərqi, o cümlədən türk xalqları Osmanlı imperiyasına böyük ümidlə baxdığı üçün onun ətrafında birləşməyə çalışırdılar. Bu birləşmə fikrinin intensivləşməsinin bir səbəbi də Avropa ölkələrində yaranan yeni ittifaqlar və Qərbin türk xalqlarına qarşı təzyiqləri, Şərqə qarşı işğalçılıq siyasəti ilə bağlı idi. Aparıcı Avropa dövlətlərinin və Rusiyanın türk birliyinə, Osmanlı imperiyasına qarşı təzyiqlərinin günbəgün daha da artdığı illərdə Azərbaycanın qabaqcıl ictimaiyyətinin Osmanlı Türkiyəsinə, onun tarixi, iqtisadi, siyasi və mədəni problemlərinə olan maraq və diqqəti daha da qüvvətlənirdi. Tarixi-ictimai proseslərin Osmanlı Türkiyəsi ətrafında get-gedə gərginləşməsi ölkə daxilində milli hərəkatın da genişlənməsinə özünün müsbət təsirini göstərirdi. Belə vəziyyət təkcə gərginləşən tarixi-siyasi proseslərlə bağlı deyildi. Türk xalqlarının etnik və mədəni-mənəvi birliyi onlar arasındakı ədəbi və mədəni, sosial-tarixi bağları daim qoruyub saxlamış, həlledici dönəmlərdə bu xalqların biri digərinə arxa, dayaq olmağa daxili

bir ehtiyac duymuşdur. Odur ki, XIX əsrin sonları və XX əsrin əvvəllərində Azərbaycanla Osmanlı Türkiyəsi arasında ədəbi-mədəni, tarixi-siyasi əlaqələrin sıxlaşmasına təsadüfi hal kimi baxmaq düzgün olmazdı. Osmanlı Türkiyəsində Tənzimat və Sərvəti-fünunla bağlı yeniləşmə hərəkatı, ədəbi-mədəni intibah Azərbaycanda da rəğbətlə qarşılanır, böyük diqqətlə izlənilirdi. Ədəbiyyatda başlanan milliyətçilik də Azərbaycanda zamanında təqib olunurdu. N.Kamal, Ə.Hamid, M.Ə.Rəcaizadə, T.Fikrət, M.Akif Ərsoy, R.Tofiq, M.Ə.Yurdaqul və başqa şairlərin vətənpərvərlik və istiqlal ruhlu şeirləri Azərbaycanın M.Hadi, M.Ə.Sabir, H.Cavid, Ə.Cavad, S.Mənsur və başqa şairlərinin poeziyasında tez-tez anılır, hətta yeri gəldikcə onlardan iqtibaslar da edilir, misraları, beytləri, təkrirləri şeirlərə salınırdı. M.Ə.Sabirin Türkiyədəki milli azadlıq hərəkatına həsr etdiyi çağırış və istiqlal ruhlu şeirləri, M.Hadinin gənc türklərə əməli kömək göstərmək niyyəti ilə 1910-cu ildə Türkiyəyə getməsi, H.Cavidin bəzi dramlarında coğrafi məkan kimi Osmalı ərazisindəki yerləri seçməsi, hadisələri məhz o torpaqlarda cərəyan etdirməsi kimi faktlar Azərbaycan ədəbi ictimaiyyətində Türkiyəyə maraq və diqqətin nə dərəcədə olduğunu təsəvvür etməyə imkan verir.

Azərbaycanda Türkiyə ruhunun və təsirinin güclü olmasına şərait yaradan hallardan biri də, Azərbaycan məktəblərinin bir çoxunda türk müəllimlərinin, Osmanlı ədib və şairlərinin və yaxud da Türkiyədə təhsil almış ziyalıların dərs deməsi idi. Çünki bu pedaqoq ədiblər özləri ilə Azərbaycan ictimai fikrinə Türkiyədəki yeni düşüncə ab-havasını, Türkiyə ədəbi örnəklərini də gətirib təbliğ edirdilər. Bundan başqa, Azərbaycanın bəzi zəkalı gənclərini o zamankı imkanlı və qabaqcıl görüşlü şəxslər

müxtəlif xarici ölkələrə təhsil almağa göndərirdilər. Bu ölkələr arasında Osmanlı Türkiyəsi də var idi. Maraqlıdır ki, Əhməd Cavadın ədəbi taleyində mühüm rol oynamış müəllimlərindən H.Cavid və A.Sur da Türkiyədə təhsil almışdılar.

XX əsrin əvvəlləri Azərbaycan ədəbiyyatında və milli mücadilə tarixində Ə.Cavadın öz yeri, öz dəsti-xətti vardır. O, öz şəxsiyyəti, ədəbi fəaliyyəti və yaradıcılığı ilə ümumtürk ədəbi-mədəni dünyasında özünəməxsus yer tutur. Ümumiyyətlə, Əhməd Cavadın həm təhsilində, həm yaradıcılığında, həm də şəxsi taleyində Türkiyə faktoru mühüm rol oynamışdır. Belə ki, Ə.Cavadın ən yaxın, zəkalı və nüfuzlu müəllimləri arasında Türkiyədən gələnlərlə yanaşı, orada təhsil alanlar da var idi. Gəncə Ruhani gimnaziyasında 1909-1912-ci illərdə Ə.Cavad Hüseyn Cavid və Abdulla Tofiq Surdan da dərs almışdı. Akademik Bəkir Nəbiyev həmin cəhəti nəzərdə tutaraq yazır: «Əhməd Cavadın müəllimləri arasında görkəmli Azərbaycan ziyalılarından şair-dramaturq H.Cavidin, jurnalist-tənqidçi Abdulla Surun, Şeyxülislam Pişnamazzadənin və başqalarının olması da həmin məktəbin nüfuzu və səviyyəsi haqqında az şey demir... Şairin öz ixtisasına dərindən yiyələnməsində, orta məktəblərdə, texnikum və ali məktəblərdə dərs deməsində vaxtilə Gəncə seminariyasında öyrəndiyi biliklərin, xüsusən də Azərbaycan, ərəb, fars, rus dillərindən, tarixdən aldığı əla qiymətlərin şəksiz rolu və əhəmiyyəti olmuşdur» (102, 7-8). Müəllif Ə.Cavadın ədəbi yaradıcılıq istiqamətinin müəyyənləşməsində də Gəncə mühitinin xüsusi rol oynadığını göstərmək məqsədi ilə fikrinə belə davam edir: «Gənc Əhməd Cavad hələ Gəncədə təhsil alarkən öz müəllimlərinin və böyük həvəslə oxuduğu kitabların, dövrü mətbuat nümunələrinin

təsiri ilə vətənpərvərlik ruhunda təşəkkül tapır, getdikcə türkçülük, islamçılıq, çağdaşlıq əsasında milli istiqlaliyyət ideyalarına tapınırdı» (102, 8).

Cavadşünas Əli Saləddinin verdiyi bilgiyə görə, Ə.Cavadın bir müəllimi də Savad Cavad olub. Onun Türkiyə şairi Əhməd Cavadın qardaşı olduğu və milli şairimiz Əhməd Cavadın da öz təxəllüsünü buradan aldığı bildirilir (110, 27; 42, 13). Ancaq bu fikirlə bağlı heç bir qaynaqda bir bilgiyə təsadüf etmədik. Araşdırma nəticəsində müəyyənləşdirdik ki, həmin dövrdə Türkiyədə Əhməd Cavad (Əmrə) (1876-1961) adlı şair yox, məşhur dilçi alim olmuşdur. Biz onun Azərbaycana və Gürcüstana səfər et diyi haqqında bilgiyə də rast gəldik (138, 7). Ə.C.Əmrə 1928-ci ildə Türkiyədə latın əlifbasına keçidlə bağlı 9 nəfərlik «Dil Əncüməni» Dövlət komissiyasının üzvü olmuş, Rövşən Əşrəf (Ünaydın), İsmayıl Hikmət, Əhməd Rasim bəy kimi Azərbaycanla sıx əlaqəsi olan ziyalılarla birlikdə «İmla lüğəti» kitabını hazırlamışdır. Ankaradan millət vəkili seçilmiş Ə.Cavad Əmrə həm də Atatürkə yaxın adamlardan olmuşdur (10, 258-264). Türk qrammatikası haqqında çox sayda əsərlərin müəllifi olan Əhməd Cavad Əmrənin «Sərf və nəhv» («Morfologiya və sintaksis» – A.M.) dərsliyi o zaman Azərbaycan məktəblərində də tədris edilirdi. Bunu da qeyd edək ki, f.e.d. Əli Saləddin həmin dərsliyi milli şairimiz Ə.Cavadın əsəri kimi təqdim etmişdir (110, 125; 42, 7).

Gəncədə müəllim kimi fəaliyyət göstərən görkəmli türk ziyalılarından biri də Mehmet əfəndi idi. Ömər Faiq Nemanzadə öz xatirələrində onun haqqında yazır: «Bu gənc müəllim İstanbulda edadini qurtarmış, çalışqan, məlumatlı, vəzifəsini bilən və sevən bolqarıstanlı (vidinli) bir türk idi… Məktəb bunun çalışması sayəsində az vaxtda

şöhrətləndi, böyüdü. Mehmet əfəndi məktəbi ruhaniliyə xidmətdən qurtarıb zəmanəyə uyğun bir milli məktəb halına gətirməyə çalışırdı. Bu məktəb gözəl quruluşu və tədris sayəsindəki uğurları ilə az vaxtda bir çox gənc müəllimlər, yazıçılar yetişdirdi» (98, 120-121). Belə gənc yazıçılardan və müəllimlərdən biri də Ə.Cavad idi.

Ə.Cavad ədəbi yaradıcılığa hələ Gəncə gimnaziyasından başlamışdı. Söz yox ki, hər hansı təhsil müəssisəsində oxuyan istedadlı gənclər adətən diqqət mərkəzində olurlar. Gənc Cavadın bu cəhətdən bəxti gətirmişdi. Müəllimləri ona diqqət yetirir, ilk qələm təcrübələrindəcə istedad qığılcımlarını görüb təqdir edirdilər. Akademik B.Nəbiyevin də yazdığı kimi, «öz qələm təcrübəsinə hələ seminarist kimi başlayan Ə.Cavad ilk şeirlərində bəzi müəllimlərinin diqqətini cəlb etmişdi. Abdulla Tofiq (Sur) vaxtilə dostu Abdulla Şaiqə yazdığı məktubunda bir gənc şair kimi Ə.Cavadın onda böyük ümidlər oyatdığını etiraf etmişdir» (102, 8).

A.Sur öz yetirməsini təkcə şair dostları arasında deyil, daha geniş dairədə təbliğ edir, onun uğurları ilə qürur duyurdu. O, şərqşünas alim, dostu Qordlevskiyə yazdığı məktubların birində Ə.Cavad haqqında belə söhbət açırdı: «Tələbələrim içərisində Cavad adlı gənc bir şair var. Mənə oxuduğu ilk mənzumələri gələcəyə böyük ümidlər verir. Lisanı sadə və gözəldir» (83, 68-69). Professor Cəlal Qasımov öz tədqiqatında Ə.Cavadın həmin vaxta qədər Türkiyə ilə əlaqəsinin nə şəkildə olmasını belə izah edir: «Doğrudur, Ə.Cavad Türkiyədə təhsil almamışdır. Buna baxmayaraq onun Türkiyə ilə bağlılığı orada təhsil alanlardan heç də az olmamışdır. Belə ki, o, Gəncədə təhsil alarkən müəllimlərindən biri Türkiyə vətəndaşı, digəri isə Türkiyədə təhsil alan tənqidçi Abdulla Sur

(1883-1912) olmuşdur» (83, 68-69).

Doğrudan da, Ə.Cavadın dünyagörüşünün və ədəbi zövqünün formalaşmasında, xalq ədəbiyyatına marağında A.Surun təsiri danılmazdır. Əli Saləddin şairin poeziya ruhunun tamamilə xalq şeiri və türkçülük üzərində köklən-diyini göstərir, Mədrəsədə oxuduğu illərdə Osmanlı düşüncə tərzinə uyğun sənət baxışlarının onun müəllimlərinin təsiri altında əmələ gəldiyini nəzərə çatdırır (110, 27).

Ə.Cavadın poeziyasına Osmanlı Türkiyəsi ab-hava-sının qüvvətli təsiri onun Gəncə gimnaziyasında təhsil aldığı illərdən başlayır, bu, Balkan və I Cahan savaşı illərində daha da dərinləşərək ümumtürkçülük görüşü halına gəlir. Ə.Saləddin müəllimlərinin Ə.Cavada olan təsirini daha inandırıcı şəkildə ifadə etmək üçün faktlara müraciət edərək yazır: «Əhməd Cavadın arxivində «Fələk dil kabab...» adlı 34 səhifəlik bir əlyazması saxlanılır. Bu şeirlər toplusunun əksəriyyətini şair mədrəsədə oxuduğu illərdə qələmə almışdır. Çox qəribədir ki, onların çoxu ərəb-fars sözləri, tərkibləri ilə doludur. Müəllifin ilk qələm təcrübələri, ilk axtarışları nəticəsində meydana çıxmış bu şeirlər klassik rübai, qəzəl, hələ tamam formalaşmamış şəkillərdə yazılmışdır. Əlbəttə, onların arasında nisbətən xalq dili, aşıq yaradıcılığına əsaslanan nümunələr də yox deyil» (110, 27). Bunların bəzilərinin A.Surun kiçik redaktəsi ilə meydana gəldiyini yazan Ə.Saləddin fikrinə belə davam edir ki, ədəbiyyata «ərəb, fars sözləri Osmanlı türkcəsi və Azərbaycan türkcəsi bir-birinə qarışmış şeylərlə gələn Əhməd Cavad bir neçə ildən sonra tanınmaz dərəcədə dəyişmiş, heyrət ediləcək bir şəkildə 1913-cü ildə yazdığı «Dilimiz» adlı şeirindən sonra sadələşmiş,… hamının anladığı bir dilə keçmişdir»

(110, 28).

Ə.Cavad öz müəllimlərinə, o sıradan Abdulla Sura dərin hörmət və məhəbbət bəsləyirdi. Bunun bir səbəbi də A.Surun ona məfkurə və türklük ruhu aşılamasıdır. Təsadüfi deyil ki, A.Surun vaxtsız vəfatı gənc Cavadı möhkəm sarsıtmış və o öz hisslərini, yanğılarını poetik şəkildə bu itkiyə həsr etdiyi şeirində anlatmışdır. Əziz müəllimi Abdulla Surun dəfn mərasimində edilən çıxışlar zamanı gənc Cavad da həmin şeirini oxumuşdu. Hüseyn Cavid onun dəfn mərasiminin təsvirinə həsr etdiyi «Mirzə Abdulla Məhəmmədzadə, yaxud (A.Sur) – Abdulla Tofiq. Mərhumun təşii-cənazəsi mərasimi» başlıqlı məqaləsindəki «…gənc və alicənab şairimiz Cavad əfəndi həzin və ahəngdar bir tövrlə yazmış olduğu gözəl və yanıqlı əşarı söyləməyə başladı» sözlərindən onun Ə.Cavadı necə yüksək dəyərləndirdiyi məlum olur və həmin şeirin mətnini bütünlüklə təqdim edir (47, 222). Əhməd Cavadın bu mərsiyəsi öz səmimiliyi ilə diqqəti çəkir; belə ki, gənc şair burada özünün kədər və sarsıntılarını səmimi şəkildə bildirir.

Ə.Cavad maarif ziyasının milləti və vətəni aydınlığa doğru istiqamətləndirdiyini belə ifadə edir:

Bu Vətənin bunu görən südü təmiz övladı
Bir qaç kişi o gün bizim qara günü anladı! (42, 45)

Ə.Cavadın ruhundan süzülüb gələn bu misralar həm də onun bir gənc kimi, öz amalına sədaqətinin poetik təsdiqi idi. Bu fikirlərin mayasında, şübhəsiz ki, türkçülük duyğuları və ruhu da var. Çünki Türkiyədə təhsil alan müəllimi həmişə öz yetirmələrinə türk düşüncə tərzini, türk ruhunu aşılamağa çalışırdı. Ə.Cavada verdiyi məsləhətlərdə də, onun ilk qələm təcrübələrini təqdir və

təshih edəndə də ümumtürk anlayışını öyrədir, Azərbaycan və Türkiyə şairlərinin türkçü, milli ruhlu şeirlərini anladırdı. Təbii ki, bu illərdə Gəncə gimnaziyasında fəaliyyət göstərmiş Mirzə Abbas Abbaszadə, İdris Axundzadə, Əli Razi Şəmsizadə, Əli Nəzmi və dövrünün başqa tanınmış maarif, mədəniyyət və ədəbiyyat nümayəndələrinin, bütövlükdə Gəncə ədəbi pedaqoji mühitinin də bu işdə önəmli rolu olmuşdur.

Ümumiyyətlə, XX əsrin əvvəllərində Gəncə Azərbaycan ictimai-milli həyatında mühüm rol oynayan şəhərlərdən birinə çevrilmişdi. Təsadüfi deyil ki, Məhəmməd Əmin Rəsulzadə Azərbaycanda milli ictimai fikrin və milli azadlıq ideyalarının inkişaf edib yayılmasında Gəncə mühitinin rolunu xüsusi qiymətləndirərək yazırdı: «Gəncədə təsis edilən «Mədrəseyi-ruhaniyyə» vaxtilə milliyyətpərvərlik ruhunun təqviyə edilən ən mühüm mərkəzi idi. Buradan Azərbaycan bir çox müəllimlər, mühərrirlər və şairlər qazanmışdır» (105, 19-20). Ə.Cavad belə bir münbit elmi, ədəbi-pedaqoji mühitdə təlim-tərbiyə alaraq addımlarını atmışdı. Bütün bunlar o zaman Gəncədə sağlam və səviyyəli mühitin varlığından xəbər verir.

Ə.Cavadın Gəncədən kənara çıxmadığı vaxtlarda yazdığı və ədəbi mühitdə birmənalı qarşılanmayan ilk mətbu şeiri 1913-cü ilə aiddir. «Müdhiş düşüncələr» adlı şeir elə həmin ildə «Şəlalə» jurnalının 18-ci sayında çıxmış və kəskin tənqidlə qarşılanmışdı. Türkiyədən bir jurnalist kimi Azərbaycana gələn və «Şəlalə» jurnalını nəşr edən Xalid Xürrəm Səbribəyzadə jurnalın növbəti nömrələrinin birində (8 iyun, 1913) şeir haqqında «Altun qələm» adlı tənqidi məqalə ilə çıxış etmişdir. Ə.Cavadın qızıl qələminə ikibaşlı məna verib, məqaləyə başlıq seçən X.X.Səbribəyzadə şeiri hər baxımdan yararsız saymış, xüsusilə

dilini tənqid atəşinə tutmuş, onu məna, vəzn və qafiyəcə də müdhiş, qorxunc bir şeir adlandırmışdır (43, 23-24). Bu kəskin tənqiddən sarsılan gənc Ə.Cavad isə «İqbal» qəzetində ona sərt bir cavab yazmışdır: «Bəy əfəndi, siz məndən artıq əminsiniz ki, o çəkdiyiniz cizgilər – ya anlamadığınızdan, yaxud anlamaq istəmədiyinizdəndir» (43, 24). Tənqidçi etikasından bəhs edən Ə.Cavad nəzəri baxımdan əhəmiyyətli olan fikirlə davam edir: «Halbuki, türk ədəbiyyatının diktatorları sayılan Nacilər, Əkrəmlər, Səffətlər, Nəzihilər belə təpədən dırnağa qədər tənqid etdikləri hər şeyin yanına bir «zənnimcə böylə olsa gərək!» qeydi qoymuşlar. Fəqət siz boynunuzu əymirsiniz» (43, 25). Məqalədə Ə.Cavad X.X.Səbribəyzadəyə kəskin cavab verməklə bərabər, həm də yeniyetmə vaxtında belə şeir, sənət qaydalarını, Türkiyə ədəbiyyatını, sənətkarlarını yaxşı bildiyini, Türkiyədəki ədəbi tənqiddən xəbərdar olduğunu xatırlatmışdır. Müəllif onun «adlı-sanlı şairlərimizə», xüsusilə «bir üfürüklə yıxmağa qalxışdığınız həssas şairimiz, müəllimim» (43, 25) deyə bəhs etdiyi H.Cavidə yanlış münasibətinə də etinasız qala bilmirdi. X.X.Səbribəyzadəyə «üzünüzü yenilik qibləsinə çevirməyinizi tövsiyyə edirəm» deyərək onu «dil aristokratı», «mühafizəkar» adlandırırdı (43, 29).

Ümumiyyətlə, Türkiyə sevgisi, türkçülük, turançılıq ruhu və amalı Ə.Cavadı ömür boyu tərk etmədi. Yaradıcılığının ilk dövründən bu sahədə əməli iş gördü, əsərlər yazdı. Türkçülüyə, türk qövmünün tərəqqisinə və istiqlalına, Turan dünyasına maraq və məhəbbət, ona xidmət Cavadı düşündürən əsas vəzifələrdən oldu. Elə bu duyğular və amallar da gənc şairi Balkan müharibəsinin ən qaynar nöqtələrinə aparıb çıxartdı.

Osmanlı dövləti böyük bir coğrafiyanı əhatə edirdi.

Avropanın dünyanın siyasi həyatında getdikcə böyük rol oynamağa başlayan imperialist dövlətləri bu vəziyyətlə barışa bilmirdilər. Onların Şərq siyasətinin qarşısında bu qədim və böyük Türk dövləti ciddi bir maneə kimi dayanmışdı. Ona görə də onlar Osmanlı Türkiyəsini həm daxildən, həm də xaricdən sarsıtmaq məqsədilə cürbəcür tədbirlərə əl atırdılar. Belə fitnəkar tədbirlərdən biri də 1912-ci ildə Balkan yarımadası ətrafında müharibənin başlanması idi. Balkan müharibəsinin əsas məqsədi Osmanlı Türkiyəsini Şərqi Avropadakı dayaqlarından məhrum etmək idi. Təbii ki, bu müharibədə Rusiyanın da öz maraqları var idi.

Balkan savaşının Türk dünyasının gələcək taleyinə bir qəsd kimi başlandığını qabaqcıl görüşlü və ayıq düşüncəli adamlar aydın başa düşürdülər. Həmin müharibəni türk xalqları və Osmanlı Türkiyəsi üçün uduzulmuş bir istiqlal mübarizəsinin özünəməxsus təzahürü hesab edən tarixçi alim, professor Tarık Zəfər Tunaya bu barədə yazırdı: «Çeşidli fikir cərəyanları həmən-həmən ittifaq halında, Balkan hərbinin Avropanın maskasını atan xristiyanlıqdan başqa bir şey olmadığını irəli şürmüşlər» (197, 30).

Avropanın işğalçı güclərinin və rus imperializminin Türk-müsəlman dünyasına qarşı yeritdiyi siyasətin qeyri-sağlam, dini və milli şovinizm əsasları üzərində qurulmasının geniş ictimaiyyətə aydın olması Azərbaycanda da türklük və milliyətçilik duyğularının xeyli güclənməsinə səbəb oldu. Ona görə də qeyrətli, hümanist, vətənsevər insanlar səfərbər olaraq türk dünyasını qorumaq üçün ayağa qalxdılar. Yerlərdə cürbəcür yardım cəmiyyətləri yaradılır, gənclər Türkiyə ordusunda savaşmaq üçün Qafqaz könüllü hissəsinə yazılmağa başlayırlar. Həmin hərəkata qoşulanların öncülləri sırasında gənc şair Əhməd Cavad da var idi. O, digər həmvətənləri və məsləkdaşları

ilə birlikdə silaha Sarılaraq könüllülər sırasında Balkan müharibəsi cəbhəsinə yola düşdü. Onun Balkan savaşında olmasında, cəbhədə əsgərlərlə bir sırada vuruşmasında, şübhəsiz ki, gimnaziya müəllimlərinin vətən, yurdsevərlik və türkçülük haqqındakı söhbətləri da müəyyən rol oynamışdır. Hüseyn Baykara özünün «Azərbaycan istiqlal mübarizəsi tarixi» kitabında yazdığı kimi: «Əhməd Cavad... türk xalqının dərdlərilə dərdlənmiş, sevinclərilə də sevinmişdir» (22, 175).

Ə.Cavadın Türkiyədə, Trakya cəbhəsində Abdulla Şaiqlə bərabər vuruşduğunu qeyd edən H.Baykara sözlərinə davam edərək yazırdı: «Balkan müharibəsi qurtardıqdan sonra Yusif Akçura oğlu hər iki Azərbaycan şairinə (Ə.Cavad və A.Şaiq nəzərdə tutulur – A.M.) Azərbaycanda onlara daha çox ehtiyac duyulduğunu və öz doğma yurdlarına dönərək xalqına xidmət etmələrini tövsiyə edir. Bu tövsiyədən sonra hər iki ədib Azərbaycana dönürlər» (22, 175-176). Buradan aydın olur ki, Əhməd Cavad Balkan müharibəsində sadəcə bir əsgər, döyüşçü kimi iştirak etməmiş, gənc olmasına baxmayaraq, eyni zamanda, fikir və əqidə adamları, istiqlal mücahidləri ilə bir sırada dayanmış, onlar tərəfindən həmkar, tərəfdaş kimi qəbul olunmuşdur.

Elə buradaca bir məsələyə də öz münasibətimizi bildirməyi lazım bilirik. Yuxarıda H.Baykaradan gətirdiyimiz sitatda Balkan müharibəsinə Ə.Cavadla birgə gedən başqa Azərbaycan ədib və istiqlal mücahidinin A.Şaiq olduğu göstərilmişdir. Ancaq Abdulla Şaiq haqqında heç bir qaynaqda belə bir fakta rast gəlmədik (94, 75, 88 və s.). A.Şaiqin türkçülük duyğuları ilə əsərlər yazması bəlli olsa da, onun hər hansı döyüşə qatılması inandırıcı deyil. Həmin dövrdə A.Şaiq daha çox bədii və

elmi-pedaqoji fəaliyyətlə məşğul idi. Nəzərə almaq lazımdır ki, ədibin «Gülzar» dərsliyi də elə 1912-ci ildə çapdan çıxmışdı. Ancaq onun böyük qardaşı Axund Yusif Ziya Talıbzadənin türklük, islamlıq və istiqlal uğrunda həm qələmi, həm də silahı ilə vuruşduğu, döyüş meydanlarının birində qəhrəmancasına həlak olduğu bəllidir. Axund Yusif Talıbzadənin həyat və fəaliyyətinə monoqrafiya həsr edən sənətşünaslıq namizədi, dosent M.Əsədli bu məsələ ilə bağlı araşdırma aparmış və A.Şaiqin Balkan savaşında iştirak etmədiyini təsdiqləmişdir (63, 57-62).

Balkan müharibəsi başlanarkən yeni-yeni təşəkkül tapan «Ədəmi-Mərkəziyyət. Müsavat» partiyası Türkiyəni müdafiəyə çağırış xarakterli bir bəyannamə ilə çıxış etmişdi. Həmin bəyannamə Bakıda və Tiflisdə yayılmışdı. Yusif Ziya Talıbzadə onu İstanbula da aparmışdı. İstanbulda çıxan «Səbil-ül-Rəşad» məcmuəsi isə onu öz səhifələrində dərc etmişdi.

M.Əsədli tutarlı mənbələrə, o cümlədən A.Şaiqin oğlu, akademik Kamal Talıbzadənin xatirə və söhbətlərinə, mütəxəssislərin fikirlərinə əsaslanaraq deyir: «Betül Aslan Məmməd Sadıq Arana istinadən yazır ki, hətta Bakı milyonerlərindən Əsədulla Əli bir qrupla Balkan Hərbində iştirak etmiş və zabitlik rütbəsi almışdı. Din xocalarından Əhməd Talıbzadə Yusif (Burada yanlış olaraq Axund əvəzinə Ahmed getmişdir – M.Ə.) və arkadaşları da Balkan hərbinə könüllü getmişdilər» (63, 59-61).

Filologiya elmləri doktoru Nazif Ələkbərli (Qəhrəmanlı) də A.Şaiqin Ə.Cavadla birgə Balkan savaşında olmadığını bildirir (55, 53).

Bu göstərilənlərdən belə nəticəyə gəlmək olar ki, Balkan müharibəsində Ə.Cavadın A.Şaiqlə yox, onun

böyük qardaşı Axund Yusif Talıbzadə ilə birlikdə iştirak etməsi daha inandırıcıdır.

Söz yox ki, o dövrdə Azərbaycanda fəaliyyət göstərən ictimai və siyasi təşkilatların Türkiyənin xeyrinə apardıqları təbliğat kompaniyasına Əhməd Cavad kimi vətənsevər və milli ruhlu bir gənc laqeyd qala bilməzdi. O, 1937-ci ildə istintaq sorğularının birində Balkan müharibəsində iştirakını rəsmi şəkildə təsdiqləmişdir. Bu barədə danışarkən filologiya elmləri doktoru Cəlal Qasımov yazır: «20 sentyabr 1937-ci ildə şairlə (Ə.Cavadla – A.M.) üçüncü dindirmə oldu və bu dindirmə zamanı müstəntiqlər onun Türkiyə və İranla əlaqəsi məsələsinə toxundular.

Sual: Siz xaricdə olmusunuzmu, nə vaxt və harada?

Cavab: Bəli, mən 1912-ci ildə Türkiyədə olmuşam. Mən ora ona görə getmişdim ki, Türk-Balkan müharibəsində türk ordusunda könüllü iştirak edim.

Mən Türkiyəyə Batumda hansısa pasport alveri ilə məşğul olan yunanlardan aldığım fars pasportu ilə getmişəm. Mənimlə birlikdə türk ordusunda iştirak etmək üçün İdris Axundzadə (NKVD tərəfindən həbs edilib), Əli, familiyası yadımda deyil və İsa Əlizadə (hər ikisi vəfat edib) getmişdir. Biz hamımız könüllü dəstəyə qəbul olunmuşduq və onun tərkibində bolqarlara qarşı hərbi hərəkatlarda iştirak edirdik. 1913-cü ilin payızında mən Rusiyaya qayıtdım» (83, 76).

Ə.Saləddin və C.Qasımova görə, Əhməd Cavad Balkan müharibəsindən əvvəl də Türkiyədə olmuşdur (44, 6; 83, 69). Ancaq onlar bu fikri irəli sürərkən heç bir mənbə göstərməmişlər. Bizə belə gəlir ki, bu doğru deyil. Çünki 1912-ci ilin əvvəllərinə qədər Ə.Cavad istedadlı bir şagird, gənc, ümidverici şair kimi müəllimlərinin və digər

müasirlərinin diqqətini cəlb etsə də, hələ Gəncə Ruhani gimnaziyasında oxuyurdu. 1912-ci ildə «Ədəmi-Mərkəziyyət Müsavat»ın yaydığı bəyannamədən sonra Azərbaycanda qardaş Türkiyəyə yardım kompaniyası həyata keçirilməyə başlamışdır. Ə.Cavad da gimnaziyanı bitirdikdən sonra həmin hərəkatın öncüllərindən biri kimi Balkan müharibəsində iştirak etmək üçün cəbhəyə yollanmışdı. Bu zamana qədər isə heç bir xarici ölkədə olmamışdır.

Ə.Cavadın şəxsi taleyində və fəaliyyətində Türkiyəyə və türkçülüyə sevgi bu göstərilənlərlə bitmir. Filologiya elmləri doktoru Təyyar Salamoğlunun yazdığı kimi: «Birinci Dünya müharibəsi illərində həm «Cəmiyyəti-Xeyriyyə» xətti, həm də şəxsi təşəbbüsü ilə Ə.Cavadın rusiyalı soydaşlarımıza (Rusiyanın işğalı altında olan türk xalqlarına – A.M.) çox böyük kömək edərək, minlərlə adamı aclığın fəlakətli caynağından qurtarması onun tərcümeyi-halının ən şərəfli səhifələrindən biridir» (109, 34-35).

Osmanlı dövləti Balkan savaşlarının yaralarından və məhrumiyyətlərindən xilas olmağa macal tapmamış Birinci Cahan savaşına cəlb edilmişdi. İlk vaxtlar bəzi uğurlar qazanan Türkiyə Doğu Cəbhəsində başlatdığı Sarıqamış hərəkatında ağır məğlubiyyətə uğradı. Hələ 1877-1878-ci illərdəki Rusiya-Türkiyə müharibəsində itirdikləri Batum, Qars və Ərdahanı geri almağa çalışan Türkiyə ordusu geri çəkilməyə məcbur oldu. Bu vaxt «Oltu, Ərdahan, Artvin ətrafında ruslardan qurtuluşu sevinclə qarşılayan türkləri ruslar faciəvi şəkildə cəzalandırmağa başladılar» (9). Osmanlı dövlətinin Ərzurum, Van, Muş, Bitlis, Rizə, Trabzon kimi şəhərlərini işğal edən Rusiya «Böyük Ermənistan» xülyasıyla yaşayan erməni

daşnak qruplarının bu torpaqlarda türkləri qətl etməsinə şərait yaradırdı. Belə ağır durumda Azərbaycan öz qan qardaşlarının yanında idi. Bu məsələdən danışarkən görkəmli alim Əhməd Qaraca yazırdı: «Türk millətpərvərliyinin hakim bir cərəyan olmasına görədir ki, birbirlərinə canları, qanları və malları bahasına da olsa yardımdan qaçmamışlar…» (52, 14).

Azərbaycanda 1905-ci ildən fəaliyyətə başlayan «Bakı Müsəlman Cəmiyyəti-Xeyriyyəsi»nə səsvermə ilə məşhur Azərbaycan milyonçuları Hacı Zeynalabdin Tağıyev sədr, Ağamusa Nağıyev isə sədr müavini seçildi. Cəmiyyət savaşda zərər görən qan qardaşlarına maddi və mənəvi dayaq olmaq üçün bu dövrdə öz fəaliyyətini Şimali Qafqaz, Dağıstan, Gürcüstan, İrəvan və işğal olunmuş Türkiyə torpaqlarına doğru yönəltmişdi. Onun yardımı ilə Osmanlı qaçqınlarına böyük maddi yardım göstərilirdi. Bu barədə 1944-cü ildə çıxan «Müxtəsər Azərbaycan Ədəbiyyatı tarixi»ndə oxuyuruq: «Cahan müharibəsində Türkiyənin ruslara qarşı müharibə etməsinə baxmayaraq, Azərbaycanda osmanlılar üçün ianələr yığılır, osmanlı qaçqınları himayə və təmin olunurdular. Hətta bu sahədə az səy göstərməyən dövlətlilərdən Musa Nağıyevə, Hacı Zeynalabdinə Osmanlı hökuməti tərəfindən mükafat olaraq medal göndərilmişdi» (97, 158).

Türkiyədən olan qaçqın və köçkünlərə yardım etmək üçün Azərbaycanın vətənsevər oğulları Rusiya hökumətindən rəsmi icazə almışdılar. Bu işdə o zaman Rusiya Dövlət Dumasının üzvü olan Məhəmməd Yusif Cəfərovun xidmətləri xüsusi qeyd edilməyə layiqdir. Onun «Müsəlman hərbzədələrinə yardım işi və müsəlman vəkilləri» məqaləsində göstərildiyinə görə, Dumada bir çox uzun-uzadı müzakirədən sonra «müsəlman qaçqın-

larına müavinət və yardım göstərməyə icazə verildi və bu məqsədlə əvvəlcə Qars və bir az sonra Batum oblastlarına sərbəst gəliş-gedişə yol verildi» (81, 104). Əhməd Cavad verilmiş bu imkanlardan istifadə edərək, «Cəmiyyəti-xeyriyyə»nin hərbzədələrə yardım şöbəsinin fəallarından biri kimi döyüş bölgələrinə və sərhəd zonasına tez-tez gedib-gəlirdi. O, cəmiyyətin xüsusi təmsilçisi və cəbhə üzrə vəkili Xosrov bəy Sultanovun köməkçisi həm də məsul katib kimi bölgələri gəzir, hərbzədə qaçqınların siyahısını tutur, onlara yardım paylayır, eyni zamanda əsir, yaralı türk döyüşçülərinə baş çəkir, onların ehtiyacları ilə yaxından maraqlanır, bölgədəki xəstəxanalara, məktəblərə, məscidlərə, yetimlər evinə gedir, oradakı çatışmazlıqlar və əhalinin zəruri ehtiyacları haqqında cəmiyyətə yazılı məlumatlar göndərirdi. Ə.Cavadın bu məlumatları əsasında Bakı «Cəmiyyəti-Xeyriyyəsi»ndən fəlakət bölgəsinə ərzaq, geyim, dərman, yataq ləvazimatı və s. hazırlanıb göndərilirdi. Ə.Cavad qəbul etdiyi bu maddi yardımı əvvəlcədən tutduğu plan əsasında türk hərbzədələrinə və yerli köçkünlərə çatdırırdı. F.e.d. Əli Saləddin doğru olaraq yazır ki, Ə.Cavadın «Cəmiyyəti-Xeyriyyə» xətti ilə cəbhə bölgəsində göstərdiyi bu geniş miqyaslı və əvəzsiz xidmətləri hələ də öz layiqli qiymətini almamışdır (110, 8).

«Cəmiyyəti-Xeyriyyə»nin Hərbzədələrə yardım şöbəsi fəaliyyətə başladığı zamandan, yəni 1915-ci ildən etibarən Ə.Cavad Türkiyənin işğal altındakı bölgələrində, öncə Qarsda və Ərdahanda olmuşdur. «Cəmiyyəti-Xeyriyyə»nin xüsusi nümayəndəsi Xosrov bəy Sultanovun məqaləsində bu barədə oxuyuruq: «Martın 16-da (1915-ci il – A.M.) 10 nəfər yardımçıdan (Bakıdan Hüseynov, İlyasov, Mahmudov, Məhəmmədov, Mirzəcamalov,

Vəkilov və Gəncədən Axundzadə (Ə.Cavad – A.M.), Şahsuvarov və Nəzərəliyevdən) ibarət bir heyət Səfikürdskiylə bənimlə Qarsa ezam olundu» (81, 110). Bu adamlar əsl vətənpərvər idilər, işini, hüquq və vəzifələrini çox gözəl bilirdilər. Ona görə də həm öhdələrinə düşən vəzifələrini cani-dildən yerinə yetirir, həm də bu zaman onlara mane olmaq və ya yardımlardan öz məqsədləri üçün istifadə etmək istəyən qara fikirli adamların qarşısını lazımi səviyyədə alırdılar. Bu cavan vətənpərvərlərin uğurlu fəaliyyətləri sayəsində Çaldır və Ərdahanın bölgə başçıları müsəlmanlardan pul və əşya aldıqlarına görə məhkəməyə verildilər... Qars valisi Podqorski isə işdən azad edildi... «Müsəlmanların hüququna təcavüz edən erməni, yunan və hökumət məmurlarının Rusiya qanunu hüzurunda məsul olmaları müsəlmanların başında möhkəm yer tutdu» (81, 111-114).

M.Ə.Rəsulzadənin də yazdığı kimi, «Qars və Ərdahan fəlakəti Rusiyadakı türklərin bir düşünür, bir türlü hiss edir, böyük bir vücud olduqlarını isbat etdi» (5).

Ə.Cavadın ünsiyyətcil, insanların dərdləri və problemləri ilə yaxından maraqlanan, adamların qəlbinə tez yol tapan bir insan olması həmin dövrdə onunla birlikdə Batumda işləyən Əli Səbrinin xatirələrindən də görünür (58, 145-146).

Ə.Cavad qarşılaşdığı müharibə məhrumiyyətlərinin ürəkparçalayıcı mənzərələri haqqında məlumat və təəssüratları oxuculara «İqbal», «Yeni iqbal», «Açıq söz» qəzetlərinə göndərdiyi publisistik məqalələr vasitəsilə çatdırırdı. Bu məqalələrdə həm də o oxucuları zərərdidə soydaşlarının dərdinə şərik çıxmağa çağırırdı.

Ə.Cavadın «Kars heyətinin gördüyü işlərdən» (43, 42-44) başlıqlı məqaləsindən məlum olur ki, həmin il mart

ayında o artıq Qarsda imiş. Bu barədə «Yeni iqbal» qəzeti yazırdı: «Batum ətrafında müsəlman gürcüsü hərbzədələrinə yardım etmək üzrə Bakı «Cəmiyyəti-Xeyriyyə»si tərəfindən göndərilən doktor Xosrov bəy cənabları Tiflisə varid oldu. İki gün sonra müavinləri Rza Zaki və Cavad Axundzadə əfəndilər Tiflisə gəldilər» (129). Ə.Cavadın 1915-ci ildə «Açıq söz» qəzetində çıxan silsilə «Acara məktubları» məqaləsindən o da məlum olur ki, həmin il oktyabrın 30-da Əhməd Cavadgil artıq Batumda fəaliyyətə başlamışlar. Bu məqalədən o da anlaşılır ki, Cavad Axundzadə Artvində də olmuş və buradakı müharibə zərərdidələrinə yardım göstərilməsini təşkil etmişdir (43, 45-47).

Bəzi tədqiqatçılar Birinci Cahan savaşı illərində Ə.Cavadın Trabzonda, Ərdahanda, AMEA-nın müxbir üzvü, professor Yaşar Qarayev isə hətta Bursa şəhərində də olduğunu yazırlar (79, 7). Bakıdakı «Cəmiyyəti-Xeyriyyə»nin Trabzon və Ərzurum ərazisindəki müharibə zərərdidələrinə maddi yardım göstərməsi bir həqiqətdir. Ancaq Bursa Qafqaz cəbhəsinin çox uzaq qərbində yerləşdiyi üçün «Cəmiyyəti-Xeyriyyə» üzvlərinin bu ərazilərdə fəaliyyət göstərmələri haqqında məlumatı həqiqətə uyğun hesab etmək doğru olmaz. Əhməd Cavad haqqında olan başqa mənbələrin heç birində onun bu illərdə Bursada olduğunu bildirən hər hansı bilgi və sənəd olmadığı kimi, şairin həmin dövrə aid məqalə və məktublarında da Bursa şəhərinin adına təsadüf etmədik. Ancaq, bundan fərqli olaraq, Əhməd Cavadın «Açıq söz» qəzetinin 1917-ci il 4 iyul nömrəsində çıxan başqa bir məqaləsindən öyrənirik ki, o, həmin illərdə Rizə və Trabzon bölgələrində olmuşdur (43, 73-76).

Araşdırmalar təsdiqləyir ki, Əhməd Cavad 1914-1917-ci illərdə Acarıstanda kənd-kənd dolaşaraq, bir müxbir

kimi də fəaliyyət göstərmiş, buradakı ictimai-siyasi durum haqqında «İqbal», «Yeni İqbal», əsasən, «Açıq söz» qəzetlərinə silsilə məqalələr göndərmişdir. Bütün ömrünü Ə.Cavadın həyat və yaradıcılığının araşdırılmasına həsr etmiş fədakar alimimiz, f.e.d. Əli Saləddin bu məqalələrin xeyli hissəsini toplayıb şairin seçilmiş əsərlərinin II cildi üçün hazırlamışdır. Burada oxuyuruq ki, «Açıq söz» qəzeti 20 dekabr 1915-ci il sayında Ə.Cavadın dekabrın 5-də Batuma gəldiyini bildirir, yazırdı ki, o, Acarada 50 kənddə olub, 6671 nəfərə yardım göstərib (43, 58). Ə.Cavadın «o dövrün demək olar ki, siyasi icmalı, başqa sözlə, ədəbi-bədii, tarixi salnaməsi» (110, 78) kimi qiymətləndirilən məktub və məqalələri bu gün də çağdaşlığını saxlayır. «Acara məktubları» bu baxımdan əhəmiyyətlidir. «Acara məktubları» beş silsilə məqalədən ibarət olub, bədii-publisistik üslubdadır. Məktublarda Türkiyə-Gürcüstan-Acarıstan münasibətləri, Azərbaycan nümayəndələrinin fəaliyyəti, Bakının yardımları, Acaranın tarixi, təbiəti, xalqın güzəranı, məişəti, gələnək-görənəkləri, Türkiyəyə arxalanması, dil, din, məktəb, maarif və s. məsələlər işıqlandırılır.

Acarıstanın ticari-iqtisadi həyatından bəhs edən Ə.Cavad hətta buradakı evlərin belə «tamamilə türk tərzi memariyyəsində yapıldığını», acarların geyimlərini «Anadolunun qiyafətinin incə bir şəkli» olduğunu qeyd edir (43, 50-51).

Bölgə əhalisinin «cümləsinin müsəlman»lar təşkil etdiyini söyləyən Ə.Cavad bunu da diqqətə çatdırır ki, «yerli bir nəfər olsun xristian yoxdur». Acarlara müsəlmanlığın zorla qəbul etdirildiyini söyləyənlərə də tutarlı cavab verir: «...bunlar islam dinini zor ilə qəbul eləsələr idi, bu az müddət içərisində xristianlığı da büsbütün unut-

mazdılar» (43, 52-54).

Ümumiyyətlə, şair publisistin «Acara məktubları», «Acariyada dil», «Lazlara kömək», «Suxum yolunda», «Rizə və Trabzon fəlakətzədələri», «Batum Müsəlman Birlik» cəmiyyətindən», «Kars heyətinin gördüyü işlərdən», «Gürcü mətbuatı və Acara» kimi bir çox məqalə və müxbir məktublarında yerli türk, həm də acar xalqlarının keçmişi, hazırkı vəziyyəti barədə çox qiymətli tarixi, etnoqrafik məlumatlar, materiallar vardır.

Ə.Cavad «Kars heyətinin gördüyü işlərdən» başlıqlı məqaləsində adından da göründüyü kimi, «Cəmiyyəti-Xeyriyyə»nin Qars, Ərdahan, Soğanlıq, Xorasan, Qaızman, Sarıqamışda göstərdiyi xeyriyyəçilik və yardım işlərindən bəhs edir. O, burada əhalinin məruz qaldığı fəlakətlərin söylənilənlərdən və təsəvvür edildiyindən də qat-qat böyük olduğunu bildirir. Məqalədən məlum olur ki, Ə.Cavadgil müharibə zərərdidələrinə təkcə onların yerləşdikləri məkanlarda maddi və xeyriyyə yardımları göstərməklə kifayətlənmirdilər. Onlar mümkün qədər bu qaçqınları daha sakit və əmin-amanlıqda olacaqları yerlərə köçürməyə çalışırdılar. Bu haqda Ə.Cavadın haqqında danışdığımız məqaləsində belə məlumat verilir: «Fəlakət yerlərində kimsəsiz qalan 6500 müslümələri Bakıya, Gəncəyə göndərmək üçün hökumət (Rusiya hökuməti – A.M.) tərəfindən təmsilçilərimizə izn verilmişdir» (43, 43). Qarsdakı müharibə fəlakətzədələrinin bir çoxu o zaman Bakı və Gəncə bölgələrində yerləşdirilirdi.

Ə.Cavadın məqalələrinin çoxunda, təbii olaraq, bədii təsvirlərdən, obrazlı təhkiyə və ifadə tərzindən də istifadə edilir. O, Qarsdakı əhalinin onları necə qarşılamasından danışarkən yazır: «Bizim oralara getdiyimizdən o qədər

məmnun oldular, o qədər sevindilər ki, bizim gözlərimiz yaşardı. Hamısının solğun dodağından boyasız bir təbəssüm ilə bərabər bu kəlmələri eşidirdik:

Həmd olsun cənabi Haqqa, bizim də canıyananılıq edənimiz varmış. İnsan ölərkən də qardaşının qucağında ölməlidir. Yaşasın qardaşlarımız!» (43, 43-44).

Göründüyü kimi, Əhməd Cavad Osmanlı türklərinin Azərbaycan xalqına olan doğma münasibətini, onlara özlərinin qan qardaşı və ümid yeri kimi baxmalarını təsirli, lirik-romantik üslubda təsvir etmişdir. Şair bununla hər iki türk xalqının bir-birinə bəslədiyi sevgi, sayğı və doğmalığın qarşılıqlı olduğunu da göstərirdi.

Belə lirik-romantik təsvirlərə şairin «Acara məktubları»nda daha çox rast gəlirik. Acaranın Çorok çayına qədər olan güney bölgəsi XVI əsrin sonlarından, bütün Acarıstan isə XVII əsrdən 1877-1878-ci illər rus-osmanlı müharibəsinədək Osmanlı imperatorluğunun tərkibində olmuşdur. Ə.Cavad misilsiz Acara təbiətini elə təsvir edir ki, insan görmədən ona heyran qalır. Acarıstandan «… insan bilməz ki, sağınamı, yoxsa solunamı baxsın. Vətən – hər iki tərəfi gözəl!» deyə bəhs edən şairə burada iki çayın birləşərək Qara dənizə axması xüsusi təsir göstərir. Bir-birindən ayrı düşmüş bütün türk xalqlarının bu şəkildə birləşməsi arzusunu belə ifadə edir: «Hər dərədən bir irmaq alaraq Qara dənizə, bənim məftun olduğum bu ağır başlı dalğalara malik olan Qara dənizə doğru, coşa, qoşa yürüyən «Acara su» əvvəlcə «Çorok»un xatirini sorar, sonra hər ikisi də bir yerdə Qara dənizin əngini öpmək üçün yola çıxarlar» (43, 47).

Bundan sonra « – Uf!.. Ya rəbbi, bu məğrur dağların dalğın duruşunu gördükcə, bənim küskün könlüm nələr ərz ediyor (söyləyir – A.M.)!..» deyən şair bununla bir daha

Acarıstanın tarixi türk ərazilərindən biri olduğuna eyham vururdu (43, 48). Onun öz soydaşlarına aşılamaq istədiyi fikir və arzu bu cür orijinal təsvir və təhkiyə vasitəsilə yaddaşlarda daha dərin iz buraxırdı.

Acarada türkcənin rus dilindən sonra ikinci rəsmi dil olduğunu yazan müəllifin «Acarada dil» məqaləsindəki aşağıdakı sətirlər də maraq doğurmaya bilməz: «Bütün ər kişilər türkcə bildikləri kimi, əhli xanımlar da türkcə qonuşurlar. Hətta Acaranın bir çox məşhur familiyalarının ailə dili türkcədir. Bunlardan başqa Acariyada rəsmi dil ruscadan sonra köklü dil və yazı da türkcədir... Türkcə oxunmayan bir məktəbə acaralılar çocuq vermək istəmirlər. Bu dilə adəta (hardasa – A.M.) bir türk qədər ehtiram göstərirlər... Bir rum, yəhudi, yaxud erməni taciri və sənətkarı Acaraya çıxdığı zaman həp (hey – A.M.) türkcə söylər, durur. Acaralılar da Batuma gəldikləri zaman, oğul-uşağa nə alacaqlarsa, həpsini (hamısını – A.M.) türkcə bazarlıq edərlər. Böyləcə bu dil anadan oğula unudulmadan keçər gedər...» (43, 20-22).

Ə.Cavad fikrinə davam edərək bildirir ki, ibadət zamanı acarlar «Qurani-Kərim»dən başa düşmədikləri parçaların izahını da türk dilində aparırlar, «hər anlaşılmayan sözün təfsilatı türkcə olaraq bəyan edilir. Ana dili gürcücə olan Acara yavrusu (balası – A.M.) az bir zamanda türkcəyə alışır (öyrəşir – A.M.), din qardaşının dilində söyləməyə başlar... Acaranın ən elmli vaizləri türk, yaxud türk dilində tərbiyə görərək dönmüş adamlar olur. Məhəmməd (s) minbərində oxunan xütbənin tərcüməsi türkcə olaraq anlatılır» (43, 21).

Müəllif bütün bunların heç bir inzibati amirlikdən deyil, Acarıstan əhalisinin daxili mənəvi tələbatından irəli gəldiyini lirik şəkildə belə ifadə edir: «Acaralıların saf

ürəklərindən çıxan «qardaş» salamlarını daha uzaqlara, ötənlərə götürməyə məcbur olan «Acarasu» bu yanıq səsi eşitdikcə qıvrılmağa başlayır… Dursun ağaya o səs nə dedi ki, yumruqlarını böylə hızlı (burada: möhkəm – A.M.) sıxdı da, yerindən fırladı. Və dərin bir təhəssürlə (həsrətlə – A.M.) sağ tərəfindəki məzarlığa baxdı…

O səs deyir ki:

Yox, əzizim, qar qalandı,
Qar yağdı, qar qalandı.
Qarğalar laçın oldu,
Laçınlar qarğalandı!» (43, 22).

Ə.Cavadın məqaləyə daxil etdiyi bu ağrılı bayatı da öz qayəsi ilə assosiativ olaraq ayrı düşmüş türk torpaqlarının həsrətini də anladır.

Əhməd Cavad «Gürcü mətbuatı və Acara» məqaləsində gürcü millətçilərinin bölgədəki müsəlmanların və türklərin barəsində olan hər hansı bir tərəqqi və inkişafa qısqanclıqla yanaşmalarına da vaxtında, həm də tutarlı cavab vermişdi. Gürcüstanın «Saxalxo purtseli» qəzeti «Cəmiyyəti-Xeyriyyə»nin Acarıstanda türkcə məktəb açmaq istəməsinə gürcü millətçilərinin etirazına belə cavab verirdi: «Acarada məktəb açırsınız, demək ki, məqsədiniz dəyişdi. İstəyirsiniz ki, acaralıları türkləşdirəsiniz!..» (43, 68).

Müəllif onların və oxucuların nəzərinə belə bir həqiqəti də çatdırırdı ki, bu vaxta qədər gürcü xalqının Acariya haqqındakı təsəvvürləri tamamilə yanlışdır. Çünki həmin təsəvvürlər gürcü tarixçilərinin şovinist mövqedən yazdıqları və heç bir əsası olmayan təhrif olunmuş iddialarına əsaslanır. Həmin tarixçilər indiyədək belə bir yanlış təsəvvür formalaşdırmışlar ki, guya «Qərbi

Gürcüstanda da bir zaman gürcülər yaşamışdılar!». Ona görə də onlar gördükləri hər bir yerli vətəndaşda gürcü əlaməti axtarmağa çalışırlar.

Bunlar bir daha sübut edir ki, Acara barəsində qəzetin mövqe və məqsədi yerli əhaliyə yox, ayrı-ayrı gürcü şovinistlərinə xidmət edir. Odur ki, «Bu vəziyyət bu gün olmazsa, yarın Acarada çox sui-təsir yapacaqdır. Gürcü mətbuatından heç birisi Acaranı tanımayır. Yazıb cızdıqları həp xəyal və fantaziyadır» deyirdi (43, 69).

Bütün bunlar Ə.Cavadın vətəndaşlığını, aydın düşüncə sahibi və tədbirli bir ictimai xadim olmasını və türkçülüyünü təsdiq edən faktlardandır.

Müəllif Acara ilə «həmhüdud» ərazidə yaşayan lazlar haqqında yazırdı: «Tarix bizə cəsur bir qövm olaraq göstərir ki, türklərin tarixində lazların cəsarəti bir çox böyük rollar oynamışdır. Bunların gözəl sifətlərindən biri də sədaqətləridir. Türkiyənin əlində olduqları vaxt sayir ufaq millətlər kimi öylə üsyan və iğtişaş ilə uğraşmadıqları kimi, «Laz» qüvvəsilə bir çox üsyanlar susdurulmuşdur. Doğruluqlarını tərif üçün doktor (Xosrov bəy Sultanov – A.M.) – Laz azdır, ancaq düzdür, – deyir» (43, 55).

Bu təqdimatdan əsas məqsəd lazların həm ərazi, həm də mənəvi cəhətdən türklərə yaxın və doğma olduğunu göstərməkdir. Əhməd Cavad oxucuya göstərmək istəyirdi ki, bütün digər məsələlərdə olduğu kimi, dərdinə şərik olma və xeyriyyə yardımı göstərmək işində də lazları türklərdən ayırmaq olmaz və bu heç mümkün də deyil. Təsadüfi deyil ki, o, məqalələrindən birini «Lazlara kömək» adlandırmışdır (43, 57-58). «Rizə və Trabzon fəlakətzədələri» məqaləsindən də görünür ki, Ə.Cavad «Cəmiyyəti-Xeyriyyə» xətti ilə onlara da kömək əli uzadırdı (43, 73-76).

Şairin «Açıq söz» qəzetinin 1 avqust 1916-cı ildə çap edilən «Suxum yolundan» məqaləsi də diqqətəlayiqdir. Məqalədə oxuyuruq: «Qulluq məni Suxum okruqu Qara dəniz sahilinə də gəlməyə məcbur etdi. Türklərin Batum üzərinə hücum etdiyi vaxt Batumda olan islam əhli istehkam dairəsindən sürgün edildiyi zaman Batumdan və Batumun ətrafında bulunan köylərin əhalisi o tərəf, bu tərəfə qaçdılar. Bunlardan bir qismi yenə mühacir sifətilə Suxum okruquna gəlmişlərdir. Məzlum 400-ə varan bu zavallılara istərsə milli, istərsə qeyri heç bir yardım olunmamışdı. Bəzilərinin müraciəti üzərinə bunları təhqiq etmək üçün «Cəmiyyəti-Xeyriyyə» nümayəndəsi Xosrovbəy bəni Suxum okruquna göndərmişdi. Bu günlərdə onlara para paylamaq üçün buralara gəldik» (43, 62).

Burada da Ə.Cavad humanist bir insan, vicdanlı vətəndaş kimi çalışır. Həm də bu yerləri xristian məskəni və ya «ermənilərin mədəniyyət gətirdiyi» bir məkan kimi təqdim etməyə çalışan qüvvələrə də öz münasibətini bildirir: «İstərsə bu uzun yolda, istərsə Suxumda yerli erməni yoxdur. Fəqət, ermənilər – iki-üç erməni bağalı bulunan yerləri «Yanıstan» adlandırırlar ki, buna deyəcəyimiz yoxdur» (43, 63).

Müəllif bir türk oğlu, türkçü kimi öz məqaləsində ermənilərin şovinizmlə dolu həyasız lovğalıqlarını ifşa etməklə yanaşı, yerli türk xalqının öz varlığını qorumasından da söhbət açır.

1.2. Şairin yaradıcılığında Balkan və I Cahan Savaşı mövzusu. Türk ordusunun tərənnümü

Ə.Cavad savaş illərində əməli fəaliyyətlə, xeyriyyəçiliklə, zərərçəkənlərə yardım işi ilə məşğul olmaqla, bu

mövzuda çeşidli, silsilə məqalələr yazmaqla yanaşı, şeir yaradıcılığını da davam etdirirdi. Bu cür şeirlərin çoxu savaş faciələri, xalqın acınacaqlı həyatı, taleyi mövzularında idi. «Hərbzədələrə», «İmdad», «Nə gördümsə», «Ümidimə», «Dərdim», «İraq», «Axşamlar», «Aşiqin dərdi», «Mayıs» və başqa şeirlər belə əsərlərdəndir. Qardaş xalqın başına gələn fəlakətlərin bu şeirlərdə təsirli əksini həyəcansız oxumaq olmur. Şair Qars hadisələrinə həsr etdiyi və Novruz bayramı münasibətilə yazdığı «Nə gördümsə» şeirində təbiətin də ağladığını, minbərlərdə azan yerinə bayquş səsi eşidilməsini, ellərin yasa batmasını, ah-nalələri ürək ağrısı ilə şeirə çəkir:

Ərmağanım yaslı nəğmə,
Bir quş oldum, çıxdım yola.
Getdim gördüm dost elində
Nə bir səs var, nə bir layla (42, 128).

Belə bir gündə bayram edə bilməyən şair Ərdahanda qələmə aldığı «Heyhat» şeirində də «Gözlər kormu, yoxsa könüllər darmı?» deyə fəryad edərək vicdanının səsini dinləyir:

Vicdanım əmr etdi, imdada gəldim,
Məzlum səsi duydum, fəryada gəldim! (36)

Yeri gəlmişkən, «İqbal» qəzetinin 1917-ci il 15 may, 16-cı nömrəsində nəşr edilmiş bu şeir Ə.Cavadın seçilmiş əsərlərinin I cildində «İmdad» adı ilə çap olunub. Qeyd etməliyik ki, bu iki variant arasında bəzi fərqlər mövcuddur. Məsələn, elə birinci beytdəki «fəryada gəldim» ifadəsi «mən dada gəldim» kimi, «sən gəl, dərdli könlüm, burda dolaşma» misrası «sən ey dərdli könlüm, burda

dolaşma» şəklində çap olunub. Bunlar arasında məna və şeiriyyət baxımından elə bir fərq yoxdur. «Anasızdır, yavru, sən söylə ninni» misrasında isə durğu işarələrinin yanlış düşməsi bəndin mənasını anlaşılmaz etmişdir. Orijinalda isə belədir: «Anasızdır yavrusu, söylə ninnini (laylanı – A.M), Ninnisiz yavruya (balaya – A.M.) imdada gəldim».

Bir şeyi də qeyd edək ki, kitabdakı 5-ci beyt qəzetdə heç yoxdur. Görünür, Ə.Cavad bu beyti sonradan əlavə etmişdir. Çünki gördüklərindən sarsılmış şairin üzüntü dolu misraları arasında üsyan və qəzəb ifadə edən «Bir yerdə ki, zalım bayrağı sanca, Göz yaşı tökülər o yerdə bunca» beytinin həm də başqa bir ruh halında yazıldığı hiss olunur.

May ayının sevinc ayı olduğuna inanan Ə.Cavad 1916-cı il Suxumidə qələmə aldığı «Mayıs» şeirində də ona ümid bəslədiyini gizlətmir:

Düşdüm çorak biyabana,
Sığınamam bir insana.
Gözəl mayıs, ümid sana,
Hər yan ağlar, bən ağlaram! (42, 134)

Qardaş dərdini öz dərdi bilən şair «Dərdim» şeirində pənah yolunu Tanrıdan umduğunu da deyir:

Nə yaman dərddir bənimki,
Söyləməyə dilim yoxdur.
Nə qəribəm qərib kibi,
Nə dərd bilən elim yoxdur!
Qaldım belə, bir ah, bir bən,
Tanrım sənsən, pənahım sən! (42, 153)

Özünü cəbhədə bir əsgər kimi hiss edən, hər yerdə

xeyriyyəçilik fəaliyyəti ilə seçilən, qiymətləndirilən Ə.Cavad «Nə dərd bilən elim yoxdur» misrası ilə başqa türk ellərindən də bu böyük qardaş dərdini paylaşmasını umurdu. Odur ki, aşıq kimi mahal-mahal gəzib dolaşan şair səsini bütün Turan ellərinə eşitdirmək üçün belə deyirdi:

Əski «Turan» masalları
Kor aşığın sinəsində.
Tənəzzül et, dinlə barı,
Bax, nə coşğunluq səsində! (42, 154)

«Aşiqin dərdi» şeirində də elinə aşiq şair türk oğlu kimi «el dərdini» özününkü sayır, «göstər bir dərd anlayanı!» deyə haray çəkir:

Ayrı düşdüm bən elimlə,
Gedən bulud, getmə, dinlə;
Ağla bana öz dilimlə,
Türk aşiqi söyləyəni!

Aşiqin bir el dərdi var,
Ellər oxur, ellər yazar!
Bən düzərəm, zaman pozar,
Göz götürməz bu gülşəni! (42, 145)

Şair savaş mövzulu şeirlərində heç də həmişə bədbin görünmür, onlarda nikbin ruh, ümid, qələbəyə inam da vardır. O, xalqı ruhdan düşməməyə, düşməni əzməyə, əsgərləri mərdliyə, cəsarətə, vətəni azad etməyə çağırırdı. «Hərbzədələrə»də müharibənin gətirdiyi fəlakətləri yanıqlı bir dillə nəzmə çəkən şair şeirin son beytində də insanları ayıq olmağa, mübarizliyə dəvət edir:

Ey hər zaman «mərdəm» deyən,
Bundan artıq fürsət olmaz! (42, 128)

«Şəhid əsir» şeirində də «Əsir cənazənlə qarşıma çıxdın», «Ölmə! Qardaş, ölmə! Düşmən çoxaldı!» deyə fəryad edən şair türk əsgərinin düşmənə boyun əyməyəcəyinə inamını belə bildirir:

Ölsən də söz yox ki, qanın coşacaq!
Düşman boğmaq üçün dağlar aşacaq! (42, 127)

Bu inam və çağırış «Oyan» şeirində daha güclü səslənir:

Oxutma ölüm fərmanın,
Ver yolunda gözəl canın.
Göyərçinlər xəbər söylər –
Gəlir təxti-Süleymanın.
Sən ey yatan, oyan, oyan!
Qiyamətdir, olmuş əyan! (42, 136)

«Tapınma azğın şeytana», «Yüksəldi birlik sancağı», «Yadlaşan qardaşın gəlir, Yenidən and iç, qardaş ol!» – kimi misralar da bu inamın təsdiqidir.

Bunu da deyək ki, həmin şeirlərin çoxu şairin 1916-cı ildə çıxan «Qoşma» adlı ilk kitabına da salınmışdır. Kitab Türkiyədə də rəğbətlə qarşılanmışdı. Şair Azərbaycan Maarif işləri ittifaqına yazdığı ərizədə bildirirdi: «1916-cı ildə «Qoşma» adlı 1-ci şeirlər məcmuəm çıxdı. Şeirdə intixab etdiyim (seçdiyim – A.M.) üsul gərək Azərbaycanda, arzusa, bəlkə Türk ölkələrində bir yenilik olaraq tələkki (qəbul – A.M.) edildi» (43, 187). Bu əsərlərin bir yeniliyi də onların bir hissəsinin elə qoşma şəklində olması, sadə xalq dilində yazılması idi. Bu da şairin yeni

yaradıcılıq imkanlarından xəbər verirdi.

«Şəhidlərə» şeiri Bakının azad edilməsi uğrunda canlarını fəda etmiş Osmanlı şəhidlərinin ruhuna və qəhrəmanlıqlarına hörmət və ehtiramla doludur. 1919-cu ildə Cümhuriyyətimizin bir illiyi təntənə ilə qeyd edilərkən yazdığı bu şeirdə Ə.Cavad üzünü şəhidlərə tutaraq belə söyləyir:

Qalx, qalx sarmaşıqlı məzar altından,
Gəlmiş ziyarətə qızlar, gəlinlər!
Ey karvan keçidi, yollar üstündə
Hər gələn yolçuya yol soran əsgər!

Sənin qovduqların yabançı xanlar,
Qurtardı ölkəni tökdüyün qanlar!
Bax, nasıl öpməkdə tozlar, dumanlar
Qərib məzarını bənlə bərabər! (42, 154)

Ə.Cavada görə, bu şəhidlərin qardaş ölkənin azadlığı uğrunda tökdükləri qanlar müqəddəs və doğmadır. Onların ruhları və qanları Azərbaycan torpağında hər bahar bitən lalələrin qan rəngində üzə çıxır:

Sənin qanındanmı düzlərdə böylə,
Qüdrət bitirmişdir sayılmaz lalə?!
Dost elindən qopdu bir yanıq nalə,
Yoxsa o nalənin ruhumu söylər?! (42, 154)

Təsadüfi deyil ki, tarix elmləri doktoru, polkovnik M.Süleymanovun «Azərbaycanda türk şəhidlikləri» kitabının ayrıca bir bölməsi «Sarmaşıqlı məzarlar» adlandırılmışdır. Burada oxuyuruq: «Azərbaycan milli mücadiləsinin lideri M.Ə.Rəsulzadə ümumxalq duyğu-

larını ifadə edərək Azərbaycan torpağında şəhid olmuş türk övladlarını belə anırdı:

…Əvət, Azərbaycanın hər cəhətində şairin təsvir etdiyi kimi, «Sarmaşıqlı bir məzar» bulursunuz ki, «qızlar, gəlinlər» tərəfindən ziyarətgah halına qoyulan bu məzar qardaş imdadına qoşan «TÜRK» məzarıdır.

«Sarmaşıqlı məzar» dedikdə M.Ə.Rəsulzadə azadlıq şairi Əhməd Cavadın Azərbaycandakı Osmanlı şəhidlərinə həsr etdiyi «Şəhidlərə» şeirini nəzərdə tuturdu. Bu şeir Nuri paşanın şəhid düşmüş silahdaşlarının xatirəsinin əbədiləşdirilməsinə Azərbaycanın yaradıcı ziyalılarının həsr etdiyi ən yaxşı ədəbi nümunələrdən biridir. Burada şairin türk şəhidlərinə bəslədiyi səmimi minnətdarlıq hissləri həzin bir kövrəkliklə birləşərək dinləyənlərin də qəlbinə yol tapır və onların da daxili yaşantılarının ifadəçisinə çevrilir» (117, 104).

«Şəhidlərə» şeiri Türkiyəli şəhid qardaşlarımızın ruhuna ithaf edilmiş bir elegiya təsiri bağışlayır və şəhidlərimizin yatdığı məkanın həmişə inanc, güvənc yerimiz olduğunu bir daha xatırladır.

Cəmiyyətin xeyriyyəçilik fəaliyyəti Rusiyada, Qafqazda, Qafqazın şimalında yaşayan türk xalqlarını da çevrələyirdi. Bu da Ə.Cavada imkan verirdi ki, əksər türk xalqlarının türkcəsini, ləhcələrini öyrənsin. Odur ki, Balkan savaşında da özünü doğma yerlərdə olduğu kimi hiss edirdi. Ancaq düşmənlərin xarabaya çevirdiyi türk yurdlarının durumu, türk qaçqın, köçgünlərinin ah-naləsi onu sarsıdırdı. Odur ki, hərdən ürəyini şeirlə ovundurur, bu fəlakətləri dünyaya çatdırmaq istəyirdi.

Şair «Əzrail sağına, ölüm soluna» keçən yaralanmış türk əsgərlərini «yaralı quşa» bənzədir və onların sağalıb cəbhəyə qayıtmasını diləyirdi:

Gözündə yaşı var qoy onu töksün,
Sonra amadədir ölümə hər gün.

«Bir gül əkdim, açılmamış dərdilər» misrası ilə başlayan üç bəndlik şeirdə isə «yaralandım, sarmadılar yaramı» ifadəsinə rəmzi məna verir, bütün qan qardaşlarının bu cəbhədə olmamasından qayğılanır:

Nə yazım yaz, nə də günüm gün oldu,
Könlümün çiçəyi açmadan soldu.
Qanadımı bir uğursuz əl yoldu,
Yerində bir damla quru qan qaldı.

Ə.Cavadın Türkiyəyə sevgi və rəğbəti təkcə ayrı-ayrı misra, beyt və dördlüklərdə ifadə olunmur, həm də bütövlükdə şeirlərinin ideya, mövzu və ruhunu çevrələyir. Şair bəzən heç türk, Turan adı da çəkmir, amma türk xalqlarına, Türkiyəyə məhəbbətini, birlik amalını şeirin ümumi ruhunda, bəzən də pafosunda bildirir. Bu baxımdan «Çırpınırdın, Qara dəniz!» şeiri daha maraqlıdır.

Türkiyə şairləri Qara dəniz haqqında çox əsərlər yazmışlar. Ancaq bunların heç biri Türkiyədə Ə.Cavadın «Çırpınırdın, Qara dəniz» şeiri qədər sevilib, yayılıb qiymətləndirilməmişdir. Bunun bir səbəbi şairin türkçülüyü, türk dünyasına rəğbəti, sevgisi ilə bağlı idisə, bir səbəbi də 1912-ci ildə dəniz savaşında Türkiyənin məşhur «Həmidiyyə» zirehli gəmisinin Yunanıstanın «Averof» hərbi gəmisini məhv etməsidir. Ə.Cavad 1912-ci ildə baş vermiş bu hadisədən mlhamlanaraq, «Çırpınırdın, Qara dəniz» şeirini 1914-cü ildə Gəncədə yazmışdır. Şeir Rusiyanın «Kazbek» hərbi zirehli gəmisinə meydan oxuyan məşhur «Həmidiyyə» hərbi gəmisinin və onun hərbi heyətinin qəhrəmanlığı münasibətilə qələmə

alınmışdır. Gəminin kapitanı Atatürklə yaxın olmuş, Başbakanlıq və Böyük elçilik vəzifələrində çalışmış Rauf Orbay bü hünərinə görə «Həmidiyyə» qəhrəmanı kimi şöhrətlənmişdir. Tarixçi alim Muhiddin Nalbəndoğlu bu mövzudan bəhs edərkən yazırdı: «Dünya dənizçilik tarixində ilk korsan zirehlisi kimi tanınan «Həmidiyyə»nin bu hünəri bütün türk xalqlarında qürur hissi yaratmışdı. Şərqilərə, türkülərə keçən bu qəhrəmanlıq məşhur «Çırpınırdın, Qara dəniz» şərqisində də yer almışdır… Bu gün Anadoluda və Azərbaycanda dillər əzbəri olan bu bəstə türk millətinin qəlbində uyuyan Üzeyir bəy Hacıbəyliyə aiddir. Bu da göstərir ki, Ü.Hacıbəylinin türkçülük anlayışının boyutu Turançılıq imiş» (184).

Türkiyənin qələbəsini qürurla qələmə alan Ə.Cavad şeirdə həm də bütün türk xalqlarının sevincini ifadə edir. Türkün bayrağından və özündən ayrı qalan Qara dəniz indi ona qovuşmaq və isti nəfəsini duymaq həsrəti ilə çırpınır. Bu çırpıntılar dalğa və ləpələrin sevinc səsi rəmzinə çevrilir:

Çırpınırdın, Qara dəniz,
Baxıb Türkün bayrağına!
«Ah!..» deyərdin, heç ölməzdim
Düşə bilsəm ayağına!
Ayrı düşmüş dost elindən,
İllər var ki, çarpar sinən!..
Vəfalıdır gəldi-gedən,
Yol ver Türkün bayrağına!

İncilər tök gəl yoluna,
Sırmalar səp sağ, soluna!
Fırtınalar dursun yana,
Salam Türkün bayrağına!

«Həmidiyyə», o Türk qanı!
Heç birinin bitməz şanı!
«Kazbek» olsun ilk qurbanı.
Heyran Türkün bayrağına!

Dost elindən əsən yellər,
Bana şeir, salam söylər!
Olsun bizim bütün ellər
Qurban Türkün bayrağına!
Yol ver Türkün bayrağına! (42, 149-150)

«İstanbul» şeirinin yazılma tarixçəsi və şeirin məziyyətləri haqqında isə akad. B.Nəbiyev yazır: «Ə.Cavad Balkan və Birinci Cahan savaşının türk xalqlarına, islam dünyasına gətirdiyi fəlakətlərdən rəmzlər vasitəsilə bəhs edir. Onun könül rübabı çox həssasdır. Biz bu rübabın tellərinin gah ordumuzun uğurlarından doğan sevinc, gah da uğursuzluqlarından doğan hüzn, kədər, ağır peşimançılıq duyğuları ilə səsləndiyinin şahidi oluruq... 1919-cu ilin baharı astanasında xarici işğalçıların İstanbulu alması xəbəri türk xalqlarının səadəti üçün bu böyük qonşu ölkədən mənəvi və fiziki kömək uman şairi də bütün həmvətənləri kimi dərindən kədərləndirmişdi. Eyni adlı şerində o, İstanbulu sevgili yar obrazında canlandırmış, onun mərmər sinəsində yabançı əllər dolaşdığından dərin yasa batmışdı. Şeirin növbəti bəndlərində ardıcıl surətdə və yerli-yerində işlədilmiş təsvir vasitələri sevgili yar – İstanbul obrazı ətrafında uğurlu qruplaşdırılmışdır. Dünyada tayi-bərabəri olmayan bu gözəlin tifağı dağılandan sonra onun «sırmalı telləri daranmamış», incə belinə yad ellərdən sürüşüb gələn zəhərli ilan sarılmışdır. Şeirin sonunda Ə.Cavad obrazın

«kodunu» açır. Türkiyə paytaxtına üz vermiş bu fəlakətin təkcə Anadolunu deyil, bütün Turan elini yasa batırdığını elan edir. Yeddi bəndlik şeirin hər bəndindən sonra verilən bu təkrar beyt isə şəhərin kömək uman mükəddər mənzərəsini tamamlayır:

Ah, ey solğun üzlü, dalğın İstanbul,
Mavi gözləri pək bayğın İstanbul! (102, 57-58)

İstanbulun düşmən əlinə keçməsindən həyəcanlanıb, bədbinləşən şair elə zamanındaca öz kədərini, təəssüf və ümidini təsirli bir dillə ifadə edir. İstanbulu dünya gözəli, sevgili yar kimi vəsf edən şair, ona uzanan düşmən əlini əfi ilana bənzədir, «yoxmudur kimsədən könlümə imdad?!» deyə hayqırır:

Bu qəlbimdən qopan yanıq bir fəryad,
Çəkdiyim dərdlərin tərcümanımı?
Yoxmudur kimsədən könlümə imdad,
Bu bəxtsiz sevdamın son zamanımı?
Ah, ey solğun yüzlü, dalğın İstanbul!
Mavi gözləri pək bayğın İstanbul! (42, 144)

Şair yenə də ona yardıma getmək istəyir:

Ey yolum üstündə yüksələn dağlar,
Gizli sevda üçün çırpınan dəniz!
Yol verin, yol verin, bənim dərdim var,
Qeyb etdim yolumu, qaldım kimsəsiz!
Ah, ey solğun yüzlü, dalğın İstanbul!
Mavi gözləri pək bayğın İstanbul! (42, 144)

Şairin kədərinin bu qədər dərinliyinin səbəbi həm də İstanbulun işğal edilməsi ilə bütün Turan elinin azadlığına

olan ümidlərinin azalmasındandır. Bütün bu kədərin ağırlığı Ə.Cavadın Türk dünyasına övlad sevgisindən qidalanır.

1917-ci ildə Bakıda «Cəmiyyəti-Xeyriyyə» xətti ilə Azərbaycan yazıçı və şairlərinin Türkiyənin I Cahan savaşında çəkdiyi müsibətlər mövzusunda yazılan şeir, hekayə və məqalələr «Qardaş köməyi» kitabında toplanmışdı. Həmin kitabda M.Ə.Rəsulzadə, H.Cavid, A.Şaiq, A.Səhhət, F.Köçərli, Ə.Haqverdiyev, M.S.Ordubadi, M.Y.Cəfərov, Xosrov bəy Sultanov, C.Cabbarlı və s. müəlliflərin (cəmi 37 nəfər) əsərləri yer alır. Ə.Cavadın haqqında söhbət açacağımız bir hekayəsi və «Yazıq» şeiri də məcmuəyə daxil olan əsərlər arasındadır (81, 56-60; 41). «Yazıq» şeirində şair savaş faciələrindən soydaşlarının deyil, «dənizlərin, dalğaların» belə dərdə düşməsini, xalqın «öz elində qərib kəsilməsini», ah-nalələri ürək ağrısı ilə şeirə çəkir, «yoldan azanları» lənətləyir, «sizə düşər dərdin yarısı» deyir və onları «könül yapmağa», öz qardaşlarına yardıma səsləyir.

«Ey elin xanımı, qızı, qarısı,
Əl açmış bacılar duşmana, yazıq!» (42, 143)

– deyən şair belə dözülməz durumda da sabaha inam və qələbə arzusunu bildirir. Bilir ki, türk xalqları əyilsə də yenilməz.

B.Nəbiyev Ə.Cavadın «Yazıq» şeirindən:

Dəniz dərdə düşər, dalğalar ağlar,
Dağlar dərdə gəlsə, dumana yazıq

– beytini misal çəkərək yazır: «Burada oxucunu cəlb edən ilkin, üzdə olan əlamət alliterasiyadır. Lakin burada obrazlar silsiləsinin məna ardıcıllığı daha vacib məqamdır.

Hər şeydən əvvəl bu beytdə dərdin böyüklüyü çox iri miqyaslı obrazlar vasitəsilə ifadə olunmuşdur» (102, 107).

Ə.Cavadın bu mövzudakı silsilə şeirləri ilə yanaşı, «Xuda qəbul nəkə» (Allah qəbul eyləməsin – A.M.) hekayəsində müəllif özü də «Xeyriyyə cəmiyyəti»nin üzvü kimi iştirak edir (81, 56-60). Hekayənin qəhrəmanı isə eveşiyi dağılmış, Türkiyəni, İranı və Rusiyanı gəzib, itmiş körpə oğlunu axtaran anadır. Son ümid yeri Bakı «Xeyriyyə Cəmiyyəti»nin cəbhə bölgəsindəki məntəqəsi olur, cəmiyyət üzvlərindən oğlu Həsəni axtarıb tapmalarını xahiş edir. Cəmiyyətin nümayəndəsi ananın oğlunu bütün bölgələrdə axtarsa da tapılmır, məlum olur ki, onu bir rus zabiti özü ilə aparıb. Publisistik üslubda olan bu hekayə Ə.Cavadın şahidi olduğu hadisə əsasında yazılıb və müharibənin gətirdiyi faciələrin dəhşətini, ağırlığını daha real şəkildə və əhatə dairəsini göstərmək baxımından maraq doğurur.

Ümumiyyətlə, Birinci Cahan savaşının Türkiyə obalarında törətdiyi fəlakətlər haqqında yazılan və bir çoxu «Qardaş köməyi» toplusunda verilən ədəbi publisistik əsərlərin əksəriyyətində nikbinlik, sabaha inam da var. «Qardaş köməyi» bu inam və hərbzədələrə yardım çağırışı xarakterinə görə rəğbətlə qarşılanmışdır.

Azərbaycan ədəbiyyatının görkəmli tədqiqatçısı professor Yavuz Akpınar həmin kitab haqqında yazır: «Bu, artıq tarixə «Qardaş köməyi» kimi düşmüş, I dünya savaşında Qafqaz cəbhəsində böyük sıxıntılarla, rus və erməni zülmüylə qarşılaşmış vətəndaşlarımıza Azərbaycan türklərinin şəfqət əlini uzatmasıdır» (9).

Azərbaycan yenidən öz müstəqilliyini qazandıqdan, Türkiyə ilə ədəbi-mədəni, siyasi-ictimai əlaqələrimiz bir daha canlandıqdan sonra «Qardaş köməyi» toplusunun

yeni əlifba ilə çapına ehtiyac duyulmuş, Nizami adına Ədəbiyyat İnstitutu (Tərtibçi və ön söz müəllifi: f.e.n. Nəzakət Qafqazlı) onu nəfis şəkildə hazırlayıb oxuculara çatdırmışdır (81).

Ə.Cavadın savaş illərində qələmə aldığı «İki düşmən» hekayəsi də bəşəri, ali duyğuların təbliğ edilməsi baxımından maraqlıdır. Arxa cəbhədə tanış olmuş osmanlı və rus əsgərinin mehribançılığını və səmimiyyətini mənsub olduqları millətlərin ürək təmizliyi və alicənablığı ilə də əlaqələndirən Ə.Cavad hekayəsini Ə.Hüseynzadənin məşhur «Heyrət, yaxud bir Mələyin insanlara xitabı» şeirilə bitirir (43, 8-12). Şairin bu istinadından da göründüyü kimi A.Şaiq «hətta Cavad və Cavid kimi qiymətli şairləri – Əlibəy yetişdirdi» deməkdə haqlısız (43, 91).

Prof. Əflatun Saraçlı Ə.Cavadın bu dövrdəki fəaliyyətindən danışarkən haqlı olaraq belə qənaətə gəlir ki, bunun «…bir əhəmiyyəti ədəbiyyatımızda Birinci Cahan savaşı mövzusunun işlənmə dairəsi və çeşidliliyi idisə, bir əhəmiyyəti də ilk dəfə bu bölgələrdə türk soydaşlarımızın, qonşularımızın durumunu obyektiv şəkildə öyrənmək idi. Ə.Cavad üçün isə bu həm də onun dünyagörüşünün zənginləşməsi, gələcək bədii yaradıcılığı üçün həyat müşahidəsi və yeni mövzular öyrənməsi idi. Ən başlıcası isə bunlar Ə.Cavadın istiqlal və türkçülük görüşlərinin yetkinləşməsində və formalaşmasında xüsusi rol oynadı» (112, 158).

I Cahan müharibəsi Ə.Cavad yaradıcılığında xüsusi mərhələ təşkil edir. Bunu, prof. Ə.Cəfəroğlu belə yazırdı: «Azərbaycan ədəbiyyatı tarixində I Cahan müharibəsinin salnaməsini, tarixini onun qədər heç bir Azərbaycan şairi olduğu kimi əks etdirə bilməmişdir» (151, 288).

Azərbaycan və Osmanlı türklərinin bir-birləri ilə olan doğmalıqları gənc Azərbaycan Xalq Cümhuriyyəti ilə Osmanlı Türkiyəsi arasındakı qarşılıqlı münasibətlərin inkişafında əhəmiyyətli rol oynadı. Azərbaycan Cümhuriyyəti çətin günlərini yaşayarkən Türkiyə hökumətinə müraciət edib ondan kömək istədi.

1918-ci ilin 4 iyun tarixli Batum müqaviləsinin şərtlərinə görə Azərbaycan Cümhuriyyətinin hərbi yardım haqqında müraciətinə uyğun olaraq, Türkiyə hökuməti ehtiyac olduğu zaman ona bu köməyi də göstərməyi öz üzərinə götürmüşdü.

Yarandığı gündən Azərbaycan Xalq Cümhuriyyətini devirməyə çalışan düşmən qüvvələr çox idi. Sovet Rusiyası, İran, İngiltərə və digər imperialist ölkələr belə məkrli niyyətdə idi. Bir tərəfdən çar Rusiyasının generalı Denikin ordusu, bir tərəfdən də ermənilər Bakıda yenicə yaradılmış Mərkəzi Kaspi adlı oyuncaq hökumətdən istifadə edərək Bakı quberiniyasını da Azərbaycanın əlindən almağa çalışırdılar. Ona görə də Azərbaycan Xalq Cümhuriyyəti hərbi yardım üçün Osmanlı Türkiyəsinə müraciət etməyi lazım bildi. Buna cavab olaraq Türkiyədə dərhal tədbirlər görülməyə başladı və Azərbaycana göndərilmək üçün xüsusi ordu təşkil edildi. Həmin ordu Qafqaz İslam Ordusu adlandırıldı və ona Türkiyənin o zamankı hərbi naziri Ənvər paşa öz qardaşı Nuru paşanı komandan təyin etdi. O dönəm onsuz da çökməkdə olan «Osmanlı dövləti, Azərbaycanı xilas etmə hərəkatına başladığı andan etibarən Sovet Rusiyasını, Ermənistanı, Gürcüstanı, Azərbaycan ermənilərini, İngiltərəni və müttəfiqi Almaniyanı sanki ortaq təşkil edilmiş bir cəbhə olaraq qarşısında görmüşdü» (103, 117). Doğurdan da, Azərbaycan Cümhuriyyətinin ona düşmən kəsilən

imperialist və işğalçı qüvvələrdən, eləcə də erməni daşnaklarından qorunmasında və möhkəmləndirilməsində əsas rolu Qafqaz İslam Ordusu oynadı. Osmanlı dövləti Azərbaycanı təkcə rus, erməni və başqa imperialist-seperatçı qüvvələrdən qorumaqla kifayətlənmədi, Azərbaycanın öz ordusunun yaradılması qayğısına da qaldı.

Prof. Əhməd Karaca çox doğru deyir ki, «Bu, (Qafqaz İslam Ordusunun Bakıya yardıma gəlməsi – A.M.) türk tarixində ilk dəfə olaraq bir türk dövlətinin digər türk dövlətinin yardımına getdiyi bir hadisə idi» (52, 14).

Tarixdən və apardığımız araşdırmalardan məlumdur ki, Qafqaz İslam Ordusunun Azərbaycana gəlişi yerli əhali tərəfindən çox böyük sevinclə qarşılanmışdır. Xalqın dəhşət və həyəcan içində olduğu bir vaxtda Türkiyə ordusunun onun köməyə gəlməsi əhali arasında böyük ruh yüksəkliyi yaratdı.

Qafqaz İslam Ordusunun Azərbaycana gəlişi ölkədə ədəbi-mədəni, siyasi-sosial inkişafa yeni bir təkan verdi. İstiqlalçı sənətkarlar öz əsərlərində bu qələbəni, Türkiyə əsgərlərini ilhamla tərənnüm etdilər, şəhidlərə ağı dedilər. Azadlıq amalına, Türkiyəyə, türk xalqına, türkçülüyünə görə burada da Ə.Cavad öncüllərdən oldu.

Ə.Cavad bu mövzuda şeirlər yazmaqla kifayətlənməyib, eyni zamanda Qafqaz İslam Ordusu əsgərlərinə qoşulub. H.Baykaraya görə Türk ordusu Azərbaycana gələndə «Əhməd Cavad yenə «Müqəddəs Mehmetcik» və Azəri əsgər yoldaşları ilə Bakının Yasamal dağlarındakı səngərlərdə düşmənlə vuruşub» (22, 276). Ə.Cavad haqqında tədqiqat aparmış İrfan Murad Yıldırım da bunu təsdiqləyir (175, 18). Hətta «Müxtəsər Azərbaycan ədəbiyyatı tarixi» kitabında da bu fakta rast gəlirik (97,

246).

C.Qasımova görə, Ə.Cavad 1918-ci ildə də mart hadisələrinin qarşısını almaq üçün Azərbaycan nümayəndə heyəti ilə Türkiyədə olmuşdu (83, 69). Lakin biz bu barədə başqa bir qaynaq və ya mənbəyə rast gəlmədik.

Qafqaz İslam Ordusunun Azərbaycanda sevinclə qarşılanmasını o zaman dövri mətbuatda çap olunmuş çeşidli məqalə və şeirlərdən də görmək olur. Həmin məqalə və şeirlərin çoxu Əhməd Cavad tərəfindən qələmə alınmışdır. Bunların bəzilərindən Əhməd Cavad irsinin tədqiqatçılarından olan filologiya elmləri doktorları Əli Saləddin, Aybəniz Əliyeva (Kəngərli), professorlardan Əflatun Saraçlı, Alxan Bayramoğlu, filologiya elmləri namizədi Göyərçin Mustafayeva, Rəhman Həsənov və b. geniş söhbət açmışlar.

Prof. A.Bayramoğlu «Qafqaz imdadına çatan türkün könül nəğmələri» adlı kitabında Qafqaz İslam Ordusu ilə birlikdə Azərbaycana gələn türkiyəli şairlərlə Azərbaycanın ədib və şairlərinin yaradıcılıq əməkdaşlıqlarından ətraflı bəhs etmiş, onların mətbuatda çap edilən şeir və məqalələrindən nümunələr vermişdir. Burada Ə.Cavadın Türk ordusuna və türkiyəli qələm dostlarına həsr etdiyi xeyli şeir və məqalə də yer almışdır (24, 119-124, 131-134).

Prof. Əflatun Saraçlının «Azərbaycan yazıçıları Cümhuriyyət dönəmində» monoqrafiyasının bir fəsli (112, 118-174) Ə.Cavada həsr edilmişdir. Burada Ə.Saraçlı Ə.Cavadın Türkiyəyə həsr edilmiş şeir və məqalələrindən də söz açır.

Ə.Cavad «Türk ordusuna» şeirində Qafqaz İslam Ordusunu belə salamlayırdı:

İlk atarkən əski bürcə addımı,

Kars qalası salam topu atdımı?
Sən yaparkən orda zəfər şənliyi
Məğlub düşmən qaşlarını çatdımı? (42, 152-153)

Şair bu şeirdə Qafqaz İslam Ordusunun bütünlüklə Qafqaz türklərinin yurduna gəldiyini diqqətə çatdırmışdır. Ə.Cavad burada Qars qalasından Türk ordusuna salam topu atılmasını da təsadüfi olaraq işlətmir. Şair Qarsın ermənilərin tamah saldıqları Türk torpağı olduğunu yada salmaq istəmişdir. O, Qafqaz İslam Ordusunu fəxrlə «şanlı ölkənin şanlı ordusu» – deyə təqdim edir. Ə.Cavad onun gəlişinin məqsədini aydın şəkildə bildirir. Şairə görə, Qafqaz İslam Ordusunun «Turandan rusu qovmağa» gəlməsindən hər yer, o cümlədən öz sırasını gözləyən Dağıstan dağları da sevinib şadlanır, Kür və Araz çayları sevincdən coşur:

Gəldiyin gün Kürün axar-baxarı
Əski günahlardan silkindi, çıxdı!
Eşidib Gümrüdə* təkbir səsini
Araz sevincindən dünyanı yıxdı!

Türk əsgərinin keçib getdiyi yerlərdə abadlıq və əmin-amanlıq hökm sürdüyünə inanan prof. Əflatun Saraçlı bu cəhətləri belə mənalandırır: «Türk ordusuna» şeirində… Türkiyə əsgərlərinin Qafqazdakı qəhrəmanlıqları, qardaşın-qardaşa təmənnasız köməyi və bunun düşmənlərə görk olması da əks olunur» (112, 142).

Ə.Cavad şeirinə belə bir qeyd də vermişdir: «Bu parça Bakını fəth edən əsgərlərə ithaf edilmişdir (42, 152).

* Эцмрц – Совет Ермянистанында ады Ленинакан олараг дяйишдирилмиш гядим тцрк торпаьы

B.Nəbiyev şeirin məna və məzmununu belə ümumiləşdirir: «Ə.Cavad Azərbaycan xalqını bolşevik-daşnak əsarətindən xilas etmək üçün gəlmiş türk ordusunu öz əsərlərində dərin səmimiyyətlə qarşılayır, onun təkcə azərbaycanlılar qarşısında deyil, bütün türklər və tərəqqipərvər dünya qarşısında tarixi xidmətlərini tərənnüm edirdi. «Türk ordusuna» şeirində hər şey olduğu kimi, öz adı ilə verilir, qardaş ölkənin xilaskar ordusu Turandan rus işğalçılarını qovduğu üçün alqışlanırdı. Viran edilmiş xan sarayı da, xalqın müsibətləri üçün qan ağlayan Araz da, Kür də, Qara dəniz də, vüqarlı Qars qalası da, uca Dağıstan dağları da türk ordusunun insanpərvərlik missiyası sayəsində öz həyatlarının yeni mərhələsinə qədəm qoyurlar» (102, 55).

Əhməd Cavad Qafqaz İslam Ordusunun qələbələrlə dolu yürüşünü sanki addım-addım izləmiş, onu öz şeirlərində sevinc və qürur hissi ilə tərənnüm etmişdir. «Ey əsgər» şeiri bu baxımdan maraq doğuran nümunələrdəndir. Orada türk ordusuna müraciətlə deyilir:

Dağa, daşa sancağını öpdürüb,
Duman kimi bu dağları bürüdün!
Dənizlərə salam rəsmi yapdırıb,
Göylərdəki bulud kimi yürüdün!
Yürü, yürü batan günün izinə!
Gülümsəyir doğan günəş yüzünə! (42, 151)

Bu şeir öz ruhu, üslubu ilə M.Ə.Yurdaqulun «Yürü, oğlum, yürü git, Ya qazi ol, ya şəhit!» beytində olduğu kimi hücum marşı təsiri bağışlayır.

Ə.Cavad türkün məhz İslam inamlı olmasını da Türkiyə ordusunun əsas keyfiyyətlərindən sayır və bu cəhətin «əsən yel» vasitəsi ilə «eşitməyən qulaqlara» da

çatdırılmasını vacib sayır:

Ey Türk, sənin hansı dində olduğun,
Minarəyə buyur, bizə söyləsin!
Eşitməyən qulaqlara səsini
Əsən yelə buyur, xəbər eyləsin!
Yürü, yürü batan günün izinə!
Gülümsəyir doğan günəş yüzünə! (42, 152)

Ə.Cavad bu şeirində Qafqaz İslam Ordusunun Azərbaycanda həyata keçirdiyi xilaskarlıq işlərini də xüsusi nəzərə çatdırır. Şair Qafqaz İslam Ordusunun Azərbaycandan düşmənləri qovduqdan sonra ölkənin dinc həyata qədəm qoymasını arzulayır və xilaskar orduya iftixarla təşəkkürünü çatdırır:

Şu qarşıkı duman çıxan bacadan
Sən gəlmədən iniltilər çıxardı.
Geciksəydin məzlumların fəryadı
Yeri, göyü, kainatı yaxardı!
Yürü, yürü batan günün izinə!
Gülümsəyir doğan günəş yüzünə! (42, 152)

Ə.Cavad onu da xüsusi olaraq vurğulayır ki, azadlıq, istiqlaliyyət və ədalətin bərpası üçün gələn, üzünə doğan günəşin də gülümsədiyi türk əsgərinin ayaq basdığı yerlər qaranlıqdan çıxıb, aydınlığa qovuşur.

Azərbaycanı Turanın bir parçası, Osmanlı türklərinin nənə torpağı hesab edən şair türk ordusunun xilaskarlıq missiyasından və əldə etdiyi qələbələrdən doğan sevinc və coşqu hisslərini belə ifadə edirdi:

«Durnalarla göndərdiyim salamı
Yetirdimi sana ninen torpağı?!» (42, 152)

Bu sevinc və coşqu «İstiqlal zəfərinin dastanı» kimi qiymətləndirilən (182, 3) «Bismillah» şeirində özünü daha qabarıq şəkildə göstərməkdədir. Bu şeir də 1918-ci ildə, sentyabr ayının 15-də Bakının Qafqaz İslam Ordusu tərəfindən ruslardan və erməni daşnaq qüvvələrindən, həmçinin ingilis əsgərlərindən tam azad edilməsi münasibəti ilə yazılmışdır. Ə.Saraçlı «Bismillah» şeirindən bəhs edərkən yazır: «…İlk baxışda «Bismillah» sözü dini məna təsiri bağışlasa da, o vətən, azadlıq, inam anlamındadır. Bakının düşmənlərdən təmizlənməsi, qardaş Türkiyə ordusunun yardımı, başkəndin Bakıya köçürülməsi, birlik, qardaşlıq, qələbə əzmi vətəndaş şairin odlu misralarında əzəmətli səslənir» (112, 142). Ə.Cavadın şeirə «Bismillah» adını verməsi təsadüfi deyil və əslində müqəddəs vətən torpağı üçün başlanmış olan bu işə Allahdan xeyir-dua diləyidir. Bakı şəhərinə müraciətlə yazılan bu şeirdə əsgərlərin «zəfər topları»nın gurultusundan, qələbə Sevincindən coşan ürək döyüntüləri böyük fərəh və sevinclə qələmə alınır:

Atıldı dağlardan zəfər topları,
Bürüdü elləri əsgər, bismillah!
O xan sarayında çiçəkli bir qız
Bəkliyor bizləri zəfər, bismillah!
Ey döyünən yürək, dumanlı şəhər,
Bilirmisən, bu zor gurultu nədir?
Aç sisli qoynunu, ordumuz gəlir,
Nişanlın qoynuna girər, bismillah! (42, 147)

Şair Türk ordusunu rəmzi şəkildə Bakının istəklisi, nişanlısı kimi təqdim edir. İnanır ki, «şəhərin sisli, dumanlı qoynuna» onun istəkli nişanlısı girməklə hər iki həsrətli vüsala çatıb, bu vüsalın şirinliyindən «məst ola-

caqdır». Türk ordusunun əsgərlərinə də belə bir duyğu güc verir. Bakıdakı o xan sarayında əlində çiçək bir qız onlardan zəfər gözləyir. Ona görə də türk əsgəri sanki Bakıya tərəf hərəkət edən bu sevgili qıza ürək-dirək verir:

Ey Bakü, sən qorxma, gəldik gələli*
Sənincün atıldıq daim irəli!
Sağ qalanlar annələrə təsəlli,
Şəhidlərin ruhu gülər, bismillah! (42, 147)

Şeirdə Bakını Azərbaycandan qoparıb almaq istəyən azğın və məkrli düşmənə də tutarlı cavab verilir:

Ey düşman, alnının yazısı qara,
Öldürməz bizləri vurduğun yara!
Yolladığım qurşun ərməğan sana,
O kirli alnını öpər, bismillah! (42, 147-148)

Şair zəfər yürüşlərinin qarşısında düşmənlərin tezliklə diz çöküb imdad diləyəcəyi inamı ilə şeirini belə tamamlayır:

Yurdumuzda bizə meydan oxuyan,
Murdar cəmdəkləri murdar qoxuyan,
Tənbur səslərini uzaqdan duyan
Düşmənimiz aman istər, bismillah! (42, 148)

Əhməd Cavad Qafqaz İslam ordusunun təkcə xilaskarlıq missiyasını öz şeirlərində alqışlayıb tərənnüm etməklə işini bitirmirdi. Buna böyük ictimai-siyasi əhəmiyyət verirdi. Şərqdə, Türk dünyasında ilk dəfə Azərbaycanda qurulan müstəqil cümhuriyyətin başqa Türk ellərində də

* эялян кими

qurulmasını istəyirdi. Çünki həmişə qardaş qardaşın arxasında duracaq, ona dayaq olacaq. Bu ümid və inam şairin başqa janrlarda yazdığı əsərlərdə də aydın göstərilirdi.

Bu araşdırmalar göstərir ki, Ə.Cavad Azərbaycan ədəbiyyatında görkəmli türkçü, istiqlal şairi kimi məşhurdur və heç bir şairimiz onun qədər Türkiyə ilə bağlı olmamışdır. Bu işdə Gəncə gimnaziyasında Türkiyəli xocalarının, İstanbulda Rza Tofiqdən dərs almış Universitet bitirmiş H.Cavid və A.Sur kimi müəllimlərinin böyük təsiri olmuşdur. Türkiyəyə olan bu maraq və sevgi Balkan və Birinci Cahan savaşı illərində türkçülük ideya məfkurəsi kimi formalaşmış, yüksək səviyyəyə çatmış, əsərlərinin leytmotivinə çevrilmişdir. 1918-1920-ci illərdəki Cümhuriyyət dönəmində, Qafqaz İslam Ordusunun Bakını düşmənlərdən azad etdiyi dövrdə türkçülük ideyası onun yaradıcılığında istiqlal mövzusu ilə qovuşuq halda əks edilmişdir. Bunu həm onun türkçülük ruhlu şeirlərində, həm də əməli fəaliyyətində müşahidə etmək olar.

Ə.Cavadın yaradıcılığında turançılıq həmişə türkçülüklə paralel şəkildədir. Onun türkçülüyü, Türkiyə mövzulu əsərləri həm öz yaradıcılığına, həm də romantik poeziyamıza bir rəngarənglik gətirmişdir. Bu işdə şairin M.A.Ərsoy, R.Tofiq, M.Ə.Yurdaqul kimi Türkiyəli istiqlal və türkçü sənətkarlardan təsirlənməsi də az əhəmiyyət daşımırdı.

Türk xalqlarının ədəbiyyatları tarix boyu qarşılıqlı şəkildə inkişaf etmişdir. Böyük M.Füzulinin Türkiyədə və Azərbaycanda eyni dərəcədə öyrənilməsi və sevilməsi buna parlaq sübutdur. Bir sıra əski ortaq abidələrimizin, eləcə də Yunus Əmrə, Namiq Kamal, Tofiq Fikrət,

Əbdülhəq Hamid, Məmməd Akif Ərsoy, Məmməd Əmin Yurdaqul və b. ədəbi şəxsiyyətlərin yaradıcılıqları Türkiyədə olduğu kimi, Azərbaycanda da maraqla qarşılanır. Eyni zamanda, Əli bəy Hüseynzadə, Əhməd bəy Ağayev, Məhəmməd Əmin Rəsulzadə, Məhəmməd Hadi, Almaz İldırım, Hüseyn Cavid, Abdulla Şaiq, Axund Yusif Talıbzadə, Cəfər Cabbarlı və bu kimi Azərbaycan xadimlərinin əsərləri Türkiyənin ədəbi-elmi ictimaiyyəti və geniş oxucu kütləsi tərəfindən oxunur, öyrənilir. Azərbaycanla Türkiyə arasındakı bu mədəni-mənəvi doğmalıq hər iki xalqın tarixi taleyinin ayrı-ayrı mərhələlərində oxşar şəkildə üzə çıxır.

XX əsrin əvvəllərində Azərbaycanla Türkiyə arasında işgüzar və qarşılıqlı ədəbi və ictimai-siyasi əlaqələrin davamı və inkişafında Əhməd Cavadın xüsusi rolu olmuşdur. Bu səbəbdən də Türkiyədə Ə.Cavad irsinə böyük maraq və diqqət o dövrdən indiyə kimi davam edir.

II FƏSİL

AZƏRBAYCAN-TÜRKİYƏ ƏDƏBİ ƏLAQƏLƏRİNDƏ ƏHMƏD CAVADIN YERİ

2.1. Ə.Cavadın türkçülük və turançılıq görüşləri

Ə.Cavad yaradıcılığında elm, maarif, vətən, istiqlal mövzuları ilə yanaşı, türkçülük, turançılıq, Türkiyəyə, türk xalqına sevgi, Balkan və Birinci Cahan savaşında Türkiyənin dərdlərinə, çəkdiyi müsibətə şəriklik məsələləri mühüm yer tutur. Əslində bu mövzular onun dünyagörüşündə və yaradıcılığında bir bütövlük təşkil edir. Çünki onun türkçülüyü və Turançılığı elə Balkan və Birinci Cahan savaşı illərində formalaşıb, əsərlərinin canına, qanına keçib, əsas ideyasına çevrilib. Qaynaqları ədəbiyyatımızda əski abidələrimizdən, Oğuznamələrdən, M.Kaşğaridən, Füzulidən, A.Bakıxanovdan, M.F.Axundovdan, H.Zərdabidən gələn, Ə.Hüseynzadə, Ə.Ağaoğlu, M.Ə.Rəsulzadə yaradıcılığında formalaşan, H.Cavid, A.Şaiq, A.Səhhət, A.Sur, Ə.Cavad, C.Cabbarlı əsərlərində tərənnüm edilən bu ideyalar hətta Ə.Şövqi, Ə.Yusif, Ümugülsüm, Ə.Abid (Gültəkin), Mürşüd Balaqardaş, Bədri Seyidzadə və başqa gənc istiqlal şairlərinin də şeirlərinə hopmuşdur.

Bütövlükdə türkçülüyün nəzəri əsasları İ.Qaspıralı, Ə.Hüseynzadə, Z.Göyalp tərəfindən müəyyənləşdirilmişdir. Mütəxəssislər türkçülüyün iki istiqamətini müəyyənləşdirmişlər: mədəni türkçülük və siyasi türkçülük. Türkçü sənətkarlar, əsasən, ədəbi-mədəni türkçülüyün tərənnümçüsü və təbliğatçısı olmuşlar. Çünki türk

xalqlarının özünü anlaması, keçmişini bilməsi, tarixini öyrənməsi, birliyə çalışması üçün ilk mərhələdə məhz buna çox ehtiyac duyulurdu.

Azərbaycan ədəbiyyatşünaslığında türkçülüyü bir problem kimi ilk dəfə sistemli tədqiqat predmetinə çevirən, bu mövzuda dissertasiya və monoqrafiya yazan f.e.d. Aybəniz Əliyeva (Kəngərli) haqlı olaraq göstərir ki, «Türkçülük – millətçilik, millətsevərlik, türk millətini yüksəltmək, türk millətinə bağlılıq deməkdir… Türkçülük – türk millətçiliyi, türk millətinin ideologiyası deməkdir və millət, dil, əxlaq, etika, estetika baxımından ortaq olan fərqlərin bütünü olduğu üçün türk milləti anlayışı dünyanın harasında yaşamasından asılı olmayaraq, əsir və hürr bütün dünya türklərini özündə birləşdirir» (60, 76). Bu prinsiplərin həyata keçirilməsi üçün fədakar, yetgin türk oğullarının birgə mübarizəsi, mücadiləsi gərək idi. Odur ki, Ə.Hüseynzadə deyirdi: «Bizə fədai lazımdır: Türk hissiyyatlı, islam etiqatlı, Avropa qiyafəli fədai». Professor Şamil Vəliyevin bu sözü də həqiqətdir ki, həmin fikir türkləşmək, islamlaşmaq, müasirləşmək şəklində düstur halına gətirilmişdir (125, 14).

Nəzərə alsaq ki, türkçülük özünün türklüyünü anlamaqla türk xalqlarının bütövlüyünə çalışmaqdır, onda Ə.Cavadın bütün fəaliyyətini və yaradıcılığını türkçülüyə xidmət kimi dəyərləndirmək olar.

Azərbaycan şairləri arasında türkçülüklə ən sıx bağlı olan, onunla yaşayan və onu əsərlərində ən sadə, səmimi dillə, məhəbbətlə tərənnüm edən Ə.Cavaddır. O, Türkiyəni və bütün türk dünyasını sevməklə qalmamış, onu müdafiə və təbliğ etmişdir. Öz türkçülük məfkurəsini Azərbaycanda, bütün Qafqazda, Balkanda və Anadoluda savaş illərində belə yaymış, onun uğrunda cəbhələrdə

olmuş, vuruşmuşdu. XX əsrin əvvəllərindən Rusiyanın Azərbaycanda Xalq Cümhuriyyətini yıxıb, vətənimizi təkrar işğal etməsini, milli, millətçi, türkçü ziyalılarımızı məhv və Sibirə sürğün etməsini, mühacirliyə məcbur etməsini, Zəngəzuru və başqa bölgələrimizi ermənilərə bağışlamasını, Qarabağda erməni qan çanağı yaratmasını, Qafqaz türklərini türkçülükdən qoparıb azərbaycanlı adlandırmasını, Moskvanın ruslaşdırma, manqurtlaşdırma, türklərə qarşı düşmənçilik siyasətini millət fədaisi şairimiz həzm edə bilmirdi.

B.Nəbiyevin bu sözləri də həqiqətdir ki, «Onun (Ə.Cavadın – A.M.) suçlanmasında əsas səbəb kimi Türkiyəyə və türkçülük ideyalarına sədaqəti, Müsavat firqəsinin üzvü olması göstərilmişdir» (158). O, hətta İsmayıl Hikmət və Xəlil Fikrət kimi türk alimlərini Azərbaycan Ədəbiyyat Cəmiyyətinə cəlb etməkdə də ittiham olunurdu. Ə.Cavad özü bunu etiraf etməyə məcbur olmuşdur. Bu barədə C.Qasımovun «Əsrin qiyamət çağı» kitabına cəlb etdiyi istintaq materiallarında oxuyuruq: «Məni Hikmət və Fikrətə yaxınlaşdıran əksinqilabi müsavatçı və pantürkist baxışlarım olmuşdur. Mən onlarla mütəmadi olaraq fikir mübadiləsi edirdim. Qeyd etməliyəm ki, onların hər ikisi bir neçə istiqamətdə böyük panturkist iş aparırdı. Mənim vasitəmlə onlar özlərinin Azərbaycan dilinin osmanlılaşması və Azərbaycan ədəbiyyatına pantürkist ideyalarının tətbiq edilməsi vəzifələrini yerinə yetirirdilər» (83, 76).

Həqiqətən, Ə.Cavadın türkçülüyünün əsas mahiyyəti Türkiyəyə, onun tarixinə, ədəbiyyat və mədəniyyətinə məhəbbət, Türkiyədəki görkəmli türkçü, istiqlalçı şairlərlə əlaqələri, onlardan təsirlənməsi, Balkan savaşı və Birinci Cahan savaşı illərində Türkiyə əsgərlərinin yanında olması, yaralılara, kimsəsizlərə, qaçqın, köçkünlərə

yardımı, bütün bunları Azərbaycan mətbuatında və ədəbi-publisistik əsərlərində qələmə alması, Qafqaz türklərini qardaş xalqın dərdinə şərik olmağa, yardım etməyə çağırmasındadır. Bir əsas səbəb də türk xalqlarının, türk dövlətlərinin birliyi, ortaq ədəbiyyat, ortaq dil, din, turançılıq ideyalarının müdafiə və təbliğidir.

Ümumiyyətlə, Ə.Hüseynzadənin mədəni türkçülük konsepsiyasını A.Səhhət, A.Şaiq və eləcə də H.Cavid, Ə.Cavad, C.Cabbarlı və gənc istiqlalçı şairlər bədii əsərlərində həyata keçiriblər. H.Cavidin Türk tarixindən alınmış əsərləri, A.Şaiqin «Ədəmi-Mərkəziyyə Musavata…», «Araz»dan «Turana», «İki mücahid», Ə.Cavadın silsilə şeirləri türkçülük ideyalarını yayan bədii örnəklərdəndir.

Ə.Cavadın türkçülük görüşlərinin qaynaqları və türkçülüyə gəlişi daha əvvəl də qeyd etdiyimiz kimi Gəncə gimnaziyasından başlamış, get-gedə qaynar həyat hadisələri, Türkiyə ilə əlaqələr nəticəsində genişlənmiş, formalaşmışdır. Bu, xüsusilə savaş illərində yaradıcılığında güclü şəkildə ifadə olunmuşdur. Şairin ilk kitabı olan «Qoşma»dakı şeirlərin çoxunda savaşda Türkiyənin üzləşdiyi fəlakətlərdən, xalqa dərin rəğbətdən bəhs edilirdi.

Yeri gəlmişkən, «Nədən yarandın?» şeiri ilə bağlı professor Vaqif Sultanlı doğru olaraq deyir: «M.Ə.Rəsulzadə «Nədən yarandın?» şeirinin 28 may istiqlal günü münasibətilə yazıldığını göstərir… Əslində şeir 1914-cü ilin 28 mayında yazılmış və şairin 1916-cı ildə çap olunmuş «Qoşma» kitabına daxil edilmişdir» (114, 170).

B.Nəbiyev Ə.Cavadın yaradıcılığında türkçülük uğrunda mücadilədən danışarkən onu üç mərhələyə bölür və hər mərhələni belə səciyyələndirir: «Birinci mərhələ Balkan savaşını əhatə edir. Bu yollarda Ə.Cavad əldə silah

İstanbulun müdafiəsində iştirak etmiş və yaralanmışdır. 1914-1917-ci illəri əhatə edən ikinci mərhələdə şair bəzi zaman aralıqları ilə Qars, Ərdahan, Ərzurum və sair Türk bölgələrində, Acarada, Dağıstanda olmuş, rusların və ermənilərin hücumlarına uğramış şəhər və kəndlərin didərginlərinə, qazilərə, şəhidlərə, cocuqlara yardım edən təşkilatlarda çalışmış, eyni zamanda bu bölgələrdən Azərbaycan qəzetlərinə ardıcıl məlumatlar göndərmişdir. 1918-1920-ci illər arasındakı üçüncü mərhələdə isə bir tərəfdən özü gördüyü işlərlə müstəqil Demokratik Azərbaycan dövlətinin qüvvətlənməsinə çalışmış, digər tərəfdən də türkçülüyü yayan əsərlər yazmağa davam etmişdir» (158).

1917-ci ildə çarizmin yıxılması ilə xalqların azadlıq mübarizəsinə qalxması Ə.Cavadı da ruhlandırmışdı. Artıq inanırdı ki, Azərbaycan istiqlala qovuşacaq. Bunun bir səbəbi də elə türkçülüyü, türk xalqlarının gələcəyinə inamı ilə bağlı idi. Odur ki, 1918-ci ildə Azərbaycan istiqlala qovuşduqdan sonra deyirdi:

Bən röyada nazlı yarın
Tellərini hörmüşdüm!
Bu sevincli zamanların
Röyasını görmüşdüm! (42, 141)

1919-cu ildə isə istiqlalın verdiyi hüzur hissi ilə yazırdı:

Ey Tanrının cənnət uman qulları,
Bən cənnəti bu dünyada bulmuşam (42, 148).

Ə.Cavadın türkçülüyündə həmişə Türkiyə-Azərbaycan əlaqələri, birliyi, bir-birinin sevincinə, dərdinə şərik olmaq qayəsi öndə idi. Sonra Türküstana üz tuturdu. Ona görə də

şairin türkçülüyündən danışanda həmişə onun Balkan və Birinci Cahan savaşı illərində Türkiyə və Azərbaycan türklərinin qardaşlığı, bu ideyaya xidmət etmək məsələsi önə keçir. Bunu Ə.Cavadın xarici müdaxiləçilərə, Türkiyəni parçalamaq, bölüşdürmək istəyən əcnəbi güclərə qarşı mübarizə çağırışlarında da görürük. Bu baxımdan şairin rus və ingilis imperialistlərinin tənqidi mövzusundakı şeirləri daha çox diqqət çəkir. «İraq», «Çırpınırdın, Qara dəniz», «Nə gördümsə», «İstanbul», «İngilis» kimi şeirlərində Azərbaycana sıxıntı və fəlakətlər gətirən, Türkiyəni qan içində boğmağa çalışan işğalçı düşmənlərin iç üzünü açır, türk xalqlarının «Qızıl alma» yurdu olan Azərbaycanı, Osmanlı Türkiyəsini mətin olmağa, düşmənləri məhv etməyə ruhlandırırdı.

Ə.Cavadın, şeirlərindən də göründüyü kimi, onun yaradıcılığında türkçülük və istiqlal ideyaları məhz bu dövrdən başlayaraq qovuşur. O, bu dönəmdə artıq «Qızıl alma»dan bəri, Şərqdən Qərbə, Anadoludan, Qafqazdan Altaya, Sibirə, Çinə – bütün türk xalqlarının taleyini düşünür, nicatı onların birliyində görürdü.

Ə.Cavad «Kuropatkinə» şeirində çarizmin süqutundan sonra imperiyanı saxlamaq üçün əyalətlərdə, xüsusilə türk ellərində fəlakətlər törədən siyasətini, rus məmurlarının özbaşınalıqlarını göstərməklə, onlara haqsızlıqların belə qalmayacağını da xatırladırdı, «…onların xalqımızın əleyhinə yeritdikləri cinayətkar genosid siyasətinin nəticələrini bir ittihamnamə kimi elan edirdi» (102, 61).

Kimdir bizim minarədə əzanları susduranlar?
«Doğru yola sapma!» deyib qanlı irin qusduranlar?
…Təkmələyib Türküstanın əyilməyən başlarını,
Kimlər çaldı babaların əski məzar daşlarını?

Hansı qanun əllərilə, hansı yasa*, hansı yazı
Söyüdlərin yerlərinə dikdi Sibir akasyası?
Heç bir tarix göstərməzkən türkün xain olduğunu,
Kimdir çalan türk ırzını**, türk elinin var-yoxunu?
(42, 145)

Şair çarizmin Kuropatkin kimi canişinlərini, sadiq qullarını belə sorğu-suallara çəkərək özü cavablandırır və çıxış yolunu hürriyyətdə görür:

Dərdə düşmüş insan oğlu yolunda,
Ey hürriyyət, dərman sənin əlində!
Asılmaya məhkum olan qardaşı
Qurtaracaq fərman sənin əlində! (42, 147)

Kuropatkini «Türküstanın cəlladı» adlandıran, ona nifrət bəsləyən şair «Gəlməzmi heç?», «Mən o günə həsrətəm» deyə hürriyyət günəşinin bütün Turan ellərində parlamasını arzulayırdı.

İstiqlalın «sevinc dadını» görən Ə.Cavad həmin ildə yazdığı «Marş» şeirində Orta Asiyaya doğru irəliləyən türk ordusunun amalını belə tərənnüm edirdi:

İsmarladım nişanlıma –
Mən Turana gediyorum.
Qardaşımı qurtarmağa
Türküstana gediyorum! (42, 210)

Gördüyümüz kimi, Ə.Cavad Orta Asiyanı sonradan meydana çıxan bölgülərlə yox, ənənəvi adı ilə Türküstan adlandırırdı. Ümumiyyətlə, o turan ellərini ölkə-ölkə

* ганун
** намусуну

sadalamağı sevmirdi.

Ə.Cavadın «İngilis» şeirində «damağında Çanaqqala ağısı» qalan ingilis işğalçılarına tənqidi münasibəti də diqqəti çəkir.

Sarıb Hindistanın cansız qolunu,
Gəldin bağlamağa Turan yolunu,
Aldadıb hər yerdə Tanrı qulunu,
İnsanları ucuz satan ingilis.

Azərbaycanda Ə.Hüseynzadə ilə başlayan turançılıq ideyasını bədii ədəbiyyatda ən çox əks etdirən və yayan şairlər H.Cavid, A.Şaiq və Ə.Cavad olmuşdur. Təsadüfi deyil ki, Abdulla Şaiq özü 1927-ci ildə («Maarif işçisi», № 3, 58) yazırdı: «Bu gün Azəri ədəbiyyatında isimləri hörmət və iftixarla zikr edilməkdə olan: Məhəmməd Hadi, Sabir, Səhhət, hətta Cavad və Cavid kimi qiymətli şairləri – Əlibəy yetişdirdi» (43, 91).

Prof. Şamil Vəliyev göstərir ki, «Turançılıq ideyasını yürüdərkən «Füyuzat»çılar hər şeydən öncə türkçülük tarixini və əxlaqi-mədəni dəyərlərini öyrənməyi, təbliğ etməyi, daha dəqiq desək, «Türklər kimdir və kimlərdən ibarətdir?» (Ə.Hüseynzadə) sualına cavab tapmağı başlıca vəzifələrdən sayırdılar» (125, 14).

Mütəxəssislər Z.Göyalpa əsaslanaraq təsdiqləyirlər ki, turançılıq – türkçülüyün son mərhələsi, hədəfidir. Burada ümumtürk birliyinin mahiyyəti də anlaşılır. Ancaq Ə.Cavadın görüşlərində bu eyni qaynaqlardan başladığı kimi, eyni şəkildə də ifadə olunur. Yəni onun yaradıcılığında türkçülüklə turançılıq ideyası həmişə birlikdə özünü göstərir, bir-birini tamamlayır. Əslində onların ədəbiyyata gəlişi tarixçəsi də eyni zamana aiddir. 1904-cü ildə Yusif Akçuranın yayınladığı Ə.Hüseyn-

zadənin «Turan» əsəri Azərbaycanda və Türkiyədə bu mövzuda, bu adda ilk şeirdir. Ondan sonra bir çox şairlər türkçülük və turançılıq ruhlu əsərlər yazmışlar.

Ə.Cavad yaradıcılığının ilk mərhələsindən türkçülük, turançılıq ruhunda şeirlər yazmağa başlamış, axıra qədər bu yolun yolçusu olmuşdur. Odur ki, Balkan və Birinci Cahan savaşları dövründən gələn turançılıq ideyası şairin Xalq Cümhuriyyəti illərindəki əsərlərindən də qırmızı xətt kimi keçir. Hələ 1914-cü ildə yazdığı «Şeirim» mənzumə-sində «Adak-adak gəzmək istər könlüm Turan ellərini» deyən şair Kəbə qədər müqəddəs saydığı Turanın o zamankı durumunu rəmzi şəkildə əlindəki sönük məşələ bənzədir və özünü bu yolun yolçusu sayırdı, «Mən bir Turan yolçusuyam, əlimdə bir sönük məşəl» deyə, bu məşəlin alovlanacağına inanırdı.

Doğrudan da, «XX əsrin ilk onilliklərində Türkiyə Osmanlı imperatorluğunun hüdudlarından kənardakı türk-lər üçün sözün həqiqi mənasında bir Məkkə Timsalında idi. Azərbaycan, tatar, başqırd, qazax, özbək, uyğur və s. xalqların, habelə avropada yaşayan türklərin nümayən-dələri yeniliyə, inkişafa, daha geniş anlamda isə türklüyə və islama xidmət üçün bu məmləkətə üz tuturdular» (86, 31-32).

Bunu da deyək ki, Ə.Cavad da Türkiyə türkçüləri kimi, Turanın mərkəzinin məhz Azərbaycan olduğu inamında idi. Odur ki, Bakını fəth edən əsgərlərə ithaf etdiyi «Türk ordusuna» şeirində deyirdi:

Ey şanlı ölkənin şanlı ordusu,
Unutma Qafqaza girdiyin günü!
Gəlirkən qovmağa Turandan rusu
Ayağını Qara dəniz öpdümü?! (42, 152)

Şair bütün Türküstana hürriyyət ziyasının Azərbaycandan yayılacağı ümidində idi. O, Orta Asiyanı, Altayı, Sibir türklərinin yaşadığı bölgələri belə Türküstan, Turan elləri adlandırır, onların da özünü anlamasını istəyirdi. Şair milli bayrağımıza həsr etdiyi bir şeirində açıqca deyirdi:

Türküstan yelləri öpüb alnını,
Söylüyor dərdini sana, bayrağım!
Üç rəngin əksini Quzğun* dənizdən
Ərmağan yollasın yara bayrağım! (42, 137-138)

Və yaxud:

… Gedərkən Turana çıxdın qarşıma,
Kölgən – Dövlət quşu, qondu başıma! (42, 138)

Ə.Cavad yeni görüşlü ədib və mühərrirlərin yaratdığı ədəbi cəmiyyətin də daimi üzvü idi (125, 146). Cəmiyyət «Qırmızı qaranlıqlar içində yaşıl işıqlar» (Ə.Hüseynzadə) kəlamı ilə bağlı elə «Yaşıl qələm» adlanırdı. Bu cəmiyyət İstanbuldakı «Türk ocağı»nın Bakıda açılan şöbəsi əsasında yaranmışdı. «Türk ocağı»nın əhəmiyyəti haqqında M.B.Məmmədzadə yazırdı: «Mən keçmişdə və gələcəkdə elə bir mədəni təşkilat zənn etmirəm ki, «Türk ocağı» qədər əhəmiyyət və qiymətə malik olsun. Parça-parça olmuş, müstəqil millətlər halinə gəlmiş türk xalqlarını dil, hüsni-ədəbiyyat və tarixcə ümumiləşdirmək, mədəni bir türk milləti yaratmaq vəzifəsini öhdəsinə alan bu cəmiyyət nə qədər ağır və mühüm bir məqsəd ilə çalışmış olur» (61, 89; 124).

Azərbaycada bütün işlər əsasən «Yaşıl qələm» ədəbi cəmiyyəti vasitəsilə həyata keçirilirdi. Burada M.Ə.Rəsul-

* Хязярдян

zadə, Ü.Hacıbəyli, S.Hüseyn, Ö.Faiq, N.Vəzirov, Ə.Haqverdiyev, H.Cavid, M.Hadi, A.Şaiq, C.Cabbarlı ilə birlikdə Ə.Cavad da yaxından iştirak edirdilər.

Ə.Cavadın türkçülük və turançılıq ideyaları, əsasən, Osmanlı ədəbiyyatından, azadlıq və türkçülük mücahidlərinin əsərlərindən qaynaqlanırdı. Xüsusilə, (Namiq Kamal (1840-1888) Tofiq Fikrət (1840-1915), Mahmud Əkrəm Rəcaizadə (1847-1914), Əbdülhəq Hamid (1851-1937), Məmməd Akif Ərsoy (1873-1936), Rza Tofiq (1867-1949), Məmməd Əmin Yurdaqul (1869-1944) kimi görkəmli şairlərin vətən, millət, milli mübarizə mövzulu şeirləri ona bir örnək olmuşdur. Bunu janr, üslub, xalq dilindən bəhrələnmə məsələlərində də duya bilirik. Düzdür, Azərbaycan şairlərindən T.Fikrətdən ən çox M.Hadi təsirlənmiş, ona şeirlər də həsr etmişdir. Ancaq əksər romantiklərimiz dil, üslub baxımından onun sənət çeşməsindən faydalanmışlar. Hətta A.Səhhət özünün 1912-ci ildə çıxan ilk şeirlər kitabını onun şərəfinə «Sınıq saz» adlandırmışdır. M.Hadi də Tofiq Fikrət kimi şeirlərində ərəb-fars tərkiblərinə çox yer verirdi. Ə.Cavad isə onun heca vəznində və sadə dildə yazılan şeirlərini özünə daha yaxın hiss edir və onun sənətkarlığından, vətən mövzulu şeirlərindən faydalanırdı. Bəzi şeirlərində mövzu yaxınlığı da var idi. Belə ki, T.Fikrətin Türkiyə-Yunanıstan savaşı sırasında yazdığı «Millət» (1908) şeirindəki «Gəl qardaşım, annən sənə möhtac, ona qoşak» kimi misralardakı Vətən, millət çağırışları Ə.Cavada tanış idi, onun bu mövzudakı silsilə şeirləri ilə səsləşirdi.

Mən ki, tufanı yoldaşım sanıram,
Bahari-ümmanı sirdaşım sanıram (144, 210)

– kimi şeirləri isə onu dil sadəliyi baxımından maraqlan-

dırırdı.

Prof. Ə.Saraçlı Ə.Cavadın Türkiyə şairlərindən təsirlənməsi məsələsindən bəhs edərkən, onun «Şükriyyənamə»sindəki bəzi sevgi şeirlərinin Osmanlı şeirini dil və üslubca yeniləşdirən görkəmli şairlərdən M.Ə.Rəcaizadə şeirləri ilə eyni ruhda, eyni ahəngdə olmasını da nəzərə çatdırır (112, 166-167).

Ə.Cavad poeziyasına Rza Tofiqin təsiri daha güclüdür. Çox güman ki, bu işdə Rza Tofiqin İstanbulda H.Cavidə dərs deməsinin və H.Cavidin də Gəncə gimnaziyasında tələbəsi Ə.Cavada Türkiyə ədəbiyyatı və sənətkarları, o sıradan R.Tofiq haqqındakı söhbətlərinin az təsiri olmamışdır. Ə.Cavad R.Tofiq kimi, heca və əruz vəznində şeirlər yazsa da, onu R.Tofiq poeziyasına bağlayan türkçülük, fikrin bədii-fəlsəfi ifadəsi, incə lirizmi və dilinin anlaşıqlı olması idi. Hər iki şairin qoşma, bayatı şeir janrlarına tez-tez müraciət etmələri də bununla bağlıdır. R.Tofiqin «Divan» qoşması ilə Ə.Cavadın «İmdad» (və ya «Heyhat») şeirinin janr, mövzu və ruh baxımından yaxınlığı göz qabağındadır.

R.Tofiqin «Divan» qoşması:

Fəlakət bağını gəzdim sərsəri,
Fəryadü-zarımı duyan qalmamış!
Aradım o şahin, yiit ərləri,
Yatdıqları yerdən nişan qalmamış!

Gülləri soldurmuş ələm yaşları,
Qaralar bürümüş yaslı başları.
Köyləri kuşatmış* məzar daşları,
Səsimə səs verən bir can qalmamış!

* кяндляри чеврялямиш

Ey Rıza, nə əcəb sevdaya düşdün?
Əsli-fəsli yox bir davaya düşdün,
Vətən uğrunda min bəlaya düşdün,
Həp məzar olmuş, vətən qalmamış! (144, 446-447).

Müqayisə üçün Ə.Cavadın «İmdad» qoşmasının üç bəndinə nəzər salaq:

Ziyafət görmədim, yaslıdır ellər,
Çoxalmış məzarlar dərdini söylər.
Talanmış şanələr, yolunmuş tellər,
Olduğunu duydum, imdada gəldim!

Tütməz** bacaları, yanmaz çıraqlar,
Qardaşı bacıdan ayırmış dağlar,
Bacılar nerdədir, buludlar ağlar,
Qardaşsız bacıya imdada gəldim!

Cəsədlərlə dolmuş qarların altı,
Aylar var ki, minməz igidlər atı,
Gəlmə, yaxar səni qərib bayatı!
Sus!.. qərib bayatı, imdada gəldim (42, 129-130).

R.Tofiqin Ə.Cavadı öz mövzusu və xalq şeirinə, xalq dilinə bağlılığı ilə cəlb edən 1917-ci ildə yazmış olduğu məşhur «Anadolu» şeirindən bir parçaya baxaq:

Rıza! Canın o ellərə qurbandır,
Sinəsində yatan atan, anandır,
Anadolu əsil əski vatandır,
Anamızın qucağıdır o ellər! (144, 453)

Prof. Ə.Saraçlı bu şeiri Ə.Cavadın «Azərbaycan,

** тцстцлянмяз

Azərbaycan» və «Dağlar» şeirləri ilə səsləşdiyini nümunələrlə əsaslandırmışdır (112, 163-164). Bizcə, Ə.Cavadın 1918-ci ildə «Gəncəyə» dediyi:

Düşmənim, inşallah, hər vaxt xar olar!
Gen dünya başına daim dar olar!
Neçə ki sən varsan, Vətən var olar!
Var olsun ellərin, Gəncəm, Gəncəm, hey!..
(42, 218)

– sözləri də Anadoluya deyilən şeir qədər gözəl və mənalıdır.

R.Tofiqin «İngilislərdən sakın», «Sorma, xocam» şeirləri ilə Ə.Cavadın «İngilis», «Əfəndim» şeirləri arasındakı bənzərliklər də diqqəti çəkir. Ə.Cavad da ürəyinə, görüşlərinə yaxın türkiyəli şairlər kimi, savaş şeirlərində ilk mərhələdə mərhəmət, yardım çağırışlarına üstünlük vermiş, ikinci mərhələdə düşməni məhv etmək fikrini təbliğ etmişdir. Ümumtürk birliyi məsələsində də onlarla bir fikirdə olmuşdur. 1937-ci ildə Yazıçıların plenumundakı çıxışında yaradıcılığında Türkiyə şairlərinin təsiri olduğunu açıqca bildirirdi: «Mənim yaradıcılığımda Rza Tofiqin şeirləri (təsiri –A.M.) vardır» (43, 200).

Ə.Cavad yaradıcılığına R.Tofiq şeirlərinin təsiri məsələsi hələ o vaxt yazılan məqalələrdə də göstərilmişdir. 1919-cu ildə «Dalğa» kitabının çıxması münasibətilə «Azərbaycan» qəzetində Ə.Həmdi buraxdırdığı «Dalğa» şairi Ə.Cavad» məqaləsində R.Tofiqin «Nəfəs» şeiri ilə Ə.Cavadın «Mən bulmuşam» şeirindən müqayisəli şəkildə bəhs edərək, hər iki şeirdə müəllif «mən»inin poetik şəkildə öz ifadəsini tapdığını əsas məziyyət kimi önə çəkirdi (43, 90).

Məmməd Akif Ərsoy (1873-1936) yaradıcılığında

Ə.Cavadı ən çox istiqlal şeirləri, bayatılar və türkçülük ideyası maraqlandırırdı. Təsadüfi deyildi ki, özü də onun kimi çoxlu bayatılar yazıb. Bu da maraqlı idi ki, adətən, şeirlərində qəliz ərəb, fars sözləri olan M.Akifin bayatıları sadə, aydın xalq dilindədir. Məsələn:

Dəniz dalğasız olmaz,
Könül sevdasız olmaz.
Yarı gözəl olanın
Başı belasız olmaz (144, 524).

Ə.Cavadın bir bayatısı isə belədir:

Bağça bar deyib ağlar,
Heyva nar deyib ağlar;
Dərya üstə bitən gül –
O da yar deyib ağlar (42, 183).

«Sönməz yurdumda ucalan al bayraq, yanan ocaq», «Kim bu cənnət vətənin uğruna olmaz fəda» deyən M.Akifin «İstiqlal marşı» (Türkiyənin dövlət himni) və «Cəng şərqisi» şeirləri ilə Ə.Cavadın «Azərbaycan» (Azərbaycanın dövlət himni) və «Marş» şeirləri isə ideya, mövzu və ruh etibarı ilə çox səsləşir. Ə.Cavad da M.Akif kimi azadlığı qorumağı ilhamla şeirə çəkirdi:

Azərbaycan, Azərbaycan!
Ey qəhrəman övladın Şanlı Vətəni!
Səndən ötrü can verməyə cümlə hazırız!
Səndən ötrü qan tökməyə cümlə qadiriz.
Üçrəngli bayrağınla məsud yaşa!.. (42, 213)

və yaxud:

Bayrağıma xain baxan

Xain gözə bən tikanım.
Vurulursam kölgəsində,
Halal olsun ona qanım! (42, 210)

Yeri gəlmişkən qeyd etməliyik ki, Ə.Cavad «Azərbaycan» şeirini 1918-ci ildəki Xalq Cümhuriyyətinin sifarişilə yazdığı kimi, M.Akif Ərsoy da «İstiqlal marşı»ını eyni səbəbdən 1922-ci ildə, Türkiyə Cümhuriyyəti qurulduğu zaman yazmışdır.

Bəzən M.Akifdə və M.Ə.Yurdaqulda döyüşə, Ə.Cavadda isə mərhəmətə çağırış daha güclüdür. Məsələn, M.Akifin:

Düşmana çeynətmə bu torpaqları,
Haydı, qılıncdan keçir alçaqları!
Leş kimi yatsın qara bayraqları!
Qəhrəman övladım, uğurlar ola (144, 538).

Eləcə də M.Ə.Yurdaqulun:

Haydı, oğlum, haydı get!
Ya qazi ol, ya şəhid!» – beytli şeiri

Ə.Cavadın:

Sən ey yatan, oyan, oyan!
Qiyamətdir, olmuş əyan!

– beytli şeirindən daha mübariz səslənir.

Ə.Cavadın ideya və mövzuca ən çox təsirləndiyi Türkiyə istiqlal şairi M.Ə.Yurdaquldur. O, özü də hələ 1919-cu ildə bildirmişdi ki, «Əmin bəyi bilməyən bir məktəbli cocuq belə yoxdur» (43, 85).

M.Ə.Yurdaqulu və Ə.Cavadı türkçülük və istiqlalçılıq bir müstəviyə gətirir. M.Ə.Yurdaqulun:

Mən bir türkəm, dinim, cinsim uludur,
Sinəm, özüm atəş ilə doludur.
İnsan olan vətəninin quludur (144, 479)

– kimi deyimləri Ə.Cavadın:

Soranlara mən bu yurdun
Anladayım nəsiyəm:
Mən çeynənən bir ölkənin
Haqq bağıran səsiyəm! (42, 138)

siqlətindədir.

Şair Türkiyə ədəbiyyatından, xüsusilə R.Tofiq və M.Ə.Yurdaqul şeirlərindən təsirlənməsini 1937-ci il idti-hamlarına cavabında da danmamış, bir qədər ehtiyatlı və qeyri-müəyyən şəkildə münasibət bildirmişdir: «Bəziləri qeyd edir ki, mən Məmməd Əmini (M.Ə.Yurdaqulu – A.M.) təqlid edirəm… Mən parçalarımı (istiqlal və türkçü ruhlu şeirləri – A.M.) yazarkən onu heç tanımamışam» (43, 200). Bu ikibaşlı ifadədən o da anlaşılır ki, onun M.Ə.Yurdaqul yaradcılığına marağı və sevgisi şairi tanıyandan xeyli əvvəldir. Yəni özündən öncə şeirləri ilə tanış olmuşdur.

Ümumiyyətlə, Ə.Cavadın dil haqqında çox maraqlı fikirləri ilə qarşılaşırıq. O əlinə qələm alandan bəzi şeirlərini Osmanlı şeir üslubunda, ərəb-fars tərkibli, bəzək-düzəkli yox, milli xalq dilində yazmağa çalışmışdır. Elə ona görə də ilk mətbu şeiri olan «Müdhiş düşüncələrim» «Şəlalə» jurnalının baş yazarı X.X.Səbribəyzadənin qəzəbinə gəlmişdi. Ancaq Ə.Cavad İ.Qaspıralının ölümünə həsr etdiyi şeirində də, sonralar da öz əməlinə,

dilinə sadiq qaldı. Bu yolda Füzuli ənənələrinə bağlı olduğunu böyük şairə həsr etdiyi şeiri də təsdiqlədi. Bu baxımdan Ə.Cavadın dili H.Cavid, A.Səhhət, bəzən A.Şaiq dilindən də seçilir. O zaman İ.Qaspıralı, Ə.Hüseynzadə, Z.Göyalp və başqaları tərəfindən başlanan ortaq dil məsələsi gündəmdə idi. Bizə belə gəlir ki, R.Tofiq, M.Ə.Yurdaqul və Ə.Cavadın dili ortaq türk dili üçün ən yaxşı örnək idi, Türkiyədə də, Azərbaycanda da daha geniş yayılmışdı. Odur ki, Ömər Seyfəddin (1884-1920) Azərbaycandakı ədəbi mühitdən bəhs edərkən deyirdi: «Ə.Cavad adlı şairin «Qoşmalar» şeir kitabı sanki İstanbulda yazılmışdır» (104). M.Ə.Rəsulzadə də Azərbaycanda ortaq türk dili məsələsindən danışarkən deyirdi: «Gərək Cavadın, gərəksə Cavidin şeirlərində kullandıqları lisan İstanbulun təkamül etməkdə bulunan ədəbi və sadə lisanıdır» (189, 32).

Ə.Cavad bu fikirdə idi ki, Osmanlı dilinin Azərbaycan ədəbiyyatına müəyyən təsiri olub. Bizcə burada o, «Füyuzat» və füyuzatçıların fəaliyyət dövründəki dillə bağlı mübahisələrə əsaslanır. «Osmanlı təsiri özü ilə bərabər pantürkizm fikri daşıyır» fikrini isə onu tənqid edənlərin dili ilə səsləndirir. Əslində o yaxşı bilirdi ki, pantürkizm elə türkçülükdür və bu həm Türkiyənin, həm də Azərbaycanın yeni görüşlü romantik sənətkarlarına o sıradan Ə.Cavadın özünə də aiddir. Əgər nəzərə alsaq ki, Ə.Cavad bu fikirləri məhşər ayağına çəkildiyi Azərbaycan Şura Yazıçılarının 30 mart 1936-cı ildəki iclasında deyib, onda burada ikibaşlı məna və rəqibləri yayındırmaq məqsədi də yox deyil. Hətta bəzən çaşqınlıq da özünü göstərir. Məsələn, şair çıxışında deyir: «Azərbaycan şivəsinin Osmanlı şivəsindən siması çox geridədir». Sonra isə oxuyuruq: «Xalq bayatısında «Qaşların qaradır, gözlərin almaz»,

«Qızıl gül xəndan oldu, dərmədim xəndan oldu», «Sən öləsən», «Başına dönüm» və s. bu təbirlər gözəldir, həm də səmimidir. Bu xüsusiyyəti Osmanlı şivəsi adama vermir» (43, 199). Düzdür, burada Ə.Cavad bir az da özünü müdafiəyə çalışıb. Ancaq əslində dil məsələsində onun açıq-aydın mövqeyi var idi. Bu barədə o hətta öz müəllimi H.Caviddən də seçilirdi. Ə.Cavad düz deyirdi ki, o zaman bir qism tələbə T.Fikrət dilinin tərəfdarı idi, «qəliz ədəbiyyatı mənimsəməyə çalışırdılar. İkinci tərəf isə türk dilinin sadələşməsi üçün qrup halında çalışırdı. Şəxsən mən Azərbaycan xüsusiyyətinin tərəfdarlığında qalmışdım. …Mən «Şəlalə»yə o zaman bir şeir yazdım. Onlar mənə yazdılar ki, sən istərsən ki, yazıların dərc olunsun, o zaman Osmanlı dilində yazmalısan» (43, 200). O isə hələ 1913-cü ildə yazdığı «Dilimiz» şeirində məhz Osmanlı ləhcəsində yazmağa çağıranları, oda «atəş», qaraya «siyah», dilə «zəban», yağmura «baran», qardaşa «bəradər» və s. deyənləri tənqid edirdi:

Gün oldu şairlər göyə çıxdılar,
Bu yazıq millətə ordan baxdılar (42, 114).

Ə.Cavad burada da öz yoluna sadiq qalır, Türkiyədə də, Azərbaycanda da ortaq anlaşıqlı dil kimi qəbul edilmiş olan sadə, doğma türkcəmizdə yazıb yaradır, Türkiyə ədəbiyyatından da R.Tofiq, M.Ə.Yurdaqul kimi onun ruhuna, əqidəsinə uyğun şairlərin yaradıcılığına daha çox maraq göstərir.

Mütəxəssislərin yekdil qənaətinə görə ədəbiyyatda türkçülük Məmməd Əmin Yurdaqulun «Türkcə şeirlər» kitabından başlayır. İnamla demək olar ki, məhz türkçülük və millilik ruhuna görə M.Ə.Yurdaqul Ə.Cavad yaradıcılığına güclü təsir göstərən birinci Türkiyə şairidir. Hətta

XX əsrin əvvəllərində Azərbaycan dərsliklərində Türkiyə şairlərindən ən çox M.Ə.Yurdaqulun əsərləri mühüm yer tuturdu. M.Ə.Rəsulzadənin bəzən ikimənalı şəkildə yozulan «Namiq Kamal Məhəmməd Hadini, Əbdülhəqq Hamid Hüseyn Cavidi, Məmməd Əmin bəy də Əhməd Cavadı oğulluğa qəbul etdilər. Azərbaycan məfkurəsi türk millətpərvərliyi məfkurəsi ilə izdivac etdi» (106, 35) fikri də məhz Ə.Cavadın M.Ə.Yurdaqul yaradıcılığından öyrənməsi anlamında, «ədəbi oğulluq» mənasında idi.

Ə.Cavad poeziya yollarının başlanğıcından M.Ə.Yurdaqul ideyalarına qovuşdu, türkçülük və millətçilik yolunun yolçusuna çevrildi. O da öz ustadları kimi, klassik ədəbiyyatdakı gül, bülbül, ay, ulduz, günəş obrazlarını poeziyanın vətən, yurd, el, oba, hürr, istiqlal simvollarına çevirdi. Odur ki, M.Ə.Yurdaqulun «Burak beni haykırayım» deyimini «Mən çeynənən bir ölkənin haqq bağıran səsiyəm!» kimi səsləndirirdi. Çünki hər iki şair vətəni, milləti, Turanı eyni müstəvidə görür, tərənnüm edir, onun yaralarını sağaltmağa çalışırdılar. M.Ə.Yurdaqulun «Əlimdəki bu üçtelli saz ilə millətimin fəlakətli həyatını söyləyim» kəlamını Ə.Cavad öz istedadlı avazı ilə «Mən bir aşiqəm ki, bu çaldığım saz dumanlı dağlara səs salacaqdır» şəklində ifadə edirdi. Hər iki şairdə türkçülük, turançılıq, açıq bir xalqçılıq və millətçilik qayəsi vardır.

M.Ə.Yurdaqul «Anadolu hicran dolu köks kimi» deyə hayqırırdısa, Ə.Cavad «Vətənin hilalsız bucaqlarının» istiqlal günəşi ilə işıqlanacağı ümidini bildirirdi.

M.Ə.Yurdaqulun əsgərin dilindən deyilən:

Tanrım şahid, duracağam sözümdə,
Millətimin sevgiləri özümdə,
Vətənimdən başqa şey yox gözümdə
Yar yatağın düşmən almaz, gedərəm! (144, 481)

– şeirinin mövzusu, ideyası, vətənsevərlik ruhu, Ə.Cavadın aşağıdakı şeirinə necə yaxındır:

İnandım ki, hər fəryadın sonu var,
Bir gün gələr, yer üzündə yaz olar!
Gələn günü düşünənlər, yazanlar
Duyduğunu bu xülyada bulmuşam! (42, 149)

M.Ə.Yurdaqulun məşhur «Ordunun dastanı» ilə Ə.Cavadın savaş mövzusundakı şeirləri arasındakı oxşarlıqlar da maraqlıdır. M.Ə.Yurdaqulun türk ordusuna müraciətlə dediyi «Sən idin ki, Şərqdə bir türk dünyası yaratdın» misrası aşağıdakı şeirində həqiqi tarixi yada salmaqla bədii təsdiqini tapır:

İlk yerləri tanıyın:
Buzlu Alplar, Qafqazlar…
Tufanlarla çağlayan
Coşqun Nillər, Arazlar…
Qaraxanlar, Oğuzlar,
Atillalar, Çingizlər,
Teymurlənglər, Yavuzlar
Kabartdıran əcdadın…

Burada Anadoludan Hindistana, Qafqazdan Sibirə, Volqaboyundan Türküstana qədərki yerlərdə yurd salmış türklərin dirçəlişi və birliyi arzusu şeirə çəkilir ki, bu da ən çox H.Cavid, A.Şaiq, Ə.Cavad poeziyasının leytmotivinə çevrilmişdi. Bütün bunlardan belə qənaətə gəlmək olar ki, Ə.Cavad yaradıcılığında türkçülük və turançılıq istiqlal ideyası qədər əsas yer tutmuşdur. O, bu ideyalara tapınmış və bütün əsərlərində onun bədii əksinə

çalışmışdır.

Yaradıcılıq yaxınlığından, ədəbi təsir məsələsindən danışanda bunun iki cəhət üzərində xüsusilə dayanılmalıdır: konkret bir əsərdən təsirlənmə və iki sənətkarın yaradıcılığında ideya, mövzu, obraz, bədii ifadə tərzi, simvollar və s. baxımdan səsləşmələr. Ə.Cavad və R.Tofiq, M.Akif Ərsoy, M.Ə.Yurdaqul yaradıcılığında bunun hər ikisini görmək olar. Əhməd Cavad şeirlərində millilik, türkçülük, azadlıq və istiqlal ideyaları Rza Tofiqin fəlsəfi, incə lirizmi, Məmməd Akif Ərsoy dilinin canlılığı, səmimiyyəti, Məmməd Əmin Yurdaqulun vətəndaşlıq ruhu və coşqusu ilə qovuşurdu.

Bu da var ki, Ə.Cavadın milli romantizmdən qaynaqlanan poeziyasına Türkiyə şairlərinin romantizm təsiri də olmuşdur. Bunu ən çox simvollardan istifadədə izləmək olar. Təsadüfi deyil ki, Azərbaycanın XX əsrin 1920-1930-cu il tənqidçiləri həmişə H.Cavid və Ə.Cavadın yaradıcılığında bu cəhəti tənqid atəşinə tutublar. 1944-cü ildə çap olunan «Müxtəsər Azərbaycan ədəbiyyatı tarixi»ndən oxuyuruq: «Bu cərəyanın bəzi nümayəndələrində isə türkçülük artıq bir təsir yox, üslub olmuşdu. Bu adamlar həm məzmun, həm şəkil cəhətdən Osmanlı ədəbiyyatının əsiri olmuşdular. Sonralar əks-inqilab cəbhəsinə keçmiş mürtəce-romantik şair Hüseyn Cavid, pantürkist, müsavatçı şair Əhməd Cavad, Səməd Mənsur, Əliabbas Müznib bu zümrəyə daxil idilər» (97, 159). Bir qəribəlik də bu idi ki, rus təsirini doğma sayan və ya buna məcbur olan, o hava ilə oynayan belə müəlliflər Türkiyə təsirini yad, kənardan gəlmə adlandırırdılar: «Bəla burasında idi ki, Osmanlı təsiri kənardan gəlmə təsir olaraq qalmadı; çox keçmədən öz məhsulunu verdi» (97, 158).

Bütövlükdə bu romantik şairləri yaxınlaşdıran əsas cəhət isə vətən, millət, istiqlal, türkçülük və turançılıq problemləri idi.

2.2. Şairin məqalələrində Azərbaycan-Türkiyə əlaqələri

Ə.Cavadın Türkiyəyə sevgisi, Türkiyə ədəbiyyatına, sənətkarlarına marağı Gəncə mühitində yazdığı məqalələrində də öz əksini tapır. Publisistik və ədəbi-tənqidi səciyyəsindən asılı olmayaraq onların hamısını türklərin intibahı, əlaqələri həmrəyliyi və vəhdəti məsələsi birləşdirir.

Bunun ilk izlərini elə 1914-cü ildə yazdığı məqaləsində görmək olar. 1914-cü il sentyabrın 11-də böyük türkçü İsmayıl bəy Qaspıralının ölümü Azərbaycan ziyalılarını da sarsıtdı. Başda axund Hüseyn Pişnamazzadə olmaqla Gəncə ziyalıları bu münasibətlə Şah Abbas məscidində «dua ayinində bulundular». Bu barədə «İqbal» qəzeti 1914-cü ilin sentyabr nömrəsindəki xəbərdə bildirirdi: «Müəllimlərdən Cavad Axunzadə aşağıdakı qısa nitqi söylədi». Sonra nitqin tam mətni verilmişdir. Ə.Cavad həm bu nitqində, həm də həmin münasibətlə yazdığı və orada oxuduğu «Qasprinski üçün» şeirində bütün türk millətinin yasa batdığını ürək ağrısı ilə diqqətə çəkir. Gənc şair onu «İslam aləminin hər bir yerində bir dahi olaraq tanınmış mənəvi böyük baba» adlandırırdı. Elə buradaca Ə.Cavad Türkiyə yazarı Həmdulla Sübhü bəydən böyük türkçünün İstanbulda necə qarşılanması haqqında eşitdiyi: «Əfəndilər, bu gün İstanbula gələn bu türk ədibi türk mühərriri deyil, bir türk kralıdır!…» fikrini xatırladaraq belə davam edir: həqiqətən o, «böyük bir türk padişahıdır!» (43, 40).

O, İ.Qaspıralının Asiyada və Avropada türk-tatarların «milli dilini, məktəbini, milli ədəbiyyatını» anlatmaq arzusunu, bütün türk ləhcələrini birləşdirmək üçün «Tərcüman» qəzeti (1883) çıxartmasını, qəzetinin «ümumi bir dili, həm də qayət açıq bir dil qəbul etməsini» ayrıca vurğulayırdı. Ə.Cavada görə, «Tərcüman»ın qəbul etdiyi «Dildə, işdə, fikirdə birlik!» şüarı «bunun üçündür ki, bu gün dünyadakı bütün türklər yavaş-yavaş bir-birini tanısınlar» Odur ki, şair İ.Qaspıralının xidmətlərini belə qiymətləndirirdi: «İsmayıl Mirza Allahın əsirgədiyi və sevdiyi millətlərə göndərmiş olduğu peyğəmbərlər qədər iş gördü» (43, 42). Əsas məğzini göstərdiyimiz bu nitqin mətni bir neçə baxımdan diqqəti çəkir. Əvvəla, bu göstərir ki, İ.Qaspralının həyatını, onun türkçülük baxışlarını dərindən bilən Ə.Cavad, həqiqətən, 1913-1914-cü illərdən türkçü idi, Türkiyə ədəbiyyatına da bələd idi. Təsadüfi deyil ki, hətta Həmdulla Sübhi bəy kimi Türkiyə ədiblərini də tanıyırdı. İkincisi, Ə.Cavad yaradıcılığının ilk illərindən türkçülük ruhunda şeirlər yazmışdı. O, şeir yaradıcılığında ən çox özündən 23 yaş böyük M.Ə.Yurdaqulu örnək almışdı. Yurdaqulun dili isə İ.Qaspıralının təbliğ etdiyi, bütün türk xalqlarının anlaya biləcəyi ortaq türkcə idi. Odur ki, İ.Qaspıralı 1899-cu ildə M.Ə.Yurdaqula yazdığı məktubunda onun «Türkcə şeirlər» kitabını çox yüksək qiymətləndirirdi (77, 154). Yəni Ə.Cavadın Yurdaqul şeirlərindən təsirlənməsi, onun dolayısı ilə, həm də «türk padişahı» İ.Qaspıralıdan təsirlənməsi demək idi. Üçüncüsü isə, buradan o da anlaşılır ki, Ə.Cavad İ.Qaspıralının şəxsi həyat və fəaliyyətindən də nümunə götürmüşdür. Yəni, Kirit adasında üsyan qalxarkən İ.Qaspıralı könüllü zabit kimi İstanbula yardıma getdiyi kimi, Ə.Cavad da Balkan və Birinci Cahan savaşı illərində Türkiyə vətəndaşlarına

köməyə getmişdi.

Bütövlükdə, Ə.Cavadın yas mərasimindəki çıxışı böyük türkçüyə gənc türkçü şairin ilk ürək sözləridir. Şair çıxışdan sonra oxuduğu «Qasprinski üçün» şeirində kədərini və arzularını daha emosional şəkildə bildirirdi:

Milli sazlar çalır matəm… müsibət…
Başdan-başa qan ağlayır bir millət!

Dağlarına çökmüş matəm havası,
Baxdım ağlar türkün bağı-bağçası (42, 125).

Ə.Cavad haqlı olaraq bu itkini tək Azərbaycan və Türkiyə üçün deyil, bütün Türk dünyası üçün böyük müsibət sayırdı.

Qafqaz İslam Ordusunun Bakını düşmənlərdən təmizləməsi, Cümhuriyyətin paytaxtının Gəncədən Bakıya köçürülməsi ədəbi mühitdə bir canlanma yaratdı. Bu mövzuda ədəbiyyatımızda ilk dəfə C.Cabbarlının, M.B.Məmmədzadənin, A.Aşurbəylinin və başqalarının pyesləri meydana gəldi, səhnədə oynanıldı, silsilə şeirlər yazıldı.

Maraqlı bir hadisə də Türkiyədən ədəbiyyat və maarif xadimlərinin, şairlərin, ziyalıların Bakıya gəlişi idi. Onlar ədəbiyyat və maarif məsələlərinin, milli məktəblərin, dərsliklərin yaranmasına və inkişafına yardım göstərir, yeni əsərləri ilə «Açıq söz», «Azərbaycan», «İstiqlal», «Bəsirət» kimi mətbuat orqanlarında çıxış edirdilər. Onlar həm də ziyalılarla, ədəbiyyat xadimləri ilə görüşlər, tədbirlər keçirir, Türkiyə-Azərbaycan münasibətləri tarixində açılan bu yeni səhifənin əhəmiyyətindən, iki xalqın tarixindən, ədəbiyyatından söhbətlər aparırdılar. Bütün bunlar yeni ədəbi mühitin yaranmasını da şərtləndirir, Ə.Abid (Gültəkin), Ümgülsüm, Əli Şövqi, Əli

Yusif, İbrahim Şakir, Bədrəddin Seyidzadə, Ə.Dai, Yaycılı Kərim və başqa gənc istiqlal şairlərinin yetişməsinə də şərait yaradırdı. Türkiyədən Azərbaycana gələn Rövşən Əşrəf (Ünaydın), A.Ü.Qaraosman və başqaları Azərbaycan mətbuatında ölkəmizin müstəqilliyini, istiqlalını tərənnüm edirdilər. «Zəfər yolunda» (M.Ə.Yurdaqul), «Gül və sevin» (A.Ü.Qaraosman), «Həsən dayi», «Lalə» (R.Əşrəf) belə əsərlərdən idi. «Bunlar yeni tipli ədəbiyyatın yaranmasına çalışan istiqlalçı Azərbaycan ziyalıları üçün həm də bir növ örnək idi» (112, 170).

O dövrdə Azərbaycan-Türkiyə ədəbi əlaqələrini, qarşılıqlı münasibətlərini öyrənmək baxımından Ə.Cavadın məqalələri də qiymətli material verir. Belə məqalələrindən biri «Rövşən Əşrəf bəy»dir.

Rövşən Əşrəf bəy Ə.Cavadı hələ Balkan, Birinci Cahan savaşı illərindən tanıyırdı. Onun məqalə və şeirlərini oxumuşdu. Onun Ə.Cavada «Dəyirman» adlı şeir də həsr etdiyi söylənilir. 1918-ci ildə, oktyabr ayının 20-də isə onlar Bakıda görüşdülər. «Yeni gün» qəzetinin yazarı, şair Rövşən Əşrəf bəyi qarşılayan aydın arasında Ə.Cavad da var idi və o bu tədbirdə nitq söyləyib, görüş haqda ayrıca məqalə də yazmışdı.

Məqalə belə başlayır: «Əsrlərdən bəri bir-birindən uzaq düşmüş bir nənənin övladları olan Osmanlı türklərilə Azəri türkləri, həmd olsun, bu gün pək uzun sürən bir ayrılığın pəncəsindən yaxayı qurtardılar» (43, 84).

İstiqlala qovuşmaqla «babalarımızın ruhunu şad etdik» deyən şair inamla bildirirdi ki, «tutacağımız bu yolda yavaş-yavaş da olsa yürüyoruz (yeriyirik – A.M.) və bu yürüşümüzlə sevgili Turana, mövcud cənnətə yaklaşdığımızı (yaxınlaşdığımızı – A.M.) hiss etdiyimiz

üçün köksümüz daha da qabarıyor» (43, 84).

Maraqlıdır ki, müəllif bu məqaləsində də, şeirlərində olduğu kimi, türkçülüyə sadiqliyini, Turana çatmaq arzusunu vurğulayırdı. Odur ki, Allaha üz tutub deyirdi: «Ey böyük Tanrı! Türklər sənin himayənə sığındılar. Lütfünü görüb, mərhəmətini təcrübə etdilər (istiqlala çatdılar – A.M.). Göndərdiyin dinin uğrunda tökülən şəhidlərimizin qanı hörmətinə olsun, bizləri məyus etmə!» (43, 84).

İstiqlalın, müstəqil Azərbaycanın qorunması uğrunda hər şeyə hazır olan Ə.Cavadın bu günümüz üçün də çox aktual səslənən «bu dövlətin yeganə hamisının Osmanlı türkləri olduğunu söyləməyə hacət (ehtiyac – A.M) yox!» fikri də Azərbaycan-Türkiyə münasibətlərinin yeni mərhələyə qədəm qoyduğunun təsdiqi kimi əhəmiyyətlidir (43, 84).

Bununla belə, gənc Ə.Cavad məqalədə bir ədəbiyyat xadimi, türk oğlu kimi özünün tənqidi fikirlərini deməkdən də çəkinmir. O, Azərbaycan-Türkiyə münasibətlərində iki istiqamətin canlandırılmasını vacib sayırdı. «İstanbulda bizim bir heyətin bulunduğu kimi, onların da bizdə siyasi nümayəndələri yox deyildir», söyləyən müəllif haqlı olaraq əlaqələrin gərəyincə olmadığını nəzərə çatdırır və yazırdı: «Biz zənn etdik ki, ordunun arxasınca Osmanlının İstanbulu, İstanbul gəncliyi qafilələr və dəstələr ilə Türkiyəyi bizə, bizi də Türkiyəyə bir an əvvəl tanıtmaq üçün şitab edəcək. Osmanlı qəzetə mühərrirləri yurdumuzu hörümçək ağı (toru – A.M.) kimi sarıb Azəri türkünün, Qafqaz müsəlmanının səmimi səlamlarını Osmanlı əfkari-ümumiyyəsinə bildirəcək, arasıra ictimai, elmi ehtiyaclarımızdan bəhs etməklə, onların təmini yolunda bizə mənəvi bir yardımda bulunacaqdır» (43, 85). Ancaq müəllif belə olmadığından, «bu gün nə

Osmanlı türkünün Qafqazı, nə də Qafqaz türkünün Osmanlını həqiqi mənası ilə tanımadı»ğından qayğılanırdı. Daha acınacaqlı vəziyyəti isə «biz Osmanlıları tanıdığımız kimi, onların bizləri tanımadıqları»nda, «bu uğurda bir təşəbbüsdə bulunmadıqları»nda görürdü. Bunun üçün bəzi dəlillər də göstərirdi. Fəxrlə deyirdi ki, Azərbaycanda «Altun dastan»ı, Nədimi, Nəfisini, Əmin bəyi (Məmməd Əmin Yurdaqul – A.M.), vətənpərvər Kəmalı (Namiq Kamal – A.M.) hamı bildiyi halda Osmanlı gəncləri «kəndilərini bizə tanıtmaq üçün çox ağır davranırlar» (43, 85).

İstanbulda bu məsələlər ətrafında müzakirələr getdiyinə işarə edən Ə.Cavad yenicə nəşrə başlayan «Yeni gün» qəzetinin bu sahədəki işlərini təqdir edirdi. Bildirirdi ki, İstanbul Rövşən Əşrəf bəyin şəxsində öz «mühərrirləri arasında ən istedadlı birisini seçib bizə göndərdi. O, yuxarıda adlarını yazdığımız Rövşən Əşrəf bəydir. Rövşən bəy bir mühərrir olduğu kimi gənc türk ədəbiyyatının da əhatəli bir ədibidir». Şair həmkar dostunun Bakıya gəlişinin məqsədini belə ifadə edirdi ki, Rövşən Əşrəf bəy «Yeni gün» qəzetində Azərbaycan ədəbiyyatını işıqlandırmaq üçün bütün Azərbaycanı və Şimali Qafqazı gəzəcək, öyrənəcək. Çünki «Rövşən Əşrəf öyrəndiyi milləti ürəkdən sevir». Məqalənin sonunda müəllif «birinci türk mühərriri olaraq müstəqil Azərbaycana təşrifindən dolayı ürəkdən «xoş gəldin!» deyir və ona Türkiyədə Azərbaycanı tanıtmaq işində uğurlar diləyirdi (43, 86).

Ə.Cavad bir zamanlar Azərbaycan türkləri ilə Osmanlı türkləri arasındakı bu mənəvi-mədəni uzaqlaşmanın tarixi səbəblərindən danışarkən göstərir ki, Qafqaz İslam Ordusunun gəlişi iki qardaş xalq arasındakı bütün siyasi sədləri

vurub yıxdı. Bundan sonra qarşımızda duran əsas vəzifə yaranmış vəziyyətdən istifadə edib, ədəbi mədəni əlaqələrimizin canlanmasına çalışmaqdan ibarətdir. Rövşən Əşrəf bəyin Azərbaycana gəlişini və burada gördüyü işləri arzuladığı istiqamətdə atılan ən vacib addımlardan biri hesab edir, bildirir ki, bu cür səfərlər Azərbaycanla Türkiyə arasında qarşılıqlı və davamlı olsa, bundan hər iki tərəf ancaq qazanar. Bunu da qeyd edir ki, Rövşən Əşrəf bəy Azərbaycan haqqında bir kitab yazıb. Rövşən Əşrəfin «səlis qələminin ifadəsi» bulunan yeni kitabını oxuyan Ə.Cavad «böylə gözəl bir qələmə, saf bir ürəyə malik olan» məsləkdaşının başladığı xeyirli işi alqışlayırdı.

Əhməd Cavad Azərbaycanla Türkiyə arasındakı mədəni əlaqələrin inkişaf etdirilməsi məsələsini qaldırmaqla kifayətlənməmiş, bu sahədə yorulmadan çalışmış və Rövşən Əşrəfə Azərbaycan haqqında başqa kitab yazmaq üçün material toplamaqda da yaxından kömək etmiş, hətta onun kitabını əlyazması şəklində oxuyub yüksək qiymətləndirmişdir.

Araşdırmalardan məlum olur ki, Ə.Cavad öz qələm dostu Rövşən Əşrəf bəylə yaradıcılıq əməkdaşlığını bununla bitirməmişdir. O, Rövşən Əşrəf bəyin şəxsində Türkiyə ədəbiyyatının təbliği üçün hər cür imkandan maksimum yararlanmağa çalışmışdır.

Azərbaycan ziyalılarının Rövşən Əşrəf bəyin şərəfinə verdikləri ziyafətdə Ə.Cavadın çıxışı da öz məna dərinliyi, Türkiyəyə, türk xalqına, onun ədəbiyyatına sevgi, maraq baxımından diqqəti çəkir ki, bu da təbiidir. Bu məclisdə iştirakından görünür ki, artıq o, ədəbi mühitdə görkəmli türkçü, milli şair, Türkiyənin böyük romantik sənətkarları ilə bağlı olan R.Əşrəf bəylə yaxın dostluq əlaqələri saxlayan bir şair kimi tanınırdı. Təsadüfi deyildi ki, F.Köçərli,

N.Vəzirov, Maarif Nazirinin müavini Həmid bəy Şahtaxtlı, İsabəy Aşurbəyli, Türkiyəli zabit Asem bəy və başqa tanınmış adamlarla birlikdə böyük bir ziyafətdə çıxış etmişdi. Ziyafət və burada Ə.Cavad ilə R.Əşrəf bəyin çıxışları haqqında «Azərbaycan» qəzeti geniş məlumat da vermişdi (12; 24, 136-137; 43, 84-86).

«Ü.» imzasının dövlət orqanı olan «Azərbaycan» qəzetinin baş redaktoru Ü.Hacıbəyli olduğunu ehtimal etdiyimiz «Rövşən Əşrəf bəy şərəfinə ziyafət» adlı bir məqalədə oxuyuruq: «Bir-iki sənə (il – A.M.) əvvəl xəyalımıza belə gələ bilməyən və yuxumuza girməyən, yay klubunun böyük zalında keçirilən bu ziyafətdə Ə.Cavadın çıxışı maraqla qarşılanmışdır. Şair «Türkün ürfan ordusu» gələcəyini və möhtərəm Əşrəf əfəndinin o ordunun ilk müqəddəmə elçisi mənzələsi olduğunu iftixarla nəzərə çatdırır (12).

Bu tədbirdə Rövşən Əşrəf bəyin sözündən o da aydın olur ki, Ə.Cavadın Azərbaycan-Türkiyə ədəbi-mədəni əlaqələrinin möhkəmləndirilməsi uğrunda çalışmaq haqqındakı çağırışı cavabsız qalmamışdır. Məqalədə Rövşən Əşrəf bəyin qələm dostu Ə.Cavada verdiyi cavab haqqında oxuyuruq: «Ədib əfəndi (Rövşən Əşrəf – A.M.) vədə verdi ki, İstanbula övdət edib də Azərbaycan türkləri haqqında var qüvvəsi ilə çalışacaqdır. Ədəbiyyatımızdan, əxlaq və adətimizdən, arzu və amalımızdan bəhslə biz türkləri İstanbula tanıtdıracaqdır və İstanbul ilə Azərbaycan arasında hər bir rabitə təşkilinə bütün səy və qüvvələrini sərf edəcəkdir» (12).

Azərbaycan-Türkiyə münasibətlərinin inkişaf etdirilməsində Əhməd Cavadın xidmətləri həmin günlərdə keçirilən başqa bir görüşdə də xüsusi olaraq xatırlanmışdır. Bu tədbir haqqında «Azərbaycan» qəzetində

«M.Hənəfi» imzası və «Türk ədəbiyyati-lisanı və Türk cərəyani-əfkarı (Rövşən Əşrəf və Rövşən bəylərin konfransı)» başlıqlı məqalə çap edilmişdir (13). Həmin məqaləni ərəb əlifbasından transliterasiya edərək, yenidən çap etdirən Alxan Bayramoğlu ona «Bizi xoşbəxtliyə götürəcək yolun Azərbaycandan keçəcəyini bilirdik» başlıqlı məqalə-təqdimat da yazmışdır. Məqalədə konfransda gedən söhbətlər haqqında oxuyuruq: «…Bu konfransda Rövşən Əşrəf bəy Türkiyədə tarixi dövrlər və ədəbi cərəyanlar, bu hərəkatlarda öncül rol oynayan tarixi və ədəbi şəxsiyyətlər haqqında bəhs etməklə Azəri türklərinin Türkiyə haqqında təsəvvürlərini bir qədər də genişləndirməyə çalışmışdır… Rövşən Əşrəf bəy Osmanlı türklərinin özlərinin Azəri qardaşlarına bəslədikləri məhəbbət və doğmalıq duyğularını, həm də şair dostu Əhməd Cavadın yuxarıda adını xatırladığımız məqaləsinə («Rövşən Əşrəf bəy» – A.M.) cavab verərək belə ifadə edirdi: «Biz orada, İstanbulda buraları çox sevdik, çox özlədik. Bizi xoşbəxtliyə götürəcək yolun Azərbaycandan keçəcəyini bilirdik. Buraya qoşmaq həpimizin arzusuydu, arzusudur… Sizə can atan bir çox Osmanlı ziyalıları arasında sizə əvvəl qovuşmaq şərəfini, xoşbəxtliyini Allah mənə nəsib etdi. Onun üçün mən iki dəfə bəxtiyaram». R.Əşrəf burada məşhur yazıçı Xalidə xanımın bir Azərbaycan türkünə dediyi «Sizin gözəl məmləkətinizdə bir bahar keçirmək, o qardaş ölkəni görmək, orada çalışmaq mənim çox istədiyim şeydir» sözlərini xatırladır və bildirirdi ki, «Osmanlı türklərinin məndən çox yüksək, çox elmli, çox dəyərli mühərrirləri» də «sizi görməyə gələcəklər» (13; 23, 86-87).

M.Hənəfinin məqaləsindən Rövşən Əşrəfin bu konfransda Ə.Cavadın onun haqqında yazdığı «Rövşən Əşrəf

bəy» məqaləsinə və həmin məclisdəki çıxışında qaldırdığı məsələlər cavabını da öyrənirik: «…Möhtərəm şair Cavad bəy bu gün qəzetədə deyirdi ki, Osmanlı fikir ordusu Azərbaycana qoşmaqda gecikdi. Biz onların əsərlərini əzbərlədik, can öylərimizə soxduq, onlar bizi aramıyorlar. Əziz məsləkdaşım gəncliyə məxsus bir atəşlə, bir həyəcanla, bir acələ ilə (tələsik – A.M.) söz söylədi. Fəqət buna haqqı vardı. Çünki çox sevən, çox özləyən, çox bəkləyən bir kişi (adam – A.M.) tələsər. Xüsusilə, gənc bir şair olasan» (23, 88).

Rövşən Əşrəfin bu sözləri Ə.Cavada sevgi və məhəbbətlə doludur. Eyni zamanda o, burada Əhməd Cavadın Türkiyəyə və türkiyəli qardaşlarımıza olan məhəbbətini də çox yerində və düzgün muşahidə etmişdir. Doğrudan da, Ə.Cavad gənc bir Azərbaycan şairi olaraq, Türkiyəyə gəncliyə məxsus odlu bir sevgi ilə bağlanmışdı.

2.3. Əbdülhəq Hamidin «Duxtəri-Hindu» pyesi Ə.Cavadın çevirməsində

Ə.Cavadın Türkiyə ilə yaradıcılıq əlaqələrini əyani şəkildə göstərən bir məsələ də onun bu ədəbiyyatdan çevirmələridir.

Ə.Cavadın tərcüməçilik fəaliyyətini tədqiqatçılar yüksək qiymətləndirmiş, onun «orijinalın ruhuna, mayasına, məna incəliklərinə sədaqət» (102, 117) məharətini önə çəkmişlər. Ş.Rustavelinin «Pələng dərisi geymiş pəhləvan», V.Şekspirin «Otello», «Romeo və Cülyetta», Turgenevin «Atalar və oğullar» və s. əsərlərin tərcüməsində də bu özəlliklər özünü göstərir.

Ə.Cavadın tərcümə etdiyi «Pələng dərisi geymiş pəhləvan» poeması 1978-ci ildə nəşr edilmişdir. Kitaba

geniş ön söz yazan görkəmli tərcüməçi – mütəxəssis Dilarə Əliyeva Ə.Cavadın tərcüməçilik məharəti haqqında yazırdı: «Əsəri orijinalla tutuşdurduqdan sonra bizə aydın oldu ki, öz işinə belə məsuliyyətlə yanaşdığından Ə.Cavad tam mənası ilə orijinala yaxın, onun ruhunu verə bilən, Ş.Rustaveli dühasına layiq bir bədii tərcümə yaratmışdır. Təsadüfi deyildir ki, hələ 1936-37-ci illərdə gürcü rustavelişünasları həmin tərcüməyə yüksək qiymət vermiş və mütərcimin məharətini xüsusi qeyd etmişlər» (119, 13).

Ə.Cavadın Türkiyə ədəbiyyatından da çevirmələri vardır. Ə.Cavadın «Pələng dərisi geymiş pəhləvan» poemasının tərcüməsi haqqında deyilən fikirləri «Hind qızı» pyesinə də şamil etmək olar. İndiyədək tədqiqatdan kənarda qalan «Hind qızı» (1928) adı ilə təqdim edilmiş bu əsər məşhur türk ədibi Əbdülhəq Hamid Tarhanın (1851-1937) «Duxtəri-Hindu» pyesinin bir növ sərbəst çevirməsidir.

F.e.d. Nazif Ələkbərli Ə.Cavadın tərcüməçilik fəaliyyətindən bəhs edərkən, onun Ə.Hamidin «Hind qızı» pyesini də tərcümə və təbdil edib, səhnə üçün hazırlaması, «Gənc işçi» qəzetinin 17 dekabr və 24 dekabr saylarında «Hind qızı» haqqında resenziyaların çıxması barədə məlumat verir (55, 36).

«Duxtəri-Hindu» pyesini haqlı olaraq «Hamid irsinin Azərbaycanla əlaqəsinin əsas mərhələsi» (87, 95) hesab edən A.B.Qurbanov pyesin Məhəmməd Bağır Əliyev tərəfindən də böyük bir ixtisarla tərcümə edildiyini yazmışdır. Bu məlumatın izi ilə gedərək M.B.Əliyevin əlyazmasını əldə etdik. Əlyazmanın tamamlanma tarixi 01.02.1920 göstərilsə də tarixində yazılsa da, 1930-cu ildə qeydiyyatdan keçib (134). Nizami Muzeyində bununla bərabər «Duxtəri-Hindu»nun başqa bir çevirmə

variantını da aşkarladıq. Bu çevirmə Mirzə Məhəmməd Axundova aiddir (135). 108 vərəqdən ibarət bu əlyazmanın səhifələrində Sidqi Ruhullanın şəxsi möhürü də var. 1929-cu il aid olan bu çevirmə də, görünür, səhnəyə qoyulmaq üçün təqdim olunmuşdur. Lakin ilk dəfə 1929-cu il, dekabrın 17-də Azərbaycan Dövlət Akademik Bədaye Teatrında (1929-cu ilədək Azərbaycan Dövlət Dram Teatrı adlanırdı) tamaşaya qoyulan variant Ə.Cavadın «Hind qızı» adı ilə təqdim etdiyi çevirmədir. Tamaşanın gözlənildiyindən daha artıq uğur qazandığını göstərən tənqid bunun «əsas səbəbini əsərin ideya, məzmununda və qüvvətli aktyor ifasında görürdü» (78, 271).

Obrazları səhnədə Kazım Ziya, Ağasadıq Gəraybəyli, Fatma Qədri, Ələsgər Ələkbərov kimi böyük aktyorlar canlandırmışlar. Tamaşanın uğurlu alınmasının bir səbəbi də Ə.Cavadın çevirməçilik məharəti, həcmcə böyük olan bu pyesə yaradıcı şəkildə yanaşması, onu səhnəyə uyğunlaşdırmasıdır.

Bu da maraqldır ki, Türkiyə dramaturqlarının əsərlərinin Azərbaycan teatrının repertuarından çıxarıldığı bir dönəmdə – «1929-cu ildə Azərbaycan Bədaye Teatrı Əbdülhəq Hamidin Əhməd Cavad tərəfindən tərcümə edilmiş «Hind qızı» pyesini …tamaşaçılara göstərmişdir» (78, 290). Bu o zaman üçün böyük hadisə idi. Bizcə, İngiltərənin bir müstəmləkəçi dövlət kimi ifşasının sovet ideologiyasına uyğun olduğu üçün tamaşanın oynanılmasına icazə verilmişdi. Bunu da qeyd edək ki, İşçi teatrının ifasında «Hind qızı» 1930-cu ilin iyun ayında Tiflis şəhərində də göstərilmişdir (87, 98).

Əziz Şərif öz xatirələrində yazırdı ki, H.Cavid məni «türk yazıçıları, onların ən qiymətli əsərləri ilə tanış

edirdi… H.Cavidin təhrikilə İstanbuldan sifariş edib aldığım kitabların içində …Əbdülhəq Hamidin «Duxtəri-Hindu», «Nəstərən», «Təzər» və s. əsərləri də var idi» (64, 75). Bu da təsdiq edir ki, «Duxtəri-Hindu» o illərdə Azərbaycan ziyalıları tərəfindən də rəğbətlə qarşılanmışdır.

Əbdülhəq Hamid bu pyesi yazdığı zaman tənəzzül etməkdə olan Osmanlı dövləti Qərb ölkələrindən asılı vəziyyətə düşmüşdü. Odur ki, X.Kamilov da Ə.Hamidin bu mövzuya müraciətini Türkiyədə hələ o dərəcədə hiss olunmayan xarici istismarçı qüvvələrə etiraz kimi dəyərləndirir (204, 99). «Duxtəri-Hindu» bu baxımdan Türkiyə mühiti üçün çox aktual idi, «İstər Hamid yaradıcılığında, istərsə də türk ədəbiyyatında, eləcə də Şərq ədəbiyyatında əhəmiyyətli yer» (87, 95) tuturdu. Burada bütün xalqların azadlıq və müstəqillik uğrundakı mübarizələri hind xalqının mübarizəsi fonunda əks etdirilirdi. Pyes tanınmış müqayisəli ədəbiyyat tədqiqatçısı İnci Enginün yazdığı kimi, Hamidin «öz mühitində söyləyə bilmədiyi, dönəminin bütün fikirlərini içinə alan bir əsərdir» (136, 8). Bir şeyi də qeyd edək ki, əsərin əsas qəhrəmanlarından olan Tomson İngiltərənin öz müstəmləkəsi Hindistana göndərdiyi bir ingilis zabitidir. Və bu da faktdır ki, 1918-ci ildə türk qoşunlarını sıxışdırıb çıxartmaq və Bakını zəbt etmək üçün İngiltərənin Bakıya göndərdiyi qoşunun komandanı da Tomson idi. Odur ki, Ə.Cavadın çevirmə üçün bu əsəri seçməsi təsadüfi deyildi. Azərbaycanın sovetlər tərəfindən işğalıyla barışa bilməyən Ə.Cavad yaşadığı dövrdə açıq söyləyə bilmədiyi fikirlərini «Hind qızı» pyesində çatdırmağa çalışmışdır.

Əhməd Cavadın Nizami adına Ədəbiyyat Muzeyində saxlanılan 71 səhifəlik əlyazmasında da pyesin adı «Hind

qızı»dır (133). Şairin seçilmiş əsərlərinin II cildində isə əsərin adı «Hind gözəli» kimi verilib (43, 104-146). Əsər elə «Hind gözəli» adı ilə də tamaşaya qoyulub və uğur qazanıb. Ümumiyyətlə, bu nəşrlə şairin əlyazması arasında ciddi fərqlər var ki, bunların ən önəmlisi pyesin finalı ilə bağlıdır. Bunu da qeyd edək ki, pyes o vaxt Türkiyədə tamaşaya qoyularkən final dəyişdirilir, orijinaldan fərqli olaraq Tomson öldürülür. Əslində hadisələrin təbii inkişafi bunu tələb edirdi və ictimaiyyət də bu sonluğu bəyənmişdi. Görünür, Ə.Cavad da bu səbəbdən pyesin finalını teatr üçün dəyişdirmişdir və «belə bir variant orijinala nisbətən sənətkarlıq baxımından daha kamil, ictimai mənasına görə isə daha dolğun» (87, 98) idi.

Təəssüf ki, pyesin nəşr edilmiş variantında çap və ya transliterasiya xətasından irəli gələn təhriflərə də rast gəlinir. Məsələn, ömründə maşın görməyən Surucu Sürücü qız kimi, Rayçaran Rayçalan, Bədryapum Sədryapum, Gotalva köyü* isə Butlava kəndi kimi verilib.

Ə.Hamid «Duxtəri-Hindu» əsərini lirik şeir parçaları ilə süsləmişdir. Ə.Cavad da «Hind qızı»nda orijinalın lirik ovqatını və ruhunu imkan daxilində saxlamışdır. Məsələn, Hamidin:

Tulü-mihr ilə berqi gül üzre vakti seher,
Nasıl olursa yübuset-peziri jale - iter.
Görünce talatını, sevdigim, benim de haman,
Olur yüzümde duran aşk daneleri süzan (136, 38).

Şeir parçası Ə.Cavadın əlyazmasında belə verilir: «Səhər vaxtı günəş çıxarkən gül yanağı üzərində bullunan islaq şehləri necə quruyursa, sənin parlaq üzünü görüncə gözüm-

* кянди

dəki yaş danələri də elə quruyur» (133, 2). Nəşr variantında isə bu daha sadə və poetik şəkildə verilib:

Səhər vaxtı günəş çıxıb gül üzünə.
Məhəbbətin gül çiləyib gül üzünə! (43, 105)

Və yaxud:

…Bu ahı dem-be-demimde benim de, ey dilber,
Senin cemalin eder kesbi adu tab-ı diger (136, 38-39).

Bu beyti Ə.Cavad belə çatdırıb:

Bu ah… dəmadəmizdə məni də ay dilbər,
Sənin cəmalın edir, binəş ilə bərabər (43, 105).

Ə.Cavad əsərin ideya və məzmununu saxlayaraq özünəməxsus yaradıcı bir yolla getmiş, azadlıq və müstəqillik ideyasını qabarıq vermək üçün müəyyən ixtisarlar da aparmışdır. Məsələn, Ə.Hamidin «Duxtəri-Hindu»sunun III məclisindəki Surucu ilə Toromtorun (Rayçaran) söhbəti «Hind gözəli»ndə verilmir. Burada Torromtorun insanlara obyektiv münasibəti çatdırılır: «…Mən bir adamın zatını təcrübə etdiyim zaman din və məzhəbini aramağı iltizam etməm. Əxlaqını, fəzailini öyrənməyi məzam edərəm. Düzdür, Tomson mənim mənfurumdur, fəqət xristian olduğundan deyil, insan olmadığından mənfurumdur» (136, 54). Həqiqətən, Tomson müsbət keyfiyyətli insan olsaydı belə, yenə də öz dövlətinin işğalçı siyasətini həyata keçirdiyi, Bortel kimi qaniçən, qəddar bir adama xidmət etdiyi üçün ədalətli ola bilməzdi. Odur ki, Raycaran Torromtor hüququ, mənliyi tapdalanmış, azadlığı əlindən alınmış bir xalqın qeyrətli nümayəndəsi kimi istismarçı dövlətə, onun işğalçılıq siyasətini həyata keçirən əlaltılarına qarşı mübarizə aparır-

dı. Ə.Cavad məsələyə məhz bu prizmadan yanaşaraq, əsas diqqəti istismar və müstəmləkəçilik məsələsinə yönəltmişdir.

Şair əsərə özünəməxsus incəliklə yanaşaraq onu mümkün qədər Azərbaycan həyatına, oxucuların zövqünə uyğunlaşdırmışdır. Elizabet obrazının təsvirində bunu bir daha görürük. Məsələn, orijinalda Elizabet Tomsona deyir: «Sənin önündə, sənin yanında, bəlkə sənin ayağının altında ölməyi səndən ayrı olaraq min sənə yaşamağa tərcih edərəm» (136, 95). Elizabet Tomsondan ayrı min il yaşamaqdansa, onun yanında ölməyi seçdiyini söyləyir. Ə.Cavadda isə bu, belə verilir: «Sənin qarşında, sənin yanında, bəlkə də sənin ayağının altında ölməyi ərimə arzulayıram» (43, 125). Bortel nə qədər mənfur adam olsa da, Elizabetin ondan bu şəkildə danışması bir qadın kimi onu kiçildir. Burada da Ə.Cavad Elizabetin eşq macərasından uzağa getməyən məhəbbətilə diqqəti yayındırmayıb, əsas problemi önə çəkmişdir. Bortel olduğu kimi azğınlığı, zalımlığı və despotluğu ilə, Surucu isə bütün səmimiyyəti, mənəvi-əxlaqi saflığı ilə yadda qalır.

Ə.Hamidin «Duxtəri-Hindu» pyesi haqqında o zaman müxtəlif fikirlər söylənilmişdi. Bəzi Türkiyə ədəbiyyatşünasları Hamidin bəhs etdiyi mövzuya yetərincə bələd olmadığını bildirmiş, obrazların təsvirlərini cansız, yetərsiz hesab etmiş, əsərin dilinin ağır olduğunu göstərmişlər. Hətta onu müdafiə edən Namiq Kamal da müəllifə bildirmişdi ki, «Duxtəri-Hindu»dan «mənə tərcümə et də anlat» (136, 11). Ə.Hamid əsərə son söz yerinə yazdığı «Hatəmə»də (136, 150-153), eləcə də məktub və xatirələrində bunları ciddi qəbul etmirdi. Əsərin və onun tamaşasının rəğbətlə qarşılanması da göstərdi ki,

«Duxtəri-Hindu» yüksək sənət örnəyidir.

Ə.Hamid sonrakı türk şeirindəki yenilikçi hərəkatın başında duranlardan olmuşdur. Pyesindəki «Tanaqqum» şeirini müasirləri türk ədəbiyyatında Avropa tərzində yazılmış ilk şeir kimi də dəyərləndirmişlər. «Duxtəri-Hindu»nun əhəmiyyətindən danışan tənqidçilər onu «lətif, incə parçalarla, …çox yüksək, gözəl və düşündürücü fikirlərlə dolu» əsər (185, 7), müstəmləkəçilik əleyhinə, insanların istismarına qarşı yazılmış «ilk səda və ilk nümayiş» (185, 7) adlandırmışlar. Bütün bunlar Ə.Cavadın «Hind qızı»nda özünü göstərir. Namiq Kamalın söylədiyi kimi, «Duxtəri-Hindu» oynanmaq üçün yazılmamışdır. Əsasən teatr deyil – Avropadakı pək (xeyli – A.M.) böyük şairin bir çox əsəri kimi teatr şəklində yazılmış bir hekayədir» (136, 11). Məhz bu üzdən Ə.Cavad pyesin səhnədə oynana bilməsi üçün bütün imkanlardan istifadə etmiş, onu yığcamlaşdırmış, ustalıqla sadələşdirmiş və Azərbaycan səhnələrində uğurla oynanılmasına nail olmuşdur.

Beləliklə, Ə.Cavadın «Duxtəri-Hindu» kimi bir əsərə müraciət etməsi onun yaradıcılığının yeni imkanlarından xəbər verirdi. Belə böyük və mükəmməl əsərin sərbəst, yaradıcı şəkildə, bir növ iqtibas kimi işlənib tamaşaya qoyulması Ə.Cavadın bu sahədəki istedadı ilə də bağlıdır. Əsərin Azərbaycan oxucusuna, tamaşaçılarına uğurla çatdırılması həm də o dövr üçün bir hadisə idi.

III FƏSİL

Ə.CAVADIN TÜRKİYƏDƏ TƏDQİQİ VƏ TƏBLİĞİ MƏSƏLƏLƏRİ

3.1. Ə.Cavad Türkiyə mətbuatında və ədəbi fikrində

Ə.Cavadın yaradıcılığına maraq Türkiyədə keçən əsrin ilk onilliklərindən başlamışdır. Bu haqda ilk bilgilərə 1916-cı ildən rast gəlirik. Şairin 1916-cı ildə nəşr olunmuş «Qoşma» kitabı Türkiyəyə də çatmışdı. Onu görkəmli türkoloq, şair, «Türkçülüyün əsasları» əsərinin müəllifi Ziya Göyalp da oxumuş, şairin kitabından «İraq» şeirini 1918-ci ildə «Yeni məcmuə» dərgisində çap etdirmişdir. Şeirdən əvvəl Z.Göyalp bu sözləri yazırdı: «Ruslarla döyüşdüyümüz əsnada Qafqaziyada intişar edən bir şeir məcmuəsi əlimizə keçdi. «Qoşma» ismində olan bu kitabın nazimi Əhməd Cavad ismində bir türkdür. Bu millətpərvər şairin bütün şeirləri Osmanlı türklərinə, ana vətənə, orduya xitab edilmişdir. Müharibənin müxtəlif səhifələrinə təəllüq edən (həsr edilən – A.M.) bəzi parçanı birər-birər məcmuəmizdə dərc edəcəyik» (60, 233).

Ziya Göyalp Ə.Cavadın «İraq» şeirini öz məcmuəsində təsadüfən çap etməmişdir. Bizcə, burada onu cəlb edən əsas cəhət Ə.Cavadın həmin şeirinin əsas mövzusunun türk birliyi olmasıdır. Əhməd Cavad İraqdakı soydaşlarımızın, oradakı qan qardaşlarımızın həsrətini çəkir, onlardan uzaq düşməyimizdən kədərlənir. Arzu edir ki, onları düşünüb, hər an andığımız kimi, İraqdakı qan qardaşlarımız da bizi ansınlar. Bununla aramızda mənəvi körpü yaranar və biz birləşə bilərik. Məlumdur ki, Ziya

Göyalp da türk birliyi, türkçülüyün intişar tapmasını öz əsərlərində təbliğ edirdi. Bunun nəticəsi olaraq o, Ə.Cavadın «Qoşma» kitabını bəyənmiş və həmin kitabdakı şeirlərdə türk ruhunun hakim olduğunu xüsusi qeyd etmişdir.

Burada diqqəti çəkən bir məsələ də «Yeni məcmuə»nin Bakıda savaş zərərdidələrinə yardım məqsədilə 1917-ci ildə çap olunan «Qardaş köməyi» kitabı haqqında məlumat və həmin kitabdan Ə.Cavadın «Yazıq» şeirini verməsidir («Yeni məcmuə», II c., İstanbul, 2 mayıs (1918), səh.337-338). Bu bir daha onu təsdiqləyir ki, Z.Göyalp Ə.Cavadın «Qoşma» kitabındakı savaş mövzulu şeirlərini birər-birər oxuculara çatdıracağı vədinə əməl edirdi.

Belə maraq Türkiyədə və Azərbaycanda qarşılıqlı şəkildə idi. Ə.Cavad da Z.Göyalpa ustad kimi baxır, 1918-ci ildə onun «Qızıl alma» şeiri haqqında deyirdi: «Gənclər oradakı milli ədəbiyyat cərəyanına – «Qızıl alma»ya dörd gözlə baxaraq, millətə doğru atılan hər addımı ürəkdən alqışlayırdılar». Şair Z.Göyalpın «Altun dastan» əsərini də belə yüksək dəyərləndirirdi (11).

Qafqaz İslam Ordusu ilə Bakıya gələn şair, jurnalist Rövşən Əşrəf bəy 1918-ci ilin oktyabrında onun şərəfinə verilən konfransdakı çıxışında Ə.Cavadı «möhtərəm şair», «əziz məsləkdaş» adlandırır, onun Türkiyə-Azərbaycan əlaqələrinin inkişafı haqqındakı təkliflərini «gəncliyə məxsus atəşlə», həyəcanla deyilən sözlər hesab edirdi. Bunun davamı kimi öz arzularını da çatdırırdı: «Çox təmənna edirəm ki, Bakı da ikinci İstanbul olsun! Zənginlikdə Asiya qitəsinə bir tac olan Bakı istiqlaliyyəti və fikri ilə də hakim, yeni bir türk mərkəzi olsun!» (13).

1928-ci ildə Ə.Cavadın silsilə şeirlərinin İstanbulda

«İstiqlal uğrunda» toplusunda çap olunması şairin həyatında, ədəbi yaradıcılığında böyük uğur olmaqla bərabər, həm də gələcək taleyinə ciddi zərbə vurmuşdur.

«İstiqlal uğrunda» məcmuəsi kimi hallanan toplu Azərbaycan mühacirlərinin «Milli Azərbaycan» nəşriyyatı» silsiləsindən hazırlayıb, 1928-ci ildə İstanbulun «Orxaniyyə» mətbəəsində buraxdırdıqları səkkizinci kitabdır.* Buradakı bədii örnəklər istiqlal mövzulu əsərlərdir və əksəriyyəti M.Ə.Rəsulzadənin nəşr etdirdiyi «Yeni Qafqasiya» dərgisindən alınmışdır. Buradan aydın olur ki, Ə.Cavadın «İstiqlal uğrunda» kitabından əvvəl M.Ə.Rəsulzadənin «Yeni Qafqasiya» məcmuəsində də «İnqilab nəğmələri» adı ilə şeirləri çıxıbmış.

Kamal bəyin ön sözü və tərtibi ilə çıxan «İstiqlal uğrunda» məcmuəsində müəlliflər haqqında bilgi yoxdur. Şeirlər isə mövzulara görə sıralanıb. Burada Ə.Cavadın səkkiz şeiri vardır.** Həmin şeirlər bunlardır: «Bir gün», «Al bayrağa», «Göy göl», «Sən ağlama», «Bismillah», «Qalx», «Türkün səsi» və «Bir gül əkdim». Bunu da deyək ki, Ə.Abidin (Gültəkinin) «Ağla, gözəl gəlin» şeiri məcmuədə yanlışlıqla Ə.Cavadın adına getmişdir. Ə.Cavadın «Türkün səsi» şeirinin epiqrafına yazdığı «Gültəkin bəyə» sözləri isə onu şair dostu Ə.Abidə ithaf etdiyini göstərir. Bu, həm də Ə.Abidin «Türkün dərdi» şeirinə cavab kimi də səslənir.

«İstiqlal uğrunda» dərgisində Ə.Cavadın şeirlərinin

---

* Бу барядя бах: Эцлтякин-Ямин Абид. Бузлу ъящянням. Бакы, «Эцняш» няшрииййаты, 1999, с.9. Тяртибчи вя юн сюз мцяллифи Яли Шамил.

** Бу китабдан Я.Ъавадын щямин шеирляринин Истанбул китабханасындан сурятини чыхарыб бизя эятирдийи цчцн танынмыш зийалымыз Яли Шамил бяйя тяшяккцр едирик.

çıxması xəbəri Bakıya Ə.Nazimin 1929-cu ildə Moskvada çıxan «Mətbuat və inqilab» («Peçat i Revolyusiya») toplusundakı məqaləsindən sonra çatdı və bütün bolşevik əqidəli tənqidçilər şairə qarşı hücuma qalxdı. Ə.Cavad buna elə o zaman «Kommunist» qəzetində «Şiddətli protesto edirəm» yazısı ilə cavab versə də (37), ona qarşı hücum, böhtan və hədə-qorxu ara vermirdi.

Ə.Cavadın istedadını və şöhrətini gözü götürməyən, özləri fərqində olmasalar da, əslində onun lirikasından təsirlənən gənc kommunist şairlər fürsətdən ləyaqətsizcə istifadə etməyə başladılar. İş o yerə çatmışdı ki, «Hətta istedadca, dünyagörüşcə Ə.Cavaddan çox aşağı olan bir şair də ona həcv yazmışdı. Şeir başdan-ayağa ifşa və ziyalıya yaraşmayan ifadələrlə dolu idi.

Şeirinə ağuş açıb Türkiyə Əhməd Cavadın,
Bicliyi oldu əyan cümləyə Əhməd Cavadın

– beyti ilə başlayan bu qəzəbli satqınlar məqsədlərini də gizlətmirdilər. Açıqca «Yeridir, sürgünə, ya salalar türməyə Əhməd Cavadı» deyirdilər» (112, 126).

Ə.Cavad elə həmin il «meşə çaqqallara qaldı» ibarəsini xatırladan bir həcvlə əziz müəllimi H.Cavidi də qoruyaraq belə cavab verir:

Deyir uçurursan «bizim dövləti»,
Bu böyük binanı, bu səltənəti.
Dolayıb əlinə bütün milləti
Xalqına yun corab hörənlərə bax!

Arpasın bölməməz iki ulağın,
Qapı dalındadır uzun qulağı.
Daldada gizlənib, danos yazmağı,
Üzdə sinəsinə vuranlara bax!

Sağdan da, soldan da yüksəlir səslər,
Doğma qardaşına nifrətlər bəslər.
Cavidi, Cavadı sevməyən kəslər, –
Onların yerində duranlara bax! (42, 272-273)

Azərbaycan və Osmanlı türkləri arasındakı doğmalıq və yaxınlığı 1920-ci ildə «Türkiyənin tanınmış yazıçısı, milli novella və hekayənin banisi, istedadlı sənətkar Ömər Seyfəddin (1884-1920)… ölümündən bir qədər əvvəl yazdığı və «Türk dünyası» jurnalında nəşr etdirdiyi «Azərbaycanın istiqlaliyyəti münasibətilə» başlıqlı məqaləsində» elmi şəkildə əsaslandırmışdır (104). Türk ədəbiyyatının tanınmış tədqiqatçılarından olan filologiya elmləri doktoru Aydın Abıyev həmin məqaləni yenidən «Azərbaycan» qəzetinin 28 may 1991-ci il tarixli sayında nəşr etdirmişdir.

Ömər Seyfəddin məqaləsində Azərbaycan və osmanlı türkləri arasındakı mənəvi, tarixi, dil, din və s. sahələrdə özünü aydın şəkildə göstərən ortaqlıqlardan ətraflı söhbət açır. Ömər Seyfəddinin istinad etdiyi mötəbər faktlardan biri də Əhməd Cavadın məşhur «Qoşma» adlı şeirlər kitabıdır. O, iki qardaş türk xalqı arasındakı dil doğmalığından bəhs edərək yazır: «…Azərbaycan millətpərvərləri «millət»in mənasını da tam avropalılar kimi anlamışdılar. Yəni «dili bir, dini bir» olan cəmiyyətə millət deyirlər. Aralarında İstanbulun köhnə divan dilini təqlid edənlər də vardır. Fəqət gənclər danışılan dili özlərinə nümunə götürmüşlər. Ə.Cavad adlı şairin «Qoşmalar» şeir kitabı sanki İstanbulda yazılmışdır. Şeirlərin vəzni millidir. Halbuki beş-on il bundan öncə azəri qardaşlarımız da bizim kimi fars əruzunu işlədirdilər» (104).

Burada Ə.Cavadın «Qoşma» kitabının adının çəkilməsinə və onun yüksək qiymətləndirilməsinə təsadüf kimi

baxmaq olmaz. Çünki 1920-ci ildə o, Türkiyədə kifayət qədər tanınırdı. Buna səbəb olan əsas cəhətlərdən biri də şairin şeirlərinin mövzusu, «ideya istiqaməti və vəzni» idi. Təsadüfi deyil ki, müəllif məqaləsində əsas diqqəti Əhməd Cavadın şeirlərinin «fars əruzunun» sərhədlərindən kənara çıxdığını, onların «vəzninin milli» olduğunu ayrıca vurğulayırdı. Doğrudan da, Ə.Cavadın şeirləri, həmçinin «Qoşma» kitabında toplanan əsərləri vətən sevgisi, istiqlal, türkçülük və azadlıq duyğusu ilə yazılmışdı. Ömər Seyfəddini Ə.Cavad şeirlərinin həm vəzn və üslub, həm də məzmun və ideya baxımından milli ovqatlı olması daha çox cəlb etdiyi üçün o, Türkiyə ədəbiyyatında da bu istiqamətli ədəbiyyata nəzər salmağı lazım bilirdi. Bu münasibətlə müəllif məqalədə deyirdi: «Bizdəki milli ədəbiyyat hərəkatı oralara qədər əks etdi. Əmin bəyin (Məmməd Əmin Yurdaqul nəzərdə tutulur – A.M.), Yusif Ziyanın, Ziya Göyalpın mənzum əsərlərini oxudular. İstanbulun milli ədəbiyyat cərəyanını təqlid eləməyə başladılar.

Azərbaycanlı qardaşlar sənəti, ədəbiyyatı bizdən sox sevirlər; ədiblərə, sənətçilərə də bizdən daha çox hörmət eləyirlər. Bunun səbəbi isə bəllidir. Orada ədib, yaxud şair özünü millətdən ayrı saymaz. Millətinin dilini bizimkilər kimi xor, həqir görərək, elmi, əldə olunmuş süni bir kitab dili tərənnüm etməz. Buradakı gənc nümayəndələri belə bir ədib, bir hekayənəvisdir» (104).

Burada müəllif XIX əsrin II yarısında Türkiyədə aparıcı rol oynayan tənzimat hərəkatını önə çəkir və həmin hərəkatın təsirinin Azərbaycana da gəlib çıxdığını göstərirdi. Ömər Seyfəddin Azərbaycanda İstanbul milli ədəbiyyat cərəyanının təqlid edildiyini yazarkən, İstanbul milli ədəbiyyat cərəyanının nümayəndələrinin təcrübələrindən faydalanıldığını, yararlanıldığını nəzərdə tuturdu.

Görkəmli Azərbaycan ədibi, alimi və pedaqoqu Abdulla Şaiq bu barədə yazırdı: «Qərb müstəmləkəçilərinin yürütdüyü siyasət nəticəsində Türkiyənin ictimai və iqtisadi vəziyyəti gündən-günə zəifləməyə başlamışdı. Türkiyə cəmiyyəti özünü Qərb istismarçılarının əzici pəncəsindən qurtarmaq üçün… tədbirlər düşünürdü. O zamankı ictimai və iqtisadi həyat islamlaşmaq, milliləşmək və müasirləşmək kimi yeni fikirləri ortaya atdı. Ədəbiyyat da bu üç cərəyanı təbliğ etməyə başladı. İslamlaşmaq cərəyanının başında «Sıratül-müstəqim» məcmuəsinin naşiri Məhəmməd Akif, milliləşmək cərəyanının başında Məmməd Əmin, müasirləşmək cərəyanının başında «Sərvəti-fünun» məcmuəsinin naşiri Tofiq Fikrət dururdu» (3, 276). Buradan o da anlaşılır ki, milli azadlıq hərəkatı Azərbaycanda Türkiyədən xeyli gec başlamış olsa da, ictimai fikirdə milli istiqlal ideyaları və milli kimlik məsələləri XIX əsrin 80-ci illərindən üzə çıxır.

M.Ə.Rəsulzadə, Ə.Hüseynzadə, Ə.Ağayev kimi Azərbaycan ədib və ictimai xadimləri Türkiyədə tənzimat hərəkatından başlanan yeniliklərə xüsusi diqqət yetirir, öz əsərləri və əməli köməkləri ilə türkiyəli qardaşları ilə bərabər hərəkət etməyə çalışırdılar. M.Hadi, Ə.Hüseynzadə, Ə.Ağayev, M.Ə.Rəsulzadə, M.B.Məmmədzadə və başqalarının həyat və ictimai-ədəbi fəaliyyətlərinin müəyyən dövrünün Türkiyə ilə bağlılığı da buna parlaq misaldır.

Azərbaycanın ictimai və ədəbi, publisistik xadimləri Rusiya və Türkiyədə baş verən sosial-siyasi hadisələrdə fəal iştirak etməklə öz xalqlarının və vətənlərinin də tezliklə azadlığa çıxacağına ümid bəsləyirdilər. Ona görə də Azərbaycanda başlanan bu hərəkat tezliklə öz bəhrəsini

verdi. Azərbaycan Xalq Cümhuriyyəti quruldu. Ömər Seyfəddin Azərbaycandakı bu coşğunluğa və əldə edilən uğurlara yüksək qiymət verərək yazırdı: «Azərbaycanlılar kiçik bir istiqlal ili içində bizim əsrlərdən bəri eləyə bilmədiyimiz şeyləri eləmişlər. Məmləkətin hər tərəfini məktəblə doldurdular. Türk dilini rəsmi dil kimi qəbul etdilər… Türk sənətkarları üçün artıq bu gün İstanbul kimi, hətta İstanbuldan daha sərbəst bir vətən açdılar… Ona görə də Azərbaycanın istiqlaliyyəti sanki bütün Turanın istiqlaliyyəti deməkdir.

Bəli, Xəzər dənizinin o biri tərəfindəki qardaşlarımıza Avropa mədəniyyətini bizdən əvvəl mütləq onlar aparacaqlar» (104).

Burada osmanlı türkü olan görkəmli sənətkarın Azərbaycan türklərinin bütün türk dünyasında hamıdan fəal, zirək və azad düşüncəli olduğunu diqqətə çatdırıb ona yüksək qiymət verməsi insanda qürur hissi yaradır. Söz yox ki, bu uğurların əldə edilməsində bizim qədim tarixi köklərə əsaslanan milli mədəniyyətimiz, milli potensial gücümüz və mənəvi-əxlaqi dəyərlərimiz yüksək rol oynamışdır. Bununla yanaşı, Azərbaycan ədibləri rusiyalı və türkiyəli həmkarlarının təcrübələrindən də yararlanırdılar. Azərbaycan MEA-nın müxbir üzvü, görkəmli ədəbiyyatşünas alim Əziz Mirəhmədov bu cəhəti nəzərdə tutaraq yazırdı: «Bizim XIX-XX əsrlərdəki ədəbi və ictimai fikrimiz Türkiyədəki tənzimat və məşrutiyyət hərəkatları ilə, yeni mədəniyyət və ədəbiyyat uğrunda mübarizə ilə qarşılıqlı əlaqədə inkişaf etmişdir… Məhz buna görə də ziyalılarımızın Türkiyə ilə qarşılıqlı əlaqələrini yaddan çıxarsaq, gəldiyimiz nəticələr kəsirli olar» (95, 279).

1990-cı illərdən etibarən Ə.Cavad Türkiyədə də daha

çox anılmağa, nəşr edilməyə başladı. Zeynəlabidin Makasın hazırladığı «Çağdaş Azərbaycan şeiri Antologiyası»nda Ə.Cavad haqqında məlumat və onun 7 şeiri yer almaqdadır (159, 36-43).

Çoxcildli müfəssəl «Türkiyə dışındakı Türk ədəbiyyatları antologiyası»nın 1993-cü ildə nəşr edilmiş, Azərbaycan ədəbiyyatına həsr edilmiş IV cildində Ə.Cavada geniş yer verilmişdir. Prof. Vilayət Muxtaroğlunun şairin həyat və yaradıcılığı haqqında hazırladığı məlumatın ardınca şairin tam 20 şeiri verilmişdir (150, 332-339).

Alp Təkinin «Türk böyükləri» silsiləsindən yazdığı «Əhməd Cavad» məqaləsində isə öncə şairin həyat və yaradıcılığına qısa nəzər salınır və onun «Çırpınırdın, Qara dəniz» şeirindən bəhs edilir. Burada oxuyuruq: «Şair (Ə.Cavad – A.M.) gənc yaşlarından etibarən dönəminin aktiv şəxsiyyətləri arasında yer almış, yaşadığı illərdə baş verən siyasi və ictimai olaylarda iştirak etmiş, bu olayları əks etdirən şeirlər yazmış, qısa həyatında dəyərli əsərlər vermiş, dəyərli bir kişidir» (148). Ə.Cavaddan «Türk böyükləri» silsiləsində ayrıca bəhs edilməsi, şairin türk dünyasındakı özünəməxsus yerini göstərir.

Qeyd etməliyik ki, bu məqalədə «Çırpınırdın, Qara dəniz» və «Mən kiməm» şeirlərinin 1916-cı ildə çapdan çıxan «Qoşma» kitabında yer aldığı göstərilir. Lakin bildiyimiz kimi, bu şeirlər şairin 1919-cu ildə nəşr edilən «Dalğa» kitabındadır. Ümumiyyətlə götürdükdə isə, bu məqalənin internet səhifələrində yer alması ədəbiyyatımızın və mədəniyyətimizin tanıdılması, Əhməd Cavad irsinin Türkiyədə və dünyada yayılmasının göstəricisi kimi bizim üçün böyük əhəmiyyətə malikdir. Bunun digər önəmli cəhəti Azərbaycan-Türkiyə ədəbi, elmi, siyasi və

mədəni əlaqələrinin kifayət qədər zənginliyini də göstərir. Eyni zamanda bu münasibətlərin möhkəmlənib, daha da inkişaf etməsində Ə.Cavad və onun poeziyasının rolunun danılmazlığı da şairə diqqəti artıran səbəblərdəndir.

Araşdırmalar göstərir ki, Əhməd Cavada və onun yaradıcılığına Türkiyənin internet səhifələrində geniş yer verilir (ətraflı bax: Afina Məmmədli. Azərbaycan-Türkiyə İnternet səhifələrində. «Ədəbiyyat qəzeti», 15 iyul 2005). Yuxarıda bu informasiyaların bir neçəsi haqqında məlumat vermişik. Həmin informasiyalar Türkiyənin təkcə ədəbi ictimaiyyətinin deyil, siyasi dairələrinin də Ə.Cavad şəxsiyyətinə və yaradıcılığına böyük maraqlarının olmasını özündə əks etdirməsi ilə maraq doğurur. Məsələn, Türkiyə internet səhifələrində 2005-ci il mayın 4-5-də Bakıda səfərdə olan Türkiyə Böyük Millət Məclisinin nümayəndə heyətinin milli şairimiz Əhməd Cavadın doğum günü münasibətilə verdiyi ziyafət geniş işıqlandırılmışdı. Bu ziyafət haqqında «Zaman» qəzeti də 8 may tarixli sayında məlumat vermişdir. Məqalə müəllifi Edip Ali Yavuz Türkiyənin o zaman Bakıdakı səfirinin həmin ziyafətə dəvət edilməsinə baxmayaraq, iştirak etmədiyini də təəssüflə qeyd etmişdir. Bu ziyafətdə nümayəndə heyətinin Ə.Cavadın «Çırpınırdın, Qara dəniz» şeirini xorla oxuması da alqışlanır (162).

Türkiyənin ən böyük xəbər portalı, internet xəbər qəzeti olan «Haber Türk» isə 10 may 2005-ci il tarixli məlumatında həmin ziyafət haqqında romantik xarakterli belə bir məlumat vermişdir: «…Türkiyə parlament heyəti azərilərə maraqlı bir sürpriz yapdı. Əhməd Cavadın yaş günü resepsionuna (ziyafətinə – A.M.) qatılan səlahiyyətli şəxslər xorla – sözləri milli şairə aid olan «Çırpınırdın, Qara dəniz» şərqisini söylədi… Əvvəlcə bir az çaşqınlıq

içində qalan azərilər şərqinin sonunda millət vəkillərini uzun müddət ayaq üstündə alqışladılar. Xor qrupundakı bəzi parlament üzvləri bu mənzərə qarşısında göz yaşlarını tuta bilmədilər» (160). Ə.Cavadın doğum günü münasibətilə verilən ziyafəti «Bakı səfərinin ən önəmli qolu» hesab edən «Haber Türk» buraya Azərbaycanın səlahiyyətli şəxslərinin və siyasi partiya liderlərinin, eləcə də xarici ölkə səfirlərinin də qatıldığını yazır (160).

İnternetin bu tipli informasiyaları Azərbaycan-Türkiyə ədəbi-mədəni və siyasi əlaqələrini, eləcə də Ə.Cavad irsinin Türkiyədə məşhurluğunu qabarıq şəkildə göstərir. Bütövlükdə isə Ə.Cavad yaradıcılığının Türkiyədə müxtəlif peşə və sənət sahələrində diqqət və maraq mərkəzində olmasını, onun əsərlərinin yayınlandığını, haqqında müəyyən araşdırmalar aparıldığını görürük.

Türkiyə qəzet və jurnallarında Əhməd Cavadın şeirləri daha çox onun haqqında yazılan məqalə və məlumatlarla birlikdə verilir. 1990-cı ildə Ənvər Araz «Azərbaycan türkləri» adlı aylıq məcmuənin 4-cü sayında dərc etdirdiyi «M.Müşfiq və şeirlərindən bəzi örnəklər» başlıqlı məqaləsində Ə.Cavadla M.Müşfiqi müqayisə edərək yazırdı: «Bütün varlığını türklüyə adamış (həsr etmiş – A.M.) olan azərbaycanlı şair Əhməd Cavadın «Göy göl» adlı şeiri böyük hücumlara məruz qaldığı kimi, Mikayıl Müşfiq də eyni adı daşıyan şeirindən dolayı tənqid və hücumlardan qurtulammadı» (164, 30).

Müasir dünyanın ən mühüm informasiya qaynaqlarından biri olan internetin əhəmiyyəti getdikcə böyüməkdədir. Biz internetdə tamamilə yeni və daha əhəmiyyətli olan başqa bir materialla da qarşılaşdıq. Mustafa Kamal Atatürkün şəxsi kitablarının siyahısı arasında Əhməd Cavadın Atatürkə imzalı hədiyyəsi olan «Dalğa» kitabının

adına da rast gəldik. Qovluqda belə yazılmışdır: «A.Cevat. «Koşma», 1335 (1919). Açıq söz matbaası». Maraqlıdır ki, orada açıqlamaların Əhməd Cəfəroğluna aid olması haqda qeyd də var (www.turkbilim.com).

1920-ci ildə, Xalq Cümhuriyyəti devrildikdən sonra Türkiyəyə mühacirət edib, 1929-cu ildən 1973-cü ilə qədər İstanbul Universitetinin Ədəbiyyat fakültəsində elmi-pedaqoji fəaliyyət göstərən Əhməd Cəfəroğlu «Avropa və Amerikanın nüfuzlu türkoloji mərkəzlərində böyük ehtiram sahibi olmuşdur. O, Türkiyə türkologiyasının qurucularından biri sayılır» (82, 3).

Atatürkə imzalı kitab haqqındakı məlumatın belə mötəbər alimin adından açıqlanması bizi bu informasiyanın etibarlılığına inandırdı.

Bunu da deyək ki, 1919-cu ildə «Açıq söz» mətbəəsində Ə.Cavadın çap edilən kitabının adı «Qoşma» yox, «Dalğa»dır. Ancaq elektron saytda Ə.Cavad kitablarının adının və ya nəşr illərinin qarışdırılması bizim üçün həmin informasiyanın dəyərini azaltmır. Həm də, görünür, Əhməd Cavadın «Qoşma» kitabı Türkiyədə daha çox məşhurlaşdığından səhifənin müəllifi «Dalğa» yerinə səhv olaraq «Qoşma» yazmışdır. Əhməd Cavadın şəxsi kitabını avtoqrafla Atatürkə bağışlaması və onun bu böyük dövlət adamının şəxsi kitabxanasında yer alması çox şeydən xəbər verir. Bu fakt belə bir ehtimalı söyləməyə əsas verir ki, Əhməd Cavad M.K.Atatürklə Balkan savaşında şəxsən görüşmüş də ola bilər.

Ümumiyyətlə, Ə.Cavadın həyat və yaradıcılığı Türkiyədə hər zaman olduğu kimi, elə indi də ədəbi mühitlə bərabər, ictimai-siyasi dairələrdə də yüksək qiymətləndirilir. 2000-ci ildə Azərbaycanda keçirilən «Dədə Qorqud-1300» yubileyində Türkiyə prezidenti Süleyman

Dəmirəlin çıxışında (193), 2005-ci ildə Krımda keçirilən «VI Uluslararası şeir şöləni»ndə (178), Çeşmədə keçirilən «IV Uluslararası Türk dili qurultayı»nda (194) və bu kimi ümumtürk mədəniyyəti ilə bağlı tədbirlərdə Əhməd Cavadın adı sevgi və sayğıyla anılır. 2006-cı ildə Türkiyə Böyük Millət Məclisində Ə.Cavadla bağlı dinlənən geniş məruzə isə onun Türkiyədəki nüfuzunun dövlət səviyyəsində təsdiqidir (196).

Türkiyə Böyük Millət Məclisində Türkiyə və Türk kültürünə xidmət edənlərin unudulmaması ilə bağlı çıxış edən Afyon – Kapahisar millət vəkili Mahmud Koçak öz məruzəsini Əhməd Cavada həsr etmişdir. Ə.Cavaddan «əsərləriylə, həyat mücadiləsiylə böyük kültürümüzə, özgürlük (azadlıq – A.M.) sevdamıza həyatı bahasına pay vermiş, Azərbaycanın böyük istiqlal şairi» kimi bəhs edən M.Koçak çox haqlı olaraq deyir: «Hamımızın evində, qəlbində, dilində «Çırpınırdı Qara dəniz» türküsü vardır. Söyləndi, ağlandı, dinləndi; yazanı heç xatırlanmadı. Siyasi münaqişələrə mövzu oldu; yazanın hansı ruh halında, hansı məkanda və hansı ölkədə yazdığı heç xatırlanmadı» (196, 5).

Ə.Cavadın həyat və yaradıcılığı ilə ümumtürk mədəniyyətinə göstərdiyi xidmətləri dönə-dönə vurğulayan M.Koçak Türkiyə dövlətinin bunları rəsmi şəkildə qiymətləndirməsi üçün Turizm və Mədəniyyət Nazirliyi, eləcə də Xarici İşlər Nazirliyinə bu kimi təkliflər irəli sürür: «Qara dənizdə, Trabzonda, Sarpda, Ərdahanda bir «Çırpınırdı Qara dəniz» parkı və abidəsi qurulmalı və əsəri əbədiləşdirmək üçün orijinalına uyğun klip və film çəkilişi həyata keçirilməlidir. Azərbaycan, Gürcüstan və Türkiyədə Əhməd Cavadı anma simpoziumları ilə bölgədə sülh və qardaşlıq gücləndirilməlidir». (196, 7).

Biz bu təkliflərə ürəkdən qatılır, Ə.Cavadın xatirəsinin Batumda da əbədiləşdirilməsinin vacibliyini vurğulamaq istəyirik. M.Koçakın söylədiyi kimi, «…Dünyanın harasında olursa olsun, bayrağımıza, vətənimizə, kültürümüzə xidmət etmiş və edən hər kəsə qarşı vəzifələrimiz olduğunu unutmamalıyıq; millət olmanın gərəyi budur, böyük dövlət olmanın da gərəyi budur. …Məna iqlimimizi təşkil edən bu şəxsiyyətlərə hansı mükafatı versək yetərsizdir; amma verilməlidir, mütləq bir dövlət nişanı ilə mükafatlandırılmalıdır» (196, 7).

Ə.Cavadın Türkiyədəki tədqiqatçılarından Sərvət Gürcan bu şeirdən danışarkən fəxrlə deyir: «Ə.Cavadın «Çırpınırdın, Qara dəniz» adlı şeiri 75 ildir ki, milli bir şərqi olaraq nəsillərin könlünü titrətdi: milyonlarla türkün dilində əzbər oldu» (192, 8). Təkcə Türkiyə ədəbi mühitində deyil, ümumiyyətlə, Türkiyədə Ə.Cavadın «Çırpınırdın, Qara dəniz» şeiri daha çox tanınır və sevilir. Maraqlıdır ki, Türkiyədə Ə.Cavad haqqında nəşr edilən kitabların ikisinin də adı «Çırpınırdın, Qara dəniz» şeirinin misralarından götürülmüşdür: (1. S.Gürcan. «Çırpınırdı Qara dəniz». 1990; 2. İ.M.Yıldırım. «Salam Türkün bayrağına», 1992).

«Çırpınırdın, Qara dəniz» şeirinin Türkiyədə bu qədər məşhurluğunun əsas səbəblərindən biri də onun «mehtər marşları» adı ilə tanınan milli marşlar içərisində xüsusi yer tutmasıdır. «Mehtər marşları» Osmanlı dövlətinin hərbi musiqi qrupu olan «Mehtər takımı» tərəfindən döyüşçülərin əhval-ruhiyyəsini yüksəltmək məqsədilə xorla, əzəmətli bir şəkildə ifa olunurdu. Musiqisi dahi bəstəkarımız Ü.Hacıbəyliyə aid olan «Çırpınırdın, Qara dəniz» şərqisinin bu marşlar içərisində yer alması köksümüzü qabardır. Yeri gəlmişkən, bu şərqi hazırda Türkiyədəki

Milliyyətçi Hərəkat Partiyasının rəsmi marşıdır.

Tədqiqatçı alim Alp Tekindən oxuyuruq: «Çırpınırdın, Qara dəniz» şeirini, ya da marşını bilməyənimiz demək olar ki, yoxdur, amma yazarının bir azərbaycanlı şair olduğunu bilməyənimiz çoxdur…

… «Çırpınırdın, Qara dəniz» şeirindəki bütün misralar türkə məxsusdur. Türklüyün öyülüb, digər millətlərin kiçildilməsindən əsla bəhs edilmir. Şeirdə öz millətini sevmə duyğusu ilə bərabər digər millətlərə də duyulan hüdudsuz sayğı vardır… Bu şeirdə öyülən də, sevilən də türk bayrağıdır. Bu bayrağa qurban edilən də bizim ellərdir. Ü.Hacıbəylinin bəstəsi ilə dəyəri bir qat daha artan bu şeir bütün Türk dünyasının marşı olmaq ödülünə (mükafatına – A.M.) də layiqdir» (148). Biz də bu gözəl şeirin dillər əzbəri olub, günümüzə qədər məşhurluğunu qoruyub saxlamasının, könülləri fəth etməsinin bir səbəbini də Üzeyir Hacıbəylinin «sehirli çubuğu»nda görürük.

Məqalədə müəllifin məqsədi bir tərəfdən «Çırpınırdın, Qara dəniz» şeirinin müəllifinin kimliyini, onun məhz azərbaycanlı bir şair olmasını bildirilmək, başqa bir tərəfdənsə Ə.Cavadın hələ gənc yaşlarından fəal ictimai xadimlərlə çiyin-çiyinə fəaliyyət göstərərək, dövrünün mühüm tarixi, siyasi və ictimai hadisələrinə dair gözəl şeirlər həsr etməsinə diqqət yönəltməkdir. Müəllif şeirin yazıldığı dövr, onun mövzusu və şairin riskli bir addım atmasından bəhs edərək sözünü belə tamamlayır: «Şeir 1914-cü ilin sonlarında Gəncədə yazılıb. Bu dönəm Osmanlı dövlətinin son illəridir. Belə bir dönüş dönəmində türkün bayrağını tərənnüm etməkdən daha cəsur və mənalı nə ola bilər?» (148).

Türkiyə qaynaqları göstərir ki, «Çırpınırdın, Qara

dəniz» şeiri tək bu ölkədə yox, ümumiyyətlə, türk dünyası üçün ən uyğun, gözəl bir marş səviyyəsindədir. Bu şeir haqqında ayrıca məqalə yazan İrfan Ülkü öncə «Orta doğu» qəzetində şeirdən şərqi kimi oxunan üç bənd vermiş, sonra onun haqqında öz düşüncələrini qələmə almışdır. Müəllif doğru yazır ki, bu şeir «Türk dünyasının rus əsarəti altında keçirdiyi illərdə Türkiyəyə mühacir edən müsavatçı azərilər tərəfindən sıx-sıx toplantılarda söylənmiş və kuşakdan-kuşağa* keçərək «Çırpınırdın, Qara dəniz» olaraq bizə çatmışdır. Türk milliyyətçiləri isə əsl varlıq səbəbi olan türk dünyasının qurtuluşu adına bu şərqini bir rəmz halına gətirmişlər» (176).

Bu məqalədə, eləcə də «Hürriyyət», «Zaman» və başqa iri həcmli Türkiyə qəzetlərində verilən bir xəbər də ermənilərin «Sarı gəlin» mahnısından sonra «Çırpınırdın, Qara dəniz» şərqisini də öz adlarına çıxmasıdır. Bu yazılarda göstərilir ki, guya bu şərqini Sayat Nova «Kamança» adı ilə yazmışdır. Erməni xislətini göstərən belə uydurma fikri və yalanı Türkiyə mütəxəssisləri və mətbuat yekdilliklə rədd etmişdir (200; 176 və s.).

Hətta İrfan Ülkü bu məsələlərlə əlaqədar mütəxəssisləri diqqətli olmağa səsləyərək yazır: «Gerçəklər barədə deyilməzsə, yazılmazsa, sabah… türk sənət musiqi əsərləri də novaların, aramyanların filan əsəri deyə ortaya atıla bilər» (176).

Sanki bütün bunlara cavab olaraq 2005-ci il, mayın 8-də Alim Tunc, Mahmud Koçak, Enis Tütüncü və başqa millət vəkillərindən ibarət bir dəstə Ə.Cavadın doğum gününü azərbaycanlı həmkarları ilə birlikdə qeyd etmək üçün Bakıya gəldilər. «Zaman» qəzetinin bu münasibətlə verdiyi xəbərdə bir çox ölkələrin səfirlərinin,

* нясилдян нясиля

Azərbaycanın və Türkiyənin siyasi partiyalarının da iştirak etdiyi bildirilirdi. Burada deyilir ki, «Türkiyə parlament nümayəndələri böyük ilgi gördülər. MHP partiyasının türküsü (marşı mənasındadır – A.M.) olaraq bilinən «Çırpınırdın, Qara dəniz» mahnısı və Azərbaycanın milli marşının müəllifi Ə.Cavad anıldı. Türkiyə parlament heyəti, azərilərə ilginç (maraqlı – A.M) bir sürpriz yapdılar. Ə.Cavadın yaş mərasiminə qatılan vəkillər xor halında sözləri milli şairə aid olan «Çırpınırdın Qara dəniz» türküsünü söylədilər» (162). Məlumatlarda millət vəkillərinin bu sözləri də önə çəkilmişdir ki, «Bütün dünyaya milli məsələlərdə necə birlik və bərabərlik içində olduğumuzu göstərməyə davam edəcəyik» (162).

Türkiyədə əfsanə kimi dillər əzbəri olmuş «Çırpınırdın, Qara dəniz» şeirinə bu ölkənin elm, mədəniyyət və incəsənətə aid, demək olar ki, əksər internet səhifələrində rast gəlirik. Qeyd etməliyik ki, Türkiyədəki əksər mənbələrdə bu şeirin adı «Çırpınırdın» deyil, «Çırpınırdı Qara dəniz» kimi göstərilir. Həddindən çox sevilib mənimsənilmiş olan bu şeirə müxtəlif nəzirələr də yazılmışdır. Güney Azərbaycanın gənc alimlərindən Güntay Gəncalp «Azərbaycan Türk milli kimliyində Üzeyir Hacıbəyli örnəyi» məqaləsində Ə.Cavadın bu şeirinə bir dördlük nəzirə yazmışdır:

Türk yurduna, türk yurduna,
Qıyarmı heç türk yurduna?
Bütün dünya qurban olsun
Türk elinə, türk yurduna (173).

Bir kültür və sənət portalında da (www.antoloji.com) «Çırpınırdın, Qara dəniz» şeirinə yazılmış müəllifsiz bir neçə nəzirə və ya bənzətmələrə rast gəldik. Məsələn:

Qafqazlardan aşacağız,
Türklüyə şan qatacağız,
Türkün şanlı bayrağını
Turan elə asacağız!

Hətta belə variantla da rastlaşdıq:

Türkün şanlı bayrağını
Qarabağa asacağız!

Gördüyümüz kimi, Ə.Cavadın «Çırpınırdın, Qara dəniz» şeiri qəlbi vətən, millət təəssübkeşliyilə vuran türk övladlarının arzu və niyətlərinin tərcümanına çevrilmişdir.

Ə.Cavadın Türkiyədə məşhur «Göy göl» şeirinə də nəzirələr yazılmışdır. Belə nəzirələrdən biri Ali Akbaşın «Göy göl» şeiridir. Şeir «Türk kültürü» dərgisində belə bir təqdimat-epiqrafla çap edilmişdir: «Şair Əhməd Cavadın xatirəsinə». Orada oxuyuruq:

Bir səhər vaxtında vardık Göy gölə,
Burda kızlar gül takıyor kakilə.
Alev-alev bir gül atdım, su yandı,
Sonam dərin uyqusundan oyandı.
Yavaş-yavaş araladı pərdəyi,
Gönlüm gölə düşmüş yaban ördəyi.
Geyib quşanmaya ərinmiş Göy göl,
İpəkdən tüllərə bürünmüş Göy göl. (145, 284)

Bu təsvir və tərənnümlərdən sonra müəllif tarixə üz tutur və Göy göllə bağlı xalq rəvayətləri, inamlar haqda oxuculara bilgi verməyə çalışır. Sonra sözünə belə davam edir:

Şimdi yaylaların son baharıdır,

Dağları qaplayan süd buxarıdır.
Yapayalnız qalmış kuğulu* Göy göl,
Ağlayan göz kimi buğulu** Göy göl.
Uzar kıyında» bir sarı qamış,
Kəndini»* seyr edər sularda yaz, kış.
Şimal küləyiylə kar gəliyor, kar,
Sonamı tufandan qoruyun, dağlar (145, 285).

Burada müəllifi narahat edən əsas səbəb onun sonasını - Göy gölü şimal küləyilə gələn qar-çovğunun, yəni Rusiyanın məhv edəcəyi qorxusudur. Bu motiv, söz yox ki, Ə.Cavadın «Göy göl» şeirindən gəlmədir.

Görkəmli cavadşünas Əli Saləddinin «Əhməd Cavad» monoqrafiyasında isə Azərbaycanın mühacir şairlərindən olan Alazan Baycanın yazdığı «Göy göl» şeiri verilmişdir (110, 318-319). Bu şeir «Əhməd Cavadı anaraq» epiqrafı ilə yazılmışdır. Gətirdiyimiz faktlar Ə.Cavadın «Göy göl» şeirinin də Türkiyədə geniş yayılıb məşhurlaşdığını göstərir.

İ.M.Yıldırım «üzərində ən çox mübahisələr gedən, böyük gurultular qoparan bir şeir» kimi təqdim etdiyi «Göy göl» haqqında danışarkən, burada da türk birliyi arzusu olduğunu qeyd edir: «Bir zamanlar qovuşma həyata keçmək üzrəykən, fələk oyununu oynamış və iki sevgili (Türkiyə və Azərbaycan) bir-birlərindən ayrı düşmüşlər» (175, 53).

Tənqidçi Mustafa Quliyev «Türk ədəbiyyatında sağ uklon» başlıqlı məqaləsində Ə.Cavadın 1928-ci ildə «İstiqlal uğrunda» kitabında çıxan «Göy göl» şeirini də təhlil etmişdi. Əslində bu «təhlil» ittiham məqsədi

* гу гушлу
** ням

daşıyırdı. Müəllif Ə.Cavadın, guya həmin şeirlə hazırda (yəni, o dövrdə) Türkiyədə mühacirətdə olub SSRİ-yə qarşı mübarizə aparan müsavatçıları nəzərdə tutduğunu vurğulayaraq yazırdı: «Bir neçə il bundan əvvəl Ə.Cavad məşhur «Göy göl» şeirində iflas etmiş müsavat ziyalılarının keçmiş «əzəmət» xülyası ilə yaşayaraq ömür keçirdikləri «uzaq ölkələrə» (Türkiyəyə – A.M.) salam göndərmişdi. İndi Cavad bu səfillərə əl uzatmaq istəyir. Bu əli qırmanclamaq lazımdır. Yaltaqlıq, ikiüzlülük, xəyanət və riyakarlığa nəhayət verilməlidir» (43, 93).

Ə.Cavad bu üzdəniraq «tənqidlərdəki» məkrli niyyətləri, onların arxasında düşmənin qəzəblə qıcanan qanlı dişlərini bütün dəhşəti ilə görürdü. Ona görə də özünü müdafiə etmək məqsədilə «Kommunist» qəzetinin 31 oktyabr 1929-cu il sayında çap etdirdiyi «Şiddətli protesto edirəm» başlıqlı məqaləsində ona qarşı irəli sürülən bu tipli ittihamları rədd edirdi.

«Göy göl» şeiri öz məna dərinliyi, bədii ifadə tərzi, poetik gücü ilə ədəbi mühitdə əks-səda oyatmışdı. Ancaq M.Quliyevin tənqidindən sonra yenidən Ə.Cavadın üstünə düşdülər. Şair bu tutduğunu buraxmayan «alovlu» tənqidçilərdən yaxa qurtarmaq üçün yazıçıların hər iclasında, plenumunda özünü təmizə çıxarmağa çalışırdı. Hətta məcburən ürəyindən keçənləri pərdələməyə, inkar etməyə də gedirdi. Şairin ittihamlara cavab verdiyi «İzah» məqaləsində oxuyuruq: «Göy göl» özü özlüyündə lirik bir parçadır. Onun belə olduğundan ümumiyyətlə lirizmə məxsus bir səciyyə etibarilə, müxtəlif mənalar verilə bilər… Şeirimdəki hüzn və üzüntü yalnız şəxsidir, özümə aiddir. …Bən burada böylə bir hüznün bugünkü ədəbiyyata da xeyirli olduğunu deyil, bəndəki hüznün siyasi olmadığını söyləmək istəyirəm» (38 və 43, 169). Bu

cür etirafa bənzər, yozma fikirlərlə razılaşmayan tənqidçilər «Göy göl» şeirinin, ümumiyyətlə, millətçi, müsavatçı, istiqlalçı ruhunu qəbul edə bilmirdilər. Şeirdə bəzi misraların birbaşa Türkiyəyə, müsavatçılara, mühacirlərə ünvanlanması isə onları lap əsəbləşdirirdi. Həqiqətən də, romantik üslubda, simvolik işarə və bənzətmələr əsasında yazılan «Göy göl» şeirində «dağların maralı» ilə istiqlal düşün-cəsi «dumanlı» olduğu qədər də aydındır. Şairin gizlətməyə çalışdığı, ancaq bacara bilmədiyi əsl fikirləri onun həyatının dramatik sonluğundan bəllidir.

Ə.Cavad «dağların yaşıl qoynunda» gah xumarlanan, gah qəribsəyən, gah da gözü yol çəkən «Göy göl»ə layla çalır, təsəlli verir, ağı deyir:

Zümrüd gözlərini görsünlər deyə,
Şamlar boy atmışdır, uzanmış göyə!
Keçmişdir onlara qəzəbin niyə,
Düşmüşlərdir səndən aralı, Göy göl?! (42, 231)

Gözlərindən oxunan və gözlədiyi suala cavab almayan bu maralın intizarı şairə yaxşı tanışdır. Odur ki, onu belə ovundurur:

Dolanır başına göydə buludlar,
Bəzənmiş eşqinlə çiçəklər, otlar.
Öpər yanağından, qurbanlar otlar,
Ayrılıq könlünü qıralı, Göy göl!

və soruşur:

Bir sözün varmıdır əsən yellərə,
Sifariş etməyə uzaq ellərə?.. (42, 231)

Türkiyəyə rəmzi şəkildə «uzaq ellər» deyə tənqid-

çilərin fikrini yayındırmaq istəyən şair həm də ürəyindən keçənləri deməkdən də qorxmur.

Bütövlükdə «Göy göl» şeiri Azərbaycan poeziyasında istiqlal həsrətinin təbiət vasitəsilə, peyzajla simvolik tərənnümünün ən yaxşı örnəyidir. Bu fikri şeirin romantik pafosuna, poetik vüsətinə və məna tutumuna da aid etmək olar. Görün şairin həsrətdən yorulmuş Göy gölü (simvolik mənada Azərbaycanı) «bir yorğun pəri»yə, «dağların maralı»na uykusunu (yuxusunu) səbrə, təmkinə, üzünü aya, ulduza bənzətməsi, bunun poetik ifadəsi necə də həzin və yanıqlı səslənir:

Kəsin eyşi-nuşi, gələnlər, susun,
Dumandan yorğanı, döşəyi yosun.
Bir yorğun pəri var, bir az uyusun,
Uyusun dağların maralı Göy göl! (42, 231)

Bu yanğının içində üçrəngli bayrağımızın simvolları da gizlənmişdir. «Dumandan yorğan» – bayrağımızın üstündəki millətimizin, türklüyümüzün rəmzi olan mavi rəngi, «döşəyi yosun» – dinimizin, islamın rəmzi olan yaşıl rəngi bildirir. Bu yorğan-döşəyin içində uyuyan Göy göl isə üzərinə göydəki ay-ulduzun əksi düşmüş istiqlala qovuşacaq Azərbaycanımızın rəmzidir.

Ruhu, ideyası və gözəlliyi bir-birini tamamlayan «Göy göl» bolşevik tənqidçilərin yuxusunu qaçırırdı. M.Quliyevə görə, «daxili mühacir» olan Ə.Cavadın suçu ondadır ki, «bir dağ gölü»nün kənarında oturaraq keçmiş günləri, «o Azərbaycanı» (Xalq Cümhuriyyəti Azərbaycanını – A.M) düşünmüş, iflas etmiş müsavat ziyalılarının keçmiş «əzəmət» xülyası ilə yaşayaraq ömür keçirdikləri «uzaq ölkələrə» (Türkiyəyə – A.M.) salam göndərmişdi» (43, 93). Guya Ə.Cavad «Göy göl»ü siyasi

ideallarının, ruhi yaşantısının simvolu kimi» verir (57), «Göy göl»ün füsnkar və simvolik mənzərəsindən ruhlanır, yeni həyatı görmür (56). C.Əfəndizadə isə öz qəzəbini uydurma sözlərlə bildirirdi: «Göy göl» mənzuməsində Cavad… bir mistisizm, bir zövqpərəstlik, bir bədiəpərvərlik göstərir. Bugünkü həyatdan o qədər uzaqlaşır ki, oxuyanlar «Göy göl»də simvolizm və ya alleqoriya görmək istəyirlər» (51; 43, 95). Halbuki professor Y.Qarayevin yazdığı kimi, «… cəsarətlə demək olar ki, poeziyanın qədəhini Göy göldən doldurub içən ilk təbiət aşiqi və nəğməkarı Əhməd Cavaddır». Hətta Ə.Cavadın yazdığı «Göy göl»ün «kamillikdə, bədiilikdə də birinciliyini» sonrakı bütün Göy göl vurğunları – Səməd Vurğun da etiraf edib» (79, 7).

3.2. Şairin irsi Azərbaycan mühacirlərinin araşdırmalarında

Məlum olduğu kimi, Ə.Cavad Azərbaycan Xalq Cümhuriyyətinin fəallarından biri kimi dövrün ictimai-ədəbi mühitinin də diqqət mərkəzində idi. Odur ki, onun haqqında həm milli müstəqillik dövründə, həm də 1920-ci ilin aprel çevrilişindən sonra M.Ə.Rəsulzadə, M.B.Məmmədzadə, H.Baykara, Ə.Cəfəroğlu və başqaları qiymətli fikirlər söyləmişlər. Aprel işğalından az sonra M.Ə.Rəsulzadənin qələmə aldığı «Əsrimizin Səyavuşu» əsərində Ə.Cavada da yer ayrılması bu diqqətin nəticəsi idi. Ancaq qeyd etmək lazımdır ki, M.Ə.Rəsulzadənin «Əsrimizin Səyavuşu» əsərində Azərbaycan və Türkiyə şairlərinin ədəbi-mədəni yaradıcılıq ənənələri haqqında söylədiyi məşhur fikri bəzi alimlərimiz hərfi mənada qəbul edərək qeyri-elmi və tamamilə səhv nəticəyə gəlib

bildirmişlər ki, guya Azərbaycan şairlərindən H.Cavid, M.Hadi, Ə.Cavad türk şairlərindən Ə.Hamid, N.Kamal və M.Ə.Yurdaqulun tamamilə təsiri altında olmuş, onları hər hansı şəkildə təqlid və təkrar etmişlər. Həmin yanlış fikirlərə filologiya elmləri doktoru, professor Vaqif Sultanlı və filologiya elmləri namizədi Tural Hüseynli çox aydın və dəqiq cavab vermişlər. V.Sultanlı Ə.Cavad haqqında ədəbiyyatşünaslıqda özünə yer alan bəzi başqa fikirlərdən danışıb, onlara elmi aydınlıq gətirdikdən sonra yazır: «Əhməd Cavad və Məhəmməd Əmin Rəsulzadə mövzusu ilə bağlı digər yanlış bir faktın da aydınlaşdırılmasına ehtiyac vardır. Əhməd Cavad irsinin tədqiqatçılarından biri, filologiya elmləri doktoru Əli Saləddin guya Məhəmməd Əmin Rəsulzədənin Əhməd Cavadı oğulluğa götürmüş olduğunu qeyd edir. Əslində bu, tarixi həqiqətə uyğun deyildir. Məhəmməd Əmin Rəsulzadənin «Əsrimizin Səyavuşu» əsərində türk münəvvərlərinin Azərbaycan yazıçılarını oğulluğa götürməsi ilə bağlı məqamlar vardır. Burada Əbdülhəq Hamidin Hüseyn Cavidi, Namiq Kamalın Məhəmməd Hadini, Məhəmməd Əminin isə Əhməd Cavadı oğulluğa götürməsi qeyd olunur. Aydın məsələdir ki, Türkiyə-Azərbaycan mənəvi əlaqələrindən söhbət gedirsə, burada Əhməd Cavadın mənəvi atası kimi Məhəmməd Əmin Rəsulzadə deyil, türk şairi Məhəmməd Əmin Yurdaqul nəzərdə tutulmuşdur» (115, 86-87).

Həmin məsələ haqqında danışarkən T.Hüseynli daha ətraflı və müfəssəl fikir söyləməyi lazım bilmişdir. O, bir qədər də üsyankarlıqla və sərt şəkildə yazır: «…M.Ə.Rəsulzadənin sözlərini müstəqim mənada qəbul etmək olmaz. M.Ə.Rəsulzadə haqqında söz gedən məsələ ilə əlaqədar fikrin ifadəsində qeyri-dəqiqliyə yol

vermişdir. Ümumiyyətlə, N.Kamal (1840-1888) M.Hadini (1879-1920) oğulluğa necə qəbul edə bilərdi. N.Kamal vəfat edəndə M.Hadinin 9 yaşı var idi. M.Ə.Rəsulzadənin haqqında söhbət gedən fikri müqayisə səciyyəsi daşıyır zənnindəyik. Yəni bu o deməkdir ki, N.Kamalın yolunu M.Hadi, Ə.Hamidin yolunu H.Cavid, M.Ə.Yurdaqulun yolunu isə Ə.Cavad davam etdirmiş, birincilər ikinciləri oğulluğa yox, əksinə, ikincilər birinciləri mənəvi atalığa qəbul etmişlər» (70, 5).

Doğrudan da, Azərbaycan və Türkiyə şairlərinin aralarındakı ədəbi yaradıcılıq ənənəsini təqlidçilik kimi başa düşmək səhvdir.

Əhməd Cavad irsinin Türkiyədə yayılması və öyrənilməsinin növbəti mərhələsində Azərbaycan mühacirlərinin bu ölkədə siyasi və elmi-ədəbi fəaliyyətləri mühüm rol oynamışdır. Belə ki, Azərbaycan mühacirləri öz nəşrlərində «Yeni Qafqasiya», «Qurtuluş», «Azərbaycan Yurd Bilgisi», «Azərbaycan» və s. jurnallarla yanaşı, Türkiyə mətbuatında, habelə ayrı-ayrı kitab və məcmuələrdə ədəbiyyat xadimləri, onların yaradıcılıqları barədə də bəhs edir, əsərlərindən nümunələr çap edirdilər. Həmin ədəbiyyat və mədəniyyət xadimlərimizin arasında Əhməd Cavadın da özünəməxsus xüsusi yeri var idi.

1930-cu illərdə Türkiyədə Azərbaycan ədəbiyyatı, tarixi və mədəniyyəti haqqında tez-tez bir-birindən maraqlı yazılar çap edilirdi. Belə materiallardan biri də professor Əhməd Cəfəroğlunun «Azərbaycan Yurd Bilgisi» dərgisində çap etdirdiyi «Modern Azərbaycan ədəbiyyatına toplu bir baxış» adlı geniş məqaləsi idi. Məqalədə Azərbaycan istiqlal ideyalarının bədii ədəbiyyatda sovet dövründə də davam etdirilməsi xüsusi vurğulanır. Bu barədə oxuyuruq: «…Nəcəf Vəzirli, A.Şaiq,

M.Ordubadi, Ə.Cavad, C.Cabbarlı və sairə kimi ad qazanmış azəri sənət, ədəbiyyat kadrı bu yeni rejimdə də vəzifələrinə davam edərək, yetişdirdikləri yeni məsləkdaşları ilə bərabər, siyasi idarə səbəbiylə qismən mövzuca sosializmə yaxın, fəqət ruhən, şəklən və dilcə tamamilə milli və vətəni olan turk ədəbiyyatını inkişaf etdirməyə çalışmışlar» (153, 47).

Burada bir neçə cəhət diqqəti cəlb edir: Əhməd Cəfəroğlu Azərbaycan ədəbiyyatında yeni və milli ruhlu ədəbiyyatın nümayəndələri sırasında Əhməd Cavadın da adını çəkir. Bununla o, Ə.Cavad yaradıcılığını onun yaşlı həmkarları – N.Vəzirov, C.Məmmədquluzadə, Ə.Haqverdiyev, A.Şaiq, M.S.Ordubadi və başqalarının yaradıcılığı ilə yanaşı qoyaraq, onların estafetinin layiqli davamçısı olduğunu nəzərə çatdırmışdır. Ə.Cəfəroğlu burada həm də, sovet rejimində belə, milli ruhlu ənənələrin məzmun və mahiyyətcə dəyişməyib özünü qoruyub saxladığını, yalnız zahiri və aldadıcı dəyişikliklə rejimin diqqətini yayındırmağa çalışdığın fikri söyləmək istəmişdir. Bizcə, bu fikir də əsaslı və inandırıcıdır. Müəllifin diqqət yönəltmək istədiyi bir məqam da budur ki, sovet rejiminin bütün təqib və qadağalarına baxmayaraq, həmin milli və istiqlal ruhlu ədəbiyyata yeni-yeni ədəbi qüvvələr cəlb edilmişdir. Bu gənclər öz sələfləri ilə yanaşı, türklük ruhunu ədəbiyyatda qoruyub saxlayır və inkişaf etdirirdilər. Belə ədəbi qüvvələr sırasına Ə.Cavadın yaxın dostu və məsləkdaşlarından olan Mikayıl Müşfiq də daxil idi.

Müəllif öz məqaləsində Əhməd Cavadı xatırlayarkən onun bütün varlığını Türkiyə, türklük uğrunda mübarizəyə həsr etdiyini vurğulamışdır. Bununla o, Ə.Cavada və onun yaradıcılığına bir türk olaraq özünün sayqı və məhəbbətini də ifadə etmişdir.

İstiqlalçı şair olan Ə.Cavadın şeirlərinə olan bu maraq və sevginin nədən qaynaqlandığını görmək üçün Mirzəbala Məmmədzadənin 1953-cü ildə Ankarada çıxan «Azərbaycan» dərgisində çap etdirdiyi məqaləsində Ə.Cavada həsr edilən sətirlərə nəzər salmaq yerinə düşərdi. «İstiqlal zəfərinin dastanı» başlıqlı bu məqalədə Azərbaycan ədəbiyyatında milli istiqlal düşüncəsinin meydana çıxma səbəblərindən danışılır, bu zaman birinci növbədə görkəmli şairimiz Məhəmməd Hadinin vətən və hürriyyət məzmunlu şeirləri və onun müasirlərindən olan şair İbrahim Tahir Musayevin «Arzu» şeiri xatırlanır. Bildirilir ki, xalqımızın istiqlal arzusu ilk dəfə bu şeirdə üzə çıxmışdır. Həmin istiqlal arzusunun milli poeziya-mızdakı inkişaf yolundan bəhs edərkən isə M.B.Məmmədzadə haqlı olaraq Əhməd Cavad ismi üzərində dayanır. O, fikrinə belə davam edir: «Fəqət Məhəmməd Hadi hürriyyəti, İbrahim Tahir isə istiqbalı dadlı bir «Arzu» olaraq təxəyyül etmişlərdir. Harsı, ictimai, iqtisadi və siyasi sahələrdəki milli həmlələrimizin məntiqi və təbii bir nəticəsi olaraq, bu halından dinamik milli bir ideal halına inqilab edən bu «Arzu»nun yaratdığı müəzzəm istiqlal savaşını bütün səhifələri ilə böyük milli şairimiz Əhməd Cavadın ölməz misralarında canlanmış buluyoruz» (182, 3).

Göründüyü kimi, müəllif milli istiqlal ideyalarının bütün inkişaf mərhələlərinin Ə.Cavadın poeziyasında öz əksini tapdığını qətiyyət və cəsarətlə söyləyir. O, 15 sentyabr 1918-ci ili – Bakının rus və daşnak qüvvələrindən azad edildiyi tarixi nəzərdə tutaraq, sovet rejiminin qurbanlarından olan Ə.Cavadın həmin tarixi günlərdə Qafqaz İslam Ordusunun və Azərbaycan Könüllülər Ordusunun yanında olduğunu və bu zəfərlərin şahidi kimi

onu necə bir sevinclə tərənnüm etdiyini diqqətə belə çatdırmışdı: «…Milli şairimiz o savaş günlərində bizzat qurtuluş ordusunun safları (sıraları – A.M.) arasında bulunuyordu. Bu baxımdan hərəkat və savaşların şahidi olan şair əsərini realitə edən mülhəm olaraq yazmışdır. Bir Qurban bayramı ərəfəsinə təsadüf edən 14 eylülü (sentyabrı - A.M.) 15 eylülə bağlayan gecə sabaha qarşı (səhərə yaxın – A.M.) ani basqını ilə düşməni sipərlərindən atıb süngü ucuna surətiylə qəti təərrüzə keçən qurtuluş ordusunun zəfər topları şairi coşdurmuşdur. Azərbaycan istiqlal zəfərini dastanlaşdıran bu şeirinə şair, pək* haqlı olaraq «Bismillah» başlığını qoymuşdur. Pək haqlı olaraq dedik, çünki şair yepyeni bir dövrün başladığını müjdələməkdədir. Bu gün (15 sentyabr, 1918-ci il – A.M.) Azərbaycan türkünün mənhus (uğursuz, nəhs – A.M.) taleyi yenilmiş (məğlub edilmiş – A.M.), hürr və müstəqil bir həyata qədəm qoyulmuşdur. … O halda Bakı civarındakı Yanar Dağ, Subam və Yasamalın arxasından atılan zəfər topları şairi nədən coşdurmasın?!» (182, 3)

Əhməd Cavadın həm qələm, həm də süngü ilə istiqlal savaşına qoşulmasını müəllif onun döyüşən ordu sıralarında olmasını bildirməklə nəzərə çatdırır. O göstərir ki, həmin döyüş və qələbə anlarını şəxsən yaşayan Ə.Cavad kimi bir şairi zəfər toplarının sədası coşdurmaya bilməzdi. Şair həmin ruh halını «Bismillah!» şeirində ifadə etmişdir:

Atıldı dağlardan zəfər topları,
Yürüdü irəli əsgər, bismillah!
O Xan sarayında çiçəkli bir qız,
Bəkliyor bizləri zəfər, bismillah!

* чох

M.B.Məmmədzadə məqaləsində Ə.Cavadın şeirindən bu bəndi misal gətirdikdən sonra sözünə belə davam edir: «İstiqlal savaşının zəfər dastanına böylə başlayan Cavad min ildən çox tarixə malik olan Şirvanşahlar dövrünün parlaq xatirəsini yaşadan Bakıdakı Xan sarayında onu zəfər pərisinin bəklədiyinə əmindir» (182, 4).

M.B.Məmmədzadə bu şeirlə Ə.Cavadın həm özünü, həm də əsgərləri inamla qələbəyə ruhlandırdığını söyləməkdə yanılmamışdı. Müəllifə görə, Ə.Cavadın bu inamı həm də bizim qədim dövlətçilik tariximizdən və ənənəmizdən bəhrələnmişdir. O bildirir ki, Ə.Cavad Bakıdakı Xan sarayına sadəcə olaraq XV əsr abidəsi və ya incə zövqlü memar ruhunun naxışlarda əbədiləşmiş inikası kimi baxmaqla kifayətlənmir. Şair üçün bu saray «…hər şeydən öncə milli dövlət ruhunu ilhamlandıran bir simvol rolunu oynamaqdadır» (182, 4).

M.B.Məmmədzadə sözünə davam edərək göstərir ki, Bakıdakı Xan sarayında çiçəkli bir qız şəklində təsvir etdiyi zəfər pərisinin şəxsində şair milli hakimiyyət idealının zəfərini müjdələyirdi. «Yalnız milli dövlət dövrünün timsalı olan Xan sarayı deyil, bəlkə də heyəti-ümumiyyəsi ilə bütün Bakı nişanlısını bəkləyən bir gözəldir» (182, 4). Buradan aydın olur ki, Xan sarayı bütövlükdə Bakının simvoludur. Odur ki, onun timsalında Bakı öz türk nişanlısını gözləyir. Bu nişanlının həsrətindən onun qoynu sis, duman olmuşdur. Şairə görə, bu dumanı ancaq qəhrəman türk oğlu olan nişanlının gəlişi dağıda bilər.

Şeirdə təsvir edildiyi kimi, Bakı – nişanlı qız da öz sevgilisini görən kimi qoynunu açıb onu bağrına basmağa çalışır. Ona görə ki, özünün bütünlüklə türk-Azərbaycan

oğluna məxsus olduğunu bilib, könlünü də ona vermişdir. Bununla Ə.Cavad Bakının məhz bir türk-Azərbaycan şəhəri olması fikrini də vurğulamaq istəmişdir. Ona görə də M.B.Məmmədzadə milli istiqlalımızın zəfər dastanının «Bismillah!» şeiri ilə başlamasına xüsusi diqqət yönəltmişdir.

Mühacirət ədəbiyyatşünaslığımızın tədqiqatçılarından filologiya elmləri üzrə fəlsəfə doktoru, dosent Nikpur Cabbarlı M.B.Məmmədzadənin həmin məqaləsinə istinad edərək onun məsələyə münasibəti haqqında yazır: «Mirzə Balanın bu fikri Azərbaycan milli istiqlal poeziyasının təşəkkülü və inkişafında ayrı-ayrı mərhələlərin səciyyəvi xüsusiyyətlərini dəqiq ifadə edir. Müəllifin «İstiqlal zəfərinin dastanı» adlandırdığı isə Ə.Cavadın «Bismillah!» şeiridir. 1918-ci il sentyabrın 15-də yenicə formalaşmaqda olan Milli Azərbaycan ordusu hissələri və könüllü dəstələri Türkiyənin hərbi yardımı ilə Bakını düşmən qoşunlarından tamamilə azad etmişdi. Ə.Cavadın böyük tarixi əhəmiyyəti olan bu hadisədən ruhlanaraq qələmə aldığı «Bismillah!» şeirini Mirzə Bala istiqlal poeziyamızın diqqətəlayiq nümunəsi kimi dəyərləndirir» (31, 107). Məhz milli istiqlalımızın zəfər dastanının əsas tərənnümçülərindən biri kimi tanındığı üçün Ə.Cavadın yaradıcılığı Türkiyədəki mühacirlərimizin də diqqət mərkəzində olmuş, ona dönə-dönə müraciət edilmişdir. Şairin şeirlərindən bəzi nümunələr Türkiyədə mühacirlərimizin çap etdirdikləri bir sıra məcmuə və kitablarda yer almış, haqqında məqalə və araşdırmalarda dönə-dönə söhbət açılmışdır.

Məlum olduğu kimi, I Dünya müharibəsi zamanı cəbhəyə yaxın bölgələrdə vəziyyətləri son dərəcə acınacaqlı olan türk əsir və qaçqınlarının bir qismi Azərbaycana gön-

dərilmişdi. Ə.Cavad bu işdə xüsusi təşəbbüs və xidmət göstərmişdi. Nağı Şeyxzamanlı Gəncədəki türklərlə görüşdən aldığı təəssüratlardan danışarkən yazır ki, «Gəncədəki türk əsgərlərinə baş çəkirdik. Onlara türkcə kitablar, qəzetlər, M.Ə.Rəsulzadənin çıxartdığı «Açıq söz» qəzetini aparırdıq. Onların incidilməsinə imkan vermirdik. Gənclər, tələbələr və müəllimlər əsirlərə köməyə gəlirdi. Əsirlərin ən çox sevdikləri şair Əhməd Cavad idi» (186, 32). Bu, təsadüfi deyildi. Çünki Ə.Cavadın poeziyasında Türkiyə mövzusu, Türk ordusunun tərənnümü və türklük ruhunun poetik ifadəsi özünü qabarıq şəkildə göstərməkdədir.

Yenə Nağı Şeyxzamanlının xatirələrində oxuyuruq: «Gəncədə Milli Komitənin sədri N.Yusifbəyli idi, baş katibi isə Əhməd Cavad. 1918-ci ilin mayında Gəncədə Milli Komitənin böyük toplantısı keçirildi (Müstəqillik əldə edilməsi münasibətilə – A.M.). …Bütün arkadaşlar şair Əhməd Cavadın gəlməsini bəkliyordu. Milli Komitənin baş katibi olan şair Əhməd Cavad bir az sonra Nəsib bəylə birlikdə gəldilər» (186, 57).

Buradan bir daha aydın olur ki, Əhməd Cavadın milli istiqlalımız uğrunda mübarizəsi və xidmətləri Azərbaycan Demokratik Respublikası dövründə olduğu kimi, sonrakı illərdə də yüksək qiymətləndirilmiş və o, daima hörmətlə yad edilmişdir. Bütün hallarda Ə.Cavad türk dünyasının fədailərindən biri kimi dəyərləndirilmişdir.

Bu cür qiyməti Hüseyn Baykaranın araşdırmalarında da görürük. Onun «Azərbaycan istiqlal mübarizəsi tarixi» kitabı Türkiyədə və Azərbaycanda bir neçə dəfə nəşr edilmişdir. Kitab ilk dəfə 1975-ci ildə İstanbulda işıq üzü görmüşdür. Həmin nəşrə belə bir epiqraf da verilmişdir: «Bu əsərimi adları məlum olan və olmayan, bir hissəsi yoldaş-

larım olan Azərbaycan azadlıq mübarizəsinin əziz şəhidlərinə həsr edirəm!..». Bu təqdimatdan və oradakı «bir hissəsi yoldaşlarım olan» sözlərindən də aydın olur ki, Hüseyn Baykara həmin azadlıq mücahidləri, o cümlədən Ə.Cavadla yoldaş olmuş, onları yaxından tanımışdır. Ona görə də digər yoldaşları kimi, Əhməd Cavadın da azadlıq amalına yaxından bələd olmuşdur. Təsadüfi deyil ki, kitabda Əhməd Cavada həsr edilmiş ayrıca bir bölüm də vardır. Həmin bölüm «Azərbaycan şairi Əhməd Cavad azadlıq mübarizəsində» adlanır.

H.Baykara kitabında Ə.Cavadı oxuculara təqdim edərkən onun Azərbaycan ədəbiyyatına və ictimai hərəkat tarixinə göstərdiyi xidmətlərin müqabilində o dövrə qədər çox az tanındığını diqqətə çatdıraraq yazmışdır: «Əhməd Cavad türk dünyasında çox az tanınan klassik Azərbaycan şairidir. O, türk xalqının dərdləri ilə dərdlənmiş, sevinclərilə sevinmişdir» (22, 175).

Göründüyü kimi, burada iki şey diqqəti çəkir: onlardan biri Əhməd Cavadın «klassik Azərbaycan şairi» kimi təsdiq və təqdim edilməsidir. Bununla H.Baykara Ə.Cavad yaradıcılığına çox böyük dəyər verdiyini nümayiş etdirmişdir. İkinci cəhət isə Əhməd Cavadın milli şair olmasının diqqətə çatdırılmasıdır. Müəllif fikrinə davam edərək bildirir ki, Ə.Cavad öz yaradıcılıq prinsiplərinə daima sadiq qallmışdır. Hətta sovet rejimi dövründə belə yolundan dönməmiş, sadəcə olaraq məcburiyyət qarşısında qalıb «…bu dəfə «simvolizm» ədəbi məktəbini özünə yazı tərzi seçmişdir» (22, 175).

Ancaq H.Baykara Ə.Cavad yaradıcılığı haqqında irəli sürdüyü bu doğru elmi tezisdən sonra bəzi qeyri-dəqiq mülahizələrə də yer vermişdir. Belə ki, o, şairin məşhur «Nisan ağlar Mayısa» şeirini təhlil edərkən elə güman edir

ki, Ə.Cavad həmin əsərini 28 aprel işğalından sonra yazmışdır. Ona görə, guya, 28 aprelin mayıs ayına, daha doğrusu, 28 may istiqlal gününə yas tutub ağlaması fikrini irəli sürür. Şeirin yazılma tarixi uyğun gəlsəydi, bu qənaət yerində olardı. Əslində isə belə deyil; məlum olduğu kimi, 28 aprel – Azərbaycanın rus sovet qoşunları tərəfindən işğalı tarixi 1920-ci ilə aiddir. Ə.Cavadın «Nisan ağlar Mayısa» şeiri isə 1916-cı ildə qələmə alınıb, çapdan çıxmışdır. Şair burada, sadəcə olaraq, təbiət lövhəsini təsvir etmiş, nisanda (apreldə), yağıntının nisbətən çox olmasını onun «ağlaması» kimi təqdim etmiş, bu ağrı-acının mayda da davam edəcəyini, hələ tezliklə bitməyəcəyini ürək ağrısı ilə qələmə almışdır. Bizcə, burada şairi mütəəssir edən əsl səbəb türk xalqlarının yeganə hamisi olan Osmanlı İmperiyasının tənəzzülə doğru getməsidir. Ona görə bu şeirin 28 aprel işğalı münasibətilə yazıldığını söyləmək tarixi və elmi həqiqətdən uzaqdır.

Bundan fərqli olaraq, şairin «İstanbul» şeirinin «müharibədən (Birinci Dünya müharibəsindən – A.M.) məğlub çıxan Türkiyə üçün mərsiyə» hesab edilməsi həqiqətə, şeirin məzmunu və ideyasına uyğundur. Həmin fikri Ə.Cavadın «Səsli qız» poemasına verilən qiymət haqqında da söyləmək olar. H.Baykara bu poemanı geniş təhlil edib, fikrini belə yekunlaşdırmışdır: «poemada («Səsli qız» poeması nəzərdə tutulur – A.M.) görünən bu acı və qanlı simvolik tablolar Azərbaycanın azadlıq mübarizəsində şairin simvolik pərdələrə bürüyərək anlatdığı faciəli hadisələrdir. Bu romantik parçalarda Azərbaycanın müstəmləkə altında yaşamasını çox acı bir şəkildə təsvir etmişdir» (22, 180).

H.Baykara Əhməd Cavadın yaradıcılığında xarici işğalçı qüvvələrə qarşı özünü göstərən milli barışmazlıq

və nifrət motivlərindən bəhs edərkən onun «İngilis» şeirini də nəzərə çatdırır. Bildirir ki, Azərbaycan Demokratik Respublikası dövründə ingilis qoşunlarının Bakıya girməsini Ə.Cavad çox böyük kədər və qəzəb hissi ilə qarşılamışdır. Bu cəhətin ümumən Azərbaycan ictimaiyyətinin diqqət mərkəzində olmasını Hüseyn Baykara belə diqqətə çatdırmışdır: «…Bakı Antanta dövlətlərinin işğalı altında qalır. Azəri mətbuatı, toplantıları ingilislərə qarşı çıxır, mitinqlər keçirilirdi» (22, 178). Belə bir ictimai-milli əhvali-ruhiyyəni ifadə edən Ə.Cavad «İngilis» şeirini yazır. Şeirdə oxuyuruq:

Bakuya gəlmisiz salam verməyə,
Ey Xan sarayını tutan ingilis!
Gedirkən Kəbəyə hacı karvanı,
Hacılar yoluna çıxan ingilis.
Damağında Çanaqqala ağısı,
Sənmisən türk ellərinin yağısı?
İslam dünyasının ölüm çalğısı,
Ölüm ninnisiylə yaxan ingilis!

Sarıb Hindistanın cansız qolunu,
Gəldin bağlamaya «Turan» yolunu.
Aldadıb hər yerdə Tanrı qulunu,
İnsanları ucuz satan ingilis (42, 150).

İngilis qoşunlarını və İngiltərənin işğalçılıq siyasətini, onun türk-islam dünyasına qənim kəsilməsini bildirdikdən sonra Ə.Cavad onların qarşısından geri çəkilməyəcəyini cəsarətlə elan edir. Bu misralarda işğalçılara qarşı kin və nifrətlə yanaşı, vətən sevgisi və qəhrəmanlıq əzmi də qabarıq verilmişdir. Şair amansız düşmənə belə meydan oxuyur:

Bax, yenə qarşında köksümü açdım,
Bakı dağlarına al bayraq sancdım.
Sən meydan oxudun, gəldim, ulaşdım*,
Mərd deyil meydandan qaçan, ingilis!

Sən bağla hər yolu, süngüm tez açar,
Üç ayda gələnlər üç gündə qaçar.
Zənn etmə qurşunum havaya uçar,
Türkdür bu qurşunu atan, ingilis! (42, 150-151)

Misralarda müəllifin qəhrəmanlıq və döyüş əzmi özünü qabarıq göstərməkdədir. Ə.Cavad qürurla düşmənə onu da bildirir ki, türkün atdığı güllə boşa getməz, onun hər biri bir düşmən əsgərini məhv edəcəkdir. Çünki türk cəsur və döyüşkəndir.

«İngilis» şeirinə belə bir qeyd də verilmişdir: «Bu parça əsgərlərimiz tərəfindən Bakı mühasirə edildiyi vaxt Bakı ətrafında bulunan Güzdəkdə söylənmişdir». Buradan bir daha aydın olur ki, Ə.Cavad 1918-ci il 15 sentyabr, Bakının azad olunması günlərində əsgərlərimizlə bir sırada olub onları öz şeirləri ilə qələbələrə ruhlandırmışdır. Şeir belə qurtarır:

O xain gözünü dikdiyin ellər,
Bənim nişanlımdır, türkülər söylər…
Göz dikmə təxtimə, bax, əlim titrər,
Düşəcək təxtinə talan, ingilis! (42, 151)

Göründüyü kimi, Ə.Cavad hər hansı türk elini, o cümlədən Bakını türk gəncinin nişanlısı, onun şərəfi hesab edir. Ona görə də bu türk igidi nişanlısına doğru hər hansı yabancı, yad bir əlin uzandığını görəndə qəzəbdən əlləri

* чатдым – А.М.

titrəyir. Bu qəzəblə də düşməni xəbərdar edir ki, əgər qara niyyətindən əl çəkməsə onun tac-taxtına «talan düşəcək», yəni yurdu viran olacaqdır.

Hüseyn Baykara Ə.Cavadın «İngilis» şeirindən başqa, şəhidlərə həsr etdiyi «Qalx!» şeirini də geniş təhlil etdikdən sonra bildirir ki, şair Bakıda «Mehmetciklərə» qoyulacaq şəhidlər abidəsini «ingilislərə qarşı protest» olaraq görür. «Abidənin təməlqoyulma mərasimində Əhməd Cavad «Qalx» adlı şeirini oxuyur». Hüseyn Baykara şair haqqında təhlillərini yekunlaşdıraraq göstərir ki: «Əhməd Cavad Azərbaycan azadlığına son nəfəsinə qədər sadiq qalmış və bu yolda şəhid kimi canını qurban vermişdir» (22, 182).

H.Baykara Ə.Cavad yaradıcılığının Azərbaycan ədəbiyyatında yeni bir istiqamətin başlanğıcı olması fikrini də irəli sürərək yazır: «Əhməd Cavad şeirində istifadə etdiyi vəzn, üslub və dil yönündən Azərbaycanda «Cavad ədəbi məktəbi»ni yaratmışdır» (22, 179). Bir qədər mübahisəli ola biləcək bu fikrə münasibətimizi bildirmək istərdik.

Ə.Cavad şeirlərinin başda M.Müşfiq, S.Vurğun, A.İldırım olmaqla gənc şairlərin yaradıcılığına təsiri danılmazdır. Ancaq bizcə, «Cavad ədəbi məktəbi» fikrinin arxasında H.Baykaranın Ə.Cavad şəxsiyyətinə və yaradıcılığına sonsuz vurğunluğu, ehtiramı və sevgisi dayanır. O, elə bu sevgi ilə də bildirir ki, Əhməd Cavadın «…böyük ədəbi şəxsiyyətini incələmək bizim biliyimiz xaricindədir» (22, 183). Ona görə də H.Baykara bu poetik sərvətin gələcəkdə geniş və hərtərəfli şəkildə araşdırılmasını arzu edir.

Bütövlükdə, Əhməd Cavadın həyatı və yaradıcılıq yolu, onun poeziyasının mövzusu və ideya-estetik xüsu-

siyyətləri, şairin istiqlal amalı Azərbaycanın Türkiyədəki mühacirlərinin yazılarında dönə-dönə xatırlanmış, əsərləri müxtəlif nəşrlərdə yayınlanmışdır və bütün bunlar onun Türkiyədə daha geniş miqyasda tanınmasına və şöhrət qazanmasına təsir göstərmişdir. Hətta türkiyəli müəlliflər də Ə.Cavadın şəxsiyyətinə və irsinə sistemli və ardıcıl şəkildə maraq göstərməyə başlamışlar.

Əhməd Cavadın yaradıcılığı və şəxsiyyəti haqqında Türkiyədə yerli müəlliflərin yazılarında məlumatlara XX əsrin ilk onilliklərində, daha sonra isə daha çox altmışıncı illərdən sonra rast gəlinir. Türkiyədə 1930-cu illərdə türkçülüyə və millətçiliyə qarşı İsmət İnönünün prezidentlik dövründən aparılan dövlət siyasəti bu işin də əngəllənməsinə səbəb oldu. Hətta SSRİ-nin tələbi ilə Azərbaycan (və digər) mühacirət mətbuat orqanları bağlandı və M.Ə.Rəsulzadə başda olmaqla, bir çox mühacir ölkədən çıxarıldı (26, 47; 64-66). Tarix elmləri namizədi Nəsiman Yaqublunun da yazdığı kimi, «Başda M.Ə.Rəsulzadə olmaqla İstanbulda, Ə.Topçubaşov və C.Hacıbəyli olmaqla isə Parisdə yaşayan mühacirlərimiz imkanları daxilində jurnallar, qəzetlər, bülletenlər, kitablar nəşr edir, bəyanatlar verib Azərbaycanı yaşadıqları ölkənin diqqətində saxlaya bilirdilər…

Lakin o dövrdə Türkiyənin düşdüyü vəziyyət, bolşeviklərlə yaxınlaşmaq məcburiyyəti mühacirlərin bu ölkədə fəaliyyətini getdikcə çətinləşdirirdi. Həm siyasi, həm də maddi baxımdan bu mücadilə getdikcə mümkünsüz olurdu» (128, 78-79). Mühacirət nəşrlərinin qapanması ilə yanaşı, ölkədə milli türklük düşüncəsinə qoyulan qadağalar və onun ardınca II Dünya müharibəsi ictimai-ədəbi fikrin diqqətini bir qədər başqa səmtə yönəltdi. Ancaq müharibənin «barıt tüstüsü dağılıb» ağrı-

acıları azaldıqca Türkiyənin siyasi vəziyyətində yeni bir mərhələ başlanırdı. Bu da ölkənin iqtisadi və mədəni həyatına yeni bir nəfəs verirdi.

3.3. Ə.Cavad Türkiyəli tədqiqatçıların son araşdırmalarında

Araşdırmalar göstərir ki, Əhməd Cavad irsinə Türkiyədə olan maraq və diqqət müəyyən qısa bir müddət ara versə də, səngiməmiş, əksinə, ölkədə əlverişli tarixi şərait yaranan kimi yeni məzmunda üzə çıxmışdır. Özü də sonrakı mərhələ əvvəlkilərdən keyfiyyətcə də fərqlənir. Bunu müşahidələr də göstərir. Belə ki, yuxarıda Əhməd Cavadın «Çırpınırdın, Qara dəniz» şeirinin Türkiyədə geniş şöhrət tapmasını, onun hətta oradakı milli «mehtər marşları» içərisində yer aldığını, siyasi partiyalardan birinin himni kimi də tanınmasını qeyd etmişdik. Maraqlıdır ki, 1990-cı illərdə Ə.Cavad haqqında və ya onun şeirlərindən ibarət çap olunan bir neçə kitabın adı da bu şeirdən götürülmüşdür. Həmin kitablardan birini türkiyəli tədqiqatçı Sərvət Gürcan çap etdirmişdir. Bu kitab 1992-ci ildə Ankara şəhərində nəşr edilmişdir. Tərtibçi Sərvət Gürcan kitaba Ə.Cavadın həyat və yaradıcılıq yoluna dair geniş bir müqəddimə də yazmışdır.

Müqəddimədə şairin həyat və yaradıcılığının işıqlandırılmasına Türkiyə qaynaqları da cəlb olunur, şairin dünyagörüşü, türkçülüyü açıqlanır, əsas şeirləri incələnir. T.Fikrət, R.Tofiq, M.A.Ərsoy, M.Ə.Yurdaqul kimi şairlərdən təsirlənməsi məsələsinə toxunulur. Burada deyilir: «Əhməd Cavad… türk və islam dünyasının təsirli və ən güclü düşünürü olan İsmail Qaspıralının işarət etdiyi «dildə, fikirdə, işdə birlik» düsturu ilə Ziya Göyalp

və Ömər Seyfəddinin «yaşayan türkcə»nin İstanbul ağzına dayanaraq «yazı dili» olaraq istifadə edilməsi fikrinin şeirdə Yurdaqulla birlikdə ən önəmli uyqulayıcısı oldu. Bunu yaparkən də milli vəzn olan heca vəznindən istifadə etdi. Şeirlərində milli ruh, milli düşüncə, milli iş, milli dili təqib etdi» (192, 9).

Türkiyədən əldə etdiyimiz «Selam Türkün Bayrağına» kitabı isə 1992-ci ildə nəşr edilmişdir.* İrfan Murad Yıldırım Azərbaycan ədəbiyyatının görkəmli tədqiqatçısı prof. Yavuz Akpınarın elmi məsləhətçiliyi ilə hələ 1990-cı ildə yazdığı «Əhməd Cavad: Həyatı və əsərləri üzərində bir çalışma» işini «Selam Türkün Bayrağına» adı ilə kitab şəklində çap etdirmişdir. Üzərində Azərbaycan bayrağının rəsmi olan ağ rəngli kitabda Ə.Cavadın «Qoşma», «Dalğa» əsərləri və «Digər şeirləri» başlığı altında 1958-ci ildə nəşr edilmiş kitabından seçmə şeirlər verilib. Bu son kitabdakı şeirlərin çoxu «qorxunc bir siyasi təzyiq altında yazıldığı üçün», İ.Murad «Digər şeirlər» bölümünə həmin şeirlərin hamısını deyil, sadəcə oxucuda rejimin amansızlığı, şairin faciəsi haqqında təsəvvür yaradan və yeri gəldikcə istinad edə biləcəyi şeirləri daxil etmişdir.

224 səhifəlik bu kitab öz quruluşu və səviyyəsi ilə diqqəti çəkir. Bizi maraqlandıran bir də İ.M.Yıldırımın kitaba 56 səhifəlik ön söz yazmasıdır. Tədqiqat səciyyəli bu ön sözdə Ə.Cavadın yaradıcılığının əsas istiqamətlərinin və mərhələlərinin aydınlaşdırılmasına üstünlük verilir. Burada XX yüzilin əvvəllərində Azərbaycanın ümumi mənzərəsi, Türkiyə ilə əlaqələri anladan, ingilis və rus müstəmləkəçiliyini tənqid edən, sosial həyatı əks etdirən, sevgi duyğularını anldan şairin daxili ziddiyyətləri

* Бу китабы Тцркийядян бизя эятирдийи цчцн Профессор Камил Вяли Няриманоьлуна дярин тяшяккцрцмцзц билдиририк.

və öz «mən»inin ifadəsi olan, 1920-ci ildən sonrakı – dövrə aid olan yeni quruluşla bağlı yazılan şeirlər və s. başlıqlar altında ədəbiyyatşünaslığımız üçün ümdə problemlər araşdırılır. İ.Murad çox doğru təsbit etmişdir ki, «Əhməd Cavadı oxumaq Azərbaycan türkünün bu illərdəki ümidlərini, milli həyəcanlarını, duyğularını tanımaq, öyrənmək deməkdir» (175, 55). Onun Ə.Cavadın şeirlərində Tanrıya münasibəti «Dədə Qorquddakı Dəli Domrul havasındadır» fikri də düşündürücüdür. Belə yeni, cəlbedici elmi mülahizələrə görə də alimin bu tədqiqatı araşdırılmağa layiqdir.

İ.Murad girişdə M.F.Axundzadədən üzü bəri siyasi olayların təsirilə milli şüurda baş verən dəyişikliklərdən söhbət açır, bu işdə Azərbaycana göndərilən qəzet, dərgi və kitabların rolunu da diqqətə çəkir. Müəllif bu dönəmdə Türkiyədə olan Azərbaycan ziyalılarının ədəbi-mədəni hərəkatlardan, siyasi cərəyanlardan təsirlənmələri haqda da danışaraq, maraqlı fikir irəli sürür: «Bunlar (Azərbaycan ziyalıları – A.M.) Azərbaycan və Türkiyə arasında sanki kültürəl bir körpü yaratmışdılar. Bu aydınlar sayəsində Azərbaycan fikir və sənət həyatında Türkiyənin izləri görünməyə başladı» (175, 9).

İ.Murad milli romantik şeirin ədəbiyyatımızda ən qüdrətli təmsilçilərinin M.Hadi, H.Cavid, A.Səhhət və Ə.Cavad olduğunu yazır, A.Şaiqi isə «realist şeirin ən önəmli təmsilçisi, eyni zamanda yaxşı hekayəçi» kimi təqdim edir (175, 10). Bizcə, müəllifin A.Şaiqi romantizm ədəbi məktəbinə aid etməməsi, onun yalnız realizminə üstünlük verməsi mübahisə doğurur. Çünki üslubunu hər zaman qoruyub saxlayan A.Şaiq romantik ədəbiyyatımızın görkəmli nümayəndələrindəndir.

Müəllifin fikrincə, Əhməd Cavadı başqa şairlərdən

fərqləndirən cəhət «onun Azərbaycan istiqlalına və milli duyğularına tərcüman olmasıdır» (175, 13). Odur ki, yazırdı: «…Onun şeirlərində ölkəsiylə birlikdə öz taleyini də addım-addım təqib etmək mümkündür. …Onun şeirlərində şairin özünü var edən idealları taleyin acı bir oyunuyla rədd etmək məcburiyyətində qalmasını və bu zaman duyduğu ruhi sancıları, fəryadları da görmək mümkündür» (175, 13).

Kitabın «Əhməd Cavad (1892-1937)» bölümündə İ.Murad zəngin qaynaqlar əsasında şairin tərcümeyi-halını vermişdir. Müəllif hələ arxiv materiallarının üzə çıxmadığı bir zamanda həmin materiallarla kifayətlənməmiş, 1990-cı ildə Ə.Cavadın oğlu Yılmaz Axundzadə və şairin həyat və yaradıcılığının görkəmli tədqiqatçısı Əli Saləddinlə Bakıda görüşüb, fikir mübadiləsi aparmış, bəzi nüanslara mümkün olduğu qədər aydınlıq gətirməyə çalışmışdır.

Müəllif Ə.Cavad yaradıcılığı haqqında fikirlərini ümumiləşdirərək doğru qənaətə gəlir: «Biz şairin 1920-ci ildən əvvəlki şeirləri ilə sevincini, coşqusunu, səmimiyyətini, milliyyətçi yönünü tanıyacağıq. 1920-ci ildən sonrakı şeirlərində isə gərginliklərini, çarəsizliklərini, ağrı-acılarını izləyəcəyik. Bu son dönəm şeirlərində etdiklərini, fikirlərini inkar etməyə məcbur edilən bir sənətçinin fəryadlarını duyacağıq» (175, 26).

Türkiyə ilə bağlı şeirlərindən bəhs edərkən müəllif «Şəhidlərə», «Türk ordusuna», «Ey əsgər», «Çırpınırdın, Qara dəniz», «Şəhid əsir», «Mən bulmuşam», «İstanbul», «Bismillah» kimi şeirləri ayrıca təqdim edir və bildirir ki, «bu şeirlərdə Türkiyə bəzən həsrətlə gözlənilən bir sevgili, bəzən Turan ordusu, bəzən də qeyri-adi özəllikləri olan bir xilaskar kimi yer alır» (175, 27). Müəllif «Mən bulmuşam» şeirini isə belə açıqlayır: «O, cənnətini açıq

gözlə görülən bir röyada, Türkiyədə tapmışdır» (175, 27). Ümumiyyətlə, İ.Murad şairin türkçülük görüşlərini açmağa müvəffəqiyyətlə nail olmuşdur. Bunu müəllifin «İstanbul» şeirini təhlil edərkən söylədiyi fikirlərdən də görmək olar: «Ə.Cavad yalnız Türkiyənin deyil, bütün türklüyün paytaxtı olaraq gördüyü İstanbula və türklüyün qırılan ümidlərinə gözyaşı tökür. Bu, səmimiyyət dolu bir ağlamadır. Çünki bütün dünya türklüyünün ümidi Türkiyədir. Oranın paytaxtının işğalı da bütün türk dünyasında böyük bir ümidsizlik oyandırmışdır» (175, 29). Müəllif Türkiyəylə bağlı şeirləri incələyərək doğru deyir ki, «şair siyasi meydanda görülən bu qarışıqlıqda bütün türklərin istər coğrafi, istərsə də fikrən birləşdiyi bir ideal axtarırdı. Bu ideal Turan idealıdır və bunu gerçəkləşdirəcək olan da Türkiyədir» (175, 30). Ə.Cavadın öz şeirlərində «Bakını xilas etməyə gələn türk ordusundan ordumuz deyə söz etməsi, ingilislərə Çanaqqalada dərs verdik deyə öyünməsi, İstanbulun işğalına göz yaşı tökməsi də bu səbəbdəndir» (175, 37).

Ə.Cavad yaradıcılığındakı milli istiqlal ideyasından danışarkən müəllif şairin bəşəri hisslərini uğurla bu şəkildə ifadə edir: «Ə.Cavad bütün xalqların azad və müstəqil yaşadığı dünya gülşənində müxtəlif xalqlara məxsus güllər, çiçəklər arasında Azərbaycan ətirli, Azərbaycan rəngli möcüzəni də həmişə görmək istəyirdi (175, 24-25).

İ.Murad «Yazıq», «Hərbzədələr», «İmdad», «Nə gördümsə» şeirlərində milli birlik şüurunun əksini yüksək dəyərləndirir. Müəllif şairin «millət dediyi zaman bütün dünya türklüyünü» (175, 39) nəzərdə tutduğunu bildirir, bu şeirlərin «Cəmiyyəti xeyriyyə» xəttilə işğal olunmuş Türkiyə ərazilərini gəzdikdən sonra, «Doğu Anadoluda

erməni qətliamına məruz qalan türk əhaliyə yardım üçün başladılan «Qardaş köməyi» kampaniyasını dəstəkləmək məqsədi ilə yazıldığını» da xüsusi qeyd edir (175, 39). Ə.Cavadın «bu ağrı-acıların, bu vəhşiliyin şahidi olmasını», «onların iztirabını öz içində hiss etməsini» bildirməklə İ.Murad şairin həyat və yaradıcılığını diqqətlə araşdırdığını bir daha göstərmiş olur (175, 40).

«Sevgi şeirləri» bölümünü İ.Murad vətən sevgisi və bəşəri şeirlər deyə iki hissədə incələyir. Vətən sevgisini tərənnüm edən şeirlərdən danışarkən müəllif «Azərbaycan bayrağına», «Al bayrağa» və «Aşiqin dərdi» kimi şeirlərin üzərində dayanır. «Nədən yarandın» şeirindəki «sevgili mələklərin gülüşü», «buludların öpüşü» kimi deyimləri «orijinal imiclər» adlandıran İ.Muradın (175, 45) Ə.Cavad şeirlərinin poetik incəliklərinə həssaslıqla yanaşması təqdirəlayiqdir. Ancaq qeyd etməliyik ki, burada «buludların uçuşu» ifadəsi «gözəlliyin, qızlığın çiçəklərlə öpüşü» ifadəsi ilə qarışdırılmışdır.

«Şairin daxili ziddiyyətləri və öz «mən»ini anladan şeirlər» bölümündə müəllif Ə.Cavadın əsla ümidsizlik təlqin etmədiyindən danışaraq yazır: «O, ən çətin anlarda, ən pis vəziyyətlərdə belə bəlkə soyuqqanlığını itirmiş, amma heç vaxt ümidini itirməmişdir. Bu, əsəbilikdən, yetərincə anlaşılmamaqdan doğan bir sıxıntıdır» (175, 45). Burada «Mən kiməm», «Şeirimə», «Şeirim», «Mayıs», «Dərdim» kimi şeirlər önə çəkilir. İ.Murad «Of, bu yol» şeiri üzərində xüsusi dayanır, şairin öz-özüylə apardığı hesablaşmasının «enişli-yoxuşlu bir vəziyyətdə olduğunu» bildirir və bunun səbəbini haqlı olaraq dövrün siyasi dəyişikliklərində görür (175, 49).

Şairin 1920-ci ilə qədərki yaradıcılığından danışarkən İ.Murad özü də etiraf edir ki, «Ə.Cavadın şeirlərini siyasi,

sosial mövzulu, sevgi şeirləri və s. deyə dəqiq cizgilərlə ayırmaq bizi bəzən yanıldacaqdır» (175, 38). Bu, doğrudan da, belədir. Məsələn, «Bismillah» və «İngilis» şeirlərinin adı «Türkiyəylə ilgili olanlar» bəhsində çəkilsə də, müstəmləkəçiliyə aid olan bəhsdə təhlilə cəlb olunur. Çünki «Bismillah» həm müstəmləkəçilik əleyhinə, həm də Bakını azad etməyə gələn türk ordusunun şərəfinə yazılmışdı.

«Al bayrağa» və «Azərbaycan bayrağına» şeirlərində «bayraq sevgisiylə bərabər Türk birliyi düşüncəsinin» də olduğunu qeyd edən müəllifin (175, 44) bu fikirləri də maraqlıdır ki, «…bayraq hürriyyətin simvoludur. Şair bu hürriyyəti dini motivlərdən istifadə edərək izah edir. Hürriyyət Turan yolunda mücadilə verilirkən qarşılarına çıxmışdır. Türklər bu lütfü dəyərləndirmişlər və Allahın ay və ulduzunu simvol olaraq almışlar» (175, 44).

Odur ki, bəlkə də «Turan idealı» mövzusu ayrı-ayrı bölümlərin içində əridilməyib, ayrıca bir bölüm kimi işlənsəydi, daha yaxşı olardı. Çünki Türkiyə və Azərbaycan sevgisi «Gedərkən Turana çıxdın qarşıma» deyən Ə.Cavadın Turan idealının, Turan eşqinin ayrılmaz hissəsidir.

«Unudulmuş sevda», «Kölgəm ilə Mən», «Göy göl» kimi şeirlərdən danışanda da, İ.Murad istər-istəməz «Turan idealı» mövzusuna toxunur. Çünki müəllifin özü dediyi kimi, Ə.Cavad «dövrünün siyasi çaxnaşmaları və qarışıqlığı arasında milli birliyi, türk birliyini özünə hədəf seçmiş, bunun üçün də ölümə qədər getmiş bir şairdir» (175, 38).

Əsərdə Azərbaycan Xalq Cümhuriyyətinin bolşevik Rusiyası tərəfindən işğalından sonra Ə.Cavada olan təzyiqlərdən, təhdidlərdən də söz açılır. Haqlı qeyd edilir ki, «Ə.Cavad bəzən bu tənqidlərə gücü yetdiyincə cavab

verməyə», bəzən də «simvolların arxasında gizlənməyə çalışır»dı (175, 50-51).

Kitabda şairin simvolik tərzdə yazılan «Unudulmuş sevda», «Sən ağlama», «Kür», «Göy göl», «Kölgəm ilə Mən», «Səsli qız» kimi şeirlərindən daha geniş bəhs edilir. «Unudulmuş sevda» şeirini müəllif belə təhlil edir: «Unudulmuş sevda» şairin ideallarıdır. Onları xatırladıqca şair hüznlü bir xoşbəxtlik hiss edir. Amma duyğusuz, qəlbsiz zamanın əli şairi sarsıtdığı üçün o, keçmiş sevdaları unutmaq məcburiyyətində qalmışdır. Fəqət o sevdanın izləri hələ ürəyindədir» (175, 53).

İ.Muradın bu qənaəti ilə də tam razıyıq ki, Ə.Cavadın yeni quruluşla bağlı şeirlərində «elə misralar var ki, hər biri rejimin insanları, şəxsiyyətləri necə əzib yox etdiyini göstərməsi baxımından ibrət dolu tarixi vəsiqədir» (175, 59).

İrfan Muradın «Füzuli», «Aya», «Xuluqda», «And olsun», «Çoban qızı», «Qurban olduğum», «Madonnaya», «Gözəl qadın», «Leyla», eləcə də şairin öz qızı Almaz üçün yazdığı şeirlərə münasibəti də diqqəti çəkir. «Qızıma» şeirini «Azəri ədəbiyyatında yazılmış mərsiyə-şeir tipinin ən gözəl nümunələrindən biri» adlandırması fikrilə tam razıyıq. Həqiqətən, Ə.Cavad bu şeirdə «həm lirizm, həm ifadə tərzi, həm də şəkil baxımından böyük bir orijinallıq göstərmişdir» (175, 38). Lakin İ.Murad Ə.Cavadın «And olsun», «Leyla», «Füzuli», «Xuluqda» kimi şeirlərindən başqa «digər şeirlərdə quru və donuq bir hava» olduğunu söyləyir (175, 60). Bizə elə gəlir ki, bu bölümdə sadaladığı şeirlərin arasında «Qurban olduğum» kimi incə, lirik şeirlər müəllifin nəzərindən qaçmışdır.

Tədqiqatçı şairin yüzə qədər şeirini incələyərək onu da qeyd edir ki, «hamısı heca vəznində olan bu şeirlərin 52-

sində şair 11-lik, başqa şeirlərində isə 7, 8, 13, 14 və 16-lıq heca qəliblərindən istifadə etmişdir.

